

Coşqun İsa oğlu Məmmədov 21.05.1981-ci ildə Naxçıvan MR Şərur rayonunun Aşağı Yaycı kəndində anadan olmuşdur.

1998-ci ildə Bakı şəhərində 264 nömrəli məktəb-liseyi bitirmişdir. 1998-2002-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində "İstehsal və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi" ixtisası üzrə bokalavr, 2004-2007-ci illərdə isə "Maliyyə" ixtisası üzrə magistr təhsili almışdır. Hazırda Xəzər Universitetinin doktorantı olaraq "Azərbaycanda alternativ və bərpa olunan enerji istehsalı müəssisələrinin inkişafının stimullaşdırılması" mövzusunda fəlsəfə doktorluğu dissertasiya işi üzərində çalışır.

Əmək fəaliyyətinə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xətai rayonu Təhsil Şöbəsində mühasib kimi başlamışdır. Sonralar "Ad Solution" MMC-də baş mühasib, "Həyat" MMC-də direktor müavini, ARDNŞ-nin Sosial inkişaf İdarəsində şöbə rəsinin müavini, həmçinin V çağırış Azərbaycan Respublikası Milli Məclisində ekspert vəzifəsində işləmişdir. Hazırda AMEA-da vitse-prezidentin xidmətində Elmi katib vəzifəsində çalışır. Eyni zamanda, VI çağırış Azərbaycan Respublikası Milli Məclisində ictimai əsaslarla deputat köməkçisidir.

Respublika və beynəlxalq səviyyəli elmi konfranslarda iştirak etmiş (İtaliya, Albaniya, Türkiyə, Rusiya, Ukrayna), otuza yaxın elmi məqaləsi çap olunmuşdur. Həmçinin onlarla elmi-publisistik məqalənin müəllifidir.

2019-cu ildə Azərbaycan Gənclər Mərkəzi tərəfindən "Gənclərin dostu" Milli Mükafatı, 2022-ci ildə isə AMEA Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir, üç övladı var.

COŞQUN MƏMMƏDOV

# SİYASİ-İQTİSADİ REALLIQLAR

SİYASİ-İQTİSADİ REALLIQLAR
COŞQUN MƏMMƏDOV

**COŞQUN MƏMMƏDOV**

# SİYASİ-İQTİSADİ REALLIQLAR

**“Elm və təhsil”**
**Bakı – 2022**

Elmi redaktor:
**Ağahüseyn Şükürov** – filologiya üzrə fəlsəfə doktoru

**Coşqun Məmmədov.** Siyasi-iqtisadi reallıqlar.
Bakı, "Elm və təhsil", 2022, 188 səh.

Kitabda müstəqil Azərbaycan dövlətinin təcrübəsi işığında ölkəmizdə baş verən siyasi-iqtisadi və ictimai prosesləri əks etdirən müasir baxışlar və analitik təhlillər əsasında yazılmış məqalələr təqdim olunur.

Kitab müasir cəmiyyətin aktual məsələləri ilə məşğul olan mütəxəssislər, elmi işçilər və geniş oxucu auditoriyası üçün nəzərdə tutulur.

**ISBN: 978-9952-534-33-7**

© Coşqun Məmmədov, 2022

# SİYASİ BAXIŞ

## VƏTƏNİN QURTULUŞ SAVAŞINA BAŞÇILIQ EDƏN LİDER

### 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜDÜR

Azadlığına yenicə qovuşmuş gənc ölkəmizin müstəqillik tarixinin ilk illəri çox ağır və məşəqqətli dövr idi.

Belə ki, tarix boyu xalqımıza qarşı düşmənçilik siyasəti həyata keçirən Ermənistanın hərbi təcavüzü, eyni zamanda ölkə daxilində hökm sürən özbaşınalıq, hərcmərclik halları dövlətçiliyimizin təməl sütunlarını sarsıdacaq dərəcədə ağır fəsadlara səbəb olmuşdu. Bütün bu kimi çətin hərbi-siyasi və iqtisadi böhran fonunda dövlətin güc strukturları da daxil olmaqla, ümumilikdə ali siyasi hakimiyyətin səriştəsizliyi, zəifliyi respublikada mövcud ağır və acınacaqlı vəziyyəti daha da gərginləşdirmişdi.

Ölkə ərazisində fəaliyyət göstərən bəzi qanunsuz, başıpozuq silahlı dəstələrin törətdikləri hərbi cinayət xarakterli əməllər isə ölkədə qardaş qırğınına, vətəndaş müharibəsinə yol açmışdı.

Belə ki, 1993-cü il iyunun 4-dən başlayaraq Gəncə şəhərində polkovnik Surət Hüseynovun başçılıq etdiyi hərbi hissənin hakimiyyətə qarşı itaətsizliyi və cinayətkar fəaliyyəti ölkəni tamamilə xaosa sürükləmişdi. Təəssüflər olsun ki, böhranı aradan qaldırmaq və nəzarəti həyata keçirmək məqsədilə hakimiyyətin həyata keçirdiyi naşı tədbirlər mövcud vəziyyəti daha da ağırlaşdırmış, çıxılmaz və çətin vəziyyətə gətirib çıxarmışdı.

Həmçinin Respublikamızın bəzi bölgələrində müəyyən maraqlı qüvvələrin dəstəyi ilə məqsədli şəkildə separatçılıq, bölücülük meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi mövcudluğunu və gələcək varlığını şübhə altına almışdı.

Məhz bu cür son dərəcə çətin, mürəkkəb və ziddiyyətli siyasi şəraitdə ölkəni parçalanma və məhvolma təhlükəsindən xilas edəcək, onu parlaq gələcəyə daşıyacaq qüdrətli dövlət xadiminə ehtiyac duyulurdu.

Beləliklə, bu taleyüklü, ağır dövrdə dövlətin gələcək taleyinə biganə qalmayan, xalqın çağırışına səs verən böyük və müdrik siyasətçi Heydər Əliyev Bakıya dönərək, respublikada yaranmış mövcud hərbi-siyasi böhranın aradan qaldırılması istiqamətində ciddi fəaliyyətə başladı.

Bu, həqiqətdir ki, əgər müstəqilliyi qazanmaq ilkin şərtdirsə, onu qoruyub saxlamaq və inkişaf etdirmək ondan da çətin və məsuliyyətli vəzifədir. Bu şərəfli və müqəddəs missiya isə məhz Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və dəmir iradəsi sayəsində reallığa çevrildi.

Vətənimizin parçalanma, məhvolma təhlükəsi ilə üz-üzə qaldığı bir dönəmdə yenidən hakimiyyətə qayıdan Ulu Öndər böyük risklərə, maneələrə və çətinliklərə baxmayaraq, xalqın mənafeyi naminə Naxçıvandan başlayan şanlı qurtuluş savaşının davamı olaraq, bu yeni tarixi missiyanı da cəsarətlə öz üzərinə götürdü.

Ulu Öndər Heydər Əliyev ilk növbədə, ölkədə hökm sürən özbaşınalığa son qoyaraq, ölkəni bürüyən hərbi-siyasi böhranı aradan qaldırdı, respublikada uzun müddətdir davam edən gərginlik və qarşıdurmaya son qoyuldu, respublikamız vətəndaş müharibəsindən, parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, ölkənin inkişafında başlıca və mühüm rol oynayan sabitlik və əmin-amanlıq mühiti bərqərar oldu.

Öz qətiyyəti və siyasi iradəsi sayəsində Ümummilli Lider Heydər Əliyev ən qısa müddətdə ölkəni bürümüş ağır böhranı aradan qaldırmaqla ölkənin gələcək inkişaf strategiyasının bünövrəsini təşkil edən ictimai-siyasi sabitliyi bərqərar etdi, milli dövlətçiliyimizin konsepsiyasını yaratmış oldu.

Eyni zamanda, uzaqgörən dövlət xadiminin apardığı müdrik siyasət nəticəsində yeni və müasir dövrün tələblərinə uyğun olaraq iqtisadi, sosial, hərbi və digər sahələrdə əsaslı, köklü islahatlar həyata keçirildi. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda müsbətə doğru əsaslı dönüş başladı, Azərbaycan dünya birliyinə inteqrasiya etdi.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışı dövlətçilik tariximizə yeni və parlaq səhifə açdı.

Bu müqəddəs tarix respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrildi. Ölkənin gələcək inkişaf konturları cızılmış oldu.

2003-cü ildə xalqın 76,84 faiz səsini toplayaraq, Prezident seçilən cənab İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi bu fikirlər müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyasının ölkəmizə qazandırdığı nailiyyətlərin aydın mənzərəsini ifadə edir: ***“Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanıb. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azəçrbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.”***

Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus unikal siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi ölkədə böhrana son qoymaqla bərabər, xalqımızın bütövlüyünü, həmrəyliyini, milli birliyini təmin etdi, xalqımızı bütöv Azərbaycan naminə azərbaycançılıq ideyaları ətrafında sıx birləşdirdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, onun müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi də inkişafının təməlini qoydu.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin iyunun 15-də Azərbaycan parlamentinin sədri seçilməsi, eyni zamanda mütərəqqi parlamentarizm ənənələrinin formalaşmasını da təmin etmiş oldu.

Belə ki, parlamentin cəmiyyətdəki itmiş nüfuzunun yenidən özünə qaytarılması, onun sağlam mühitdə fəaliyyəti üçün əməli tədbirlərə başlanıldı. Ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, siyasi xaosun, etik qaydalara sığmayan davranışların qarşısı alındı. Müzakirə və diskussiyalar sivil və demokratik qaydalar çərçivəsində aparıldı, qısacası parlament idarəçiliyinə yeni düzən və müasirlik gətirildi.

Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın şanlı tarixinə vətənin qurtuluş savaşına başçılıq edən, canından çox sevdiyi əziz, doğma xalqını tarixin qanlı burulğanlarından zərərsiz çıxara bilən, onu yox olmaq təhlükəsindən xilas edib varolma mərhələsinə daşıyan, dövlətçiliyimizin Xilaskarı, Qalibi kimi daxil oldu.

Azərbaycan xalqının böyük xoşbəxtliyi ondadır ki, o, çətin və mürəkkəb dövrdə müstəqilliyini yenicə əldə etmiş gənc dövlətimizi möhkəm təməllər üzərində inkişaf etdirərək xalqımızı böyük təhlükələrdən xilas edərək, vahid şəkildə parlaq gələcəyə doğru aparıb əmin əllərə əmanət edən Heydər Əliyev kimi müdrik və uzaqgörən siyasətçi rəhbərlik etmişdir.

Xalqımızın digər böyük bir xoşbəxtliyi də ondan ibarətdir ki, Ümummilli Lider Heydər Əliyev kimi qüdrətli dühadan sonra üzərinə götürdüyü böyük məsuliyyəti uğurlu addımları, parlaq siyasəti ilə gerçəkləşdirən, ölkəmizi sabit-

lik, iqtisadi tərəqqi, ictimai-siyasi əmin-amanlıq mühitində hərtərəfli inkişaf etdirən Prezident İlham Əliyev kimi bir lider rəhbərlik edir. Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə Azərbaycan xalqına ünvanladığı müraciətində vurğuladığı kimi: ***"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Hazırda Ümummilli Lider Heydər Əliyevin şah əsəri – müstəqil Azərbaycan Respublikası məhz onun miras qoyduğu dövlətçilik prinsipləri əsasında və Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə parlaq gələcəyə doğru böyük inamla irəliləyir.

Qədirbilən xalqımız isə hər il 15 iyun tarixini – Milli Qurtuluş Günü olaraq qeyd edir, Böyük Xilaskarının xidmətlərinin unudulmadığının bariz göstəricisi kimi Ulu Öndərin müqədddəs məzarını ziyarət edir, Dahi Şəxsiyyəti böyük ehtiram və dərin minnətdarlıq hissi ilə anır.

*"Elm" qəzeti, 12 iyun 2020-ci il, № 07-08 (1242-1243)*

# AZƏRBAYCAN – TOLERANTLIQ MƏKANI

Azərbaycan dinlərarası harmoniya, qədim tolerantlıq və multikulturalizm ənənələrinə malik unikal ölkələrdəndir.

Dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan, beynəlxalq sabitliyə və təhlükəsizliyə ciddi təhdid yaradan ksenofobiya, islamafobiya, anti-semitizm və irqçilik fonunda, Azərbaycanda bütün xalqların, sərbəst və dinc şəraitdə birgə yaşamaları, onların dini etiqad azadlığına malik olmaları olduqca təqdirəlayiqdir.

Əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslam dini ilə yanaşı, Xristianlıq, İudaizm və digər dinlərə etiqad edən insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində, vahid bir ailə kimi yaşayırlar. Çünki tolerantlıq və multikulturalizm azərbaycanlıların həyat tərzidir. Ölkəmizdə fərqli dinlərin nümayəndələrinə qarşı düşmənçilik və nifrət hissləri yoxdur, əksinə, xüsusi hörmət və qayğı vardır.

Bu səbəbdəndir ki, bu gün Azərbaycan bütün dinlərə, həmin dinlərə etiqad edənlərə tolerant münasibət sərgiləyən, bu münasibəti qoruyub saxlayan və inkişaf etdirən Tolerantlıq Məkanı kimi tanınır. Çoxkonfessiyalı, çoxmillətli bir ölkə kimi Azərbaycanda hər bir insanın hüquqları Konstitusiya ilə müdafiə olunur. Digər sahələrdə olduğu kimi, dövlətin qayğısı və dəstəyi bu sahədə də özünü parlaq şəkildə göstərməkdədir. Məscidlər, sinaqoqlar, kilsələr daim dövlət tərəfindən əsaslı şəkildə təmir edilir və ya yeni ibadət ocaqları tikilərək istifadəyə verilir.

Mürəkkəb coğrafi mövqedə yerləşməsinə, torpaqlarının 20 faizinin işğal altında olmasına baxmayaraq, burada bütün dinlərin nümayəndələri azad şəkildə yaşayır, birgə fəaliyyət göstərir, öz dini ibadətlərini sərbəst şəkildə icra edirlər.

Azərbaycanda tarixboyu mövcud olan bu müqəddəs ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi, elə-

cə də multikultural dəyərlərin təbliği daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Bu gün Azərbaycan dövləti müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunub saxlanılmasına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsi kontekstində beynəlxalq əməkdaşlığın inkişafına xüsusi önəm verir.

Multikulturalizm bir dövlət siyasəti kimi bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində böyük uğurla həyata keçirilir və bu da Azərbaycan tolerantlığının gözəl bir örnək kimi bütün dünyada təbliğinə əsaslı şərait yaradır.

Bunun bariz nümunəsidir ki, 14-15 noyabr tarixlərində Bakı növbəti dəfə mühüm bir tədbirə – Dünya Dini Liderlərinin II Sammitinə ev sahibliyi etdi. Dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri bu tədbirdə iştirak etdilər.

Qeyd edək ki, ikigünlük Sammitdə "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" və digər mövzular ətrafında geniş müzakirələr aparıldı.

Tədbirin hazırda dünyamızda dini ayrı-seçkiliyə yol verildiyi, münaqişələrin, dini dözümsüzlüyün, radikalizmin, ksenofobiya, islamofobiya, antisemitizm və irqi ayrı-seçkilik kimi mənfi halların yaşandığı, dindən siyasi məqsədlər

üçün istifadə edildiyi, münaqişələrə dini don geyindirildiyi, münaqişələr zamanı tarixi-dini abidələrin amansızlıqla dağıdıldığı, məhv edildiyi bir dövrdə keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, bu cür önəmli beynəlxalq tədbir dünyanın nüfuzlu din xadimlərinin, dini liderlərinin bir araya gətirilməsi, dini təbliğatın doğru istiqamətdə aparılması və dini bilik səviyyəsinin artırılması məqsədilə cəmiyyətin maarifləndirilməsi baxımından da olduqca önəmlidir.

Bu mənada ölkəmizdə təşkil olunan Dünya Dini Liderlərinin II Bakı Sammitinin qlobal müstəvidə müxtəlif mədəniyyətlər və dinlərarası dialoqun genişlənməsi, qarşılıqlı etimad mühitinin yaradılması, dünyada gedən dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparılması baxımından mühüm əhəmiyyət daşıması ilə yanaşı, xalqımızın qədim multikultural dəyərlərinin geniş təbliğinə, həmçinin ölkəmizin beynəlxalq arenada müsbət imicinin daha da gücləndirilməsinə dəyərli töhfələr vermiş oldu.

Eyni zamanda, bu tədbir tarix boyu ermənilər tərəfindən xalqımıza qarşı yürüdülən işğalçılıq, etnik təmizləmə siyasəti ilə yanaşı, dini-mədəni abidələrin, müqəddəs ziyarətgahların dağıdılaraq dini ayrı-seçkilik siyasətinin də aparıldığının dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından da əvəzsiz fürsət idi.

Onu da qeyd etmək lazımdır ki, belə bir əhəmiyyətli beynəlxalq tədbirin məhz ölkəmizdə keçirilməsi, xalqımızın və dövlətimizin bu sahəyə verdiyi mühüm önəmdən, ölkəmizin beynəlxalq arenada olan yüksək nüfuzundan və ona göstərilən yüksək etimaddan xəbər verir.

*“525-ci qəzet”, 20 noyabr 2019-cu il, № 153 (5364)*

# REGİONLARIN İNKİŞAFI DÖVLƏTİMİZİN DİQQƏT MƏRKƏZİNDƏ

Bu gün ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığını tədricən azaltmaq, qeyri-neft sektorunun inkişafına nail olmaq və iqtisadiyyatı şaxələndirmək dövlətimizin qarşıya qoyduğu başlıca məqsədlərdən biridir.

Bu məqsədlə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə neft-qaz sektorundan əldə edilmiş gəlirlərdən səmərəli istifadə edərək iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək, dayanıqlı və möhkəm iqtisadiyyata nail omaq üçün ciddi əməli tədbirlər görülür, əsaslı və köklü islahatlar həyata keçirilir.

Bu baxımdan Azərbaycan Respublikası regionlarının müvafiq dövrlər üzrə sosial-iqtisadi inkişafını müəyyən edən Dövlət proqramlarının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

Belə ki, Dövlət proqramları əsasında həyata keçirilmiş məqsədyönlü və ardıcıl tədbirlərin nəticəsidir ki, bu gün respublikamızın bütün regionlarında sosial-iqtisadi inkişafa, tərəqqiyə nail olunur. Bu isə ümumilikdə ölkə iqtisadiyyatının dayanıqlığının daha da möhkəmləndirilməsinə xidmət etmiş olur.

Bunun nəticəsidir ki, bu gün respublikamızın ən ucqar yaşayış məntəqələrində yaşayan əhalinin dayanıqlı elektrik enerjisinə, təbii qaza, içməli suya olan tələbatının tam ödənilməsi ilə bağlı əsaslı işlər görülür, rahat və geniş yollar salınır, ölkə üzrə hər il yeni və müasir standartlara cavab verə biləcək səviyyədə təhsil ocaqları, səhiyyə müəssisələri, mədəniyyət mərkəzləri, idman kompleksləri tikilərək vətəndaşların istifadəsinə verilir.

Dövlətimizin yürütdüyü uğurlu sosial-iqtisadi siyasətin də məhz əsas məqsədi ölkəmizin hər bir bölgəsini sürətli və

tarazlı inkişaf etdirmək, əhalinin həyat səviyyəsini daha da yaxşılaşdırmaq və nəticədə vətəndaş məmnunluğuna nail omaqdır.

Ümumilikdə isə statistik göstəricilərə əsasən, Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ölkəmizdə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye sahəsi üzrə 2,6 dəfə, kənd təsərrüfatı sahəsi üzrə isə 1,7 dəfə artım müşahidə edilmişdir.

Həmçinin Dövlət proqramları çərçivəsində ölkə üzrə yoxsulluq və işsizlik səviyyəsinin aşağı salınması məqsədilə ölkəmizdə istər yerli, istərsə də xarici investorlar tərəfindən ölkə iqtisadiyyatına investisiya yatırımlarının artırılmasına nail olunması üçün stimullaşdırıcı, təşviqedici tədbirlər həyata keçirilir, münbit investisiya mühiti yaradılır.

Bunun nəticəsidir ki, paytaxt və regionlarda istehsal və xidmət sahələri davamlı şəkildə inkişaf edir, yeni-yeni müəssisələr yaradılır. Bu isə öz növbəsində yeni iş yerlərinin artımına səbəb olur ki, bu da ölkə vətəndaşlarının yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir. Həmçinin dövlət qayğısı olaraq iş əldə etməkdə çətinlik çəkən aztəminatlı vətəndaşlarımızın aylıq qazanc əldə etmələri və onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət tərəfindən maliyyələşən minlərlə ödənişli ictimai iş yerləri yaradılır.

Beləliklə, 2004–2018-ci illər ərzində Dövlət proqramları çərçivəsində həyata keçirilmiş bu kimi məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla, 2 milyondan artıq yeni iş yeri, 100 mindən çox yeni müəssisə yaradılmış, işsizlik səviyyəsi 5%-ə, yoxsulluq səviyyəsi isə 5,1%-ə qədər enmişdir.

Eyni zamanda, regionların sosial-iqtisadi inkişafına nail olunması yollarından biri də ölkədə kənd təsərrüfatı sahəsi-

nin inkişaf etdirilməsidir. Bu səbəbdən dövlət tərəfindən kənd təsərrüfatı sahəsinin inkişafı, həmçinin ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması əsas hədəflərdən biri hesab edilərək, kənd təsərrüfatı sahəsi üzrə istehsal imkanlarının daha da yaxşılaşdırılması, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalının artımına nail olunması üçün çox ciddi islahatlar aparılır. Şəffaflıqla, güzəştli kreditlərlə, subsidiyalarla bağlı yeni mexanizmlər hazırlanaraq tətbiq edilir.

İqtisadiyyatın dinamik inkışafının təmin edilməsi məqsədi ilə bu il ölkə başçısı cənab İlham Əliyev tərəfindən növbəti Fərmanla "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ı təsdiq edilmişdir.

Bugünədək əldə edilmiş nailiyyətlər, qazanılmış uğurlar bizə əsaslı ümid və əminlik verir ki, başlanılmış inkişaf tədbirlərinin məntiqi davamı olaraq növbəti illərdə də Dövlət proqramı çərçivəsində görüləcək genişmiqyaslı işlər regionların sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə öz müsbət təsirini göstərməklə ölkə iqtisadiyyatının daha dayanıqlı və dinamik inkişafına səbəb olacaqdır.

*"525-ci qəzet", 25 dekabr 2019-cu il, № 168 (5379)*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN MEDİA SAHƏSİNDƏ BİRGƏ ƏMƏKDAŞLIĞI

Səmimi dostluq-qardaşlıq münasibətləri, qarşılıqlı hörmət və etimad, çoxşaxəli yüksək səviyyəli əməkdaşlıq prinsipləri əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim inkişaf etməkdədir.

Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan–Türkiyə münasibətləri bu gün də hər iki dövlət başçısı – cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğan tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü və ardıcıl siyasətin məntiqi davamı olaraq yeni və daha yüksək səviyyəyə qədəm qoymuşdur.

İkitərəfli, qarşılıqlı maraq doğuran əməkdaşlıq, irimiqyaslı birgə layihələrin icrası təkcə hər iki ölkənin deyil, ümum regionda əmin-amanlığın və sabitliyin bərqərar olmasına və inkişafa xidmət edir.

Ölkə başçısı cənab İlham Əliyevin vurğuladığı kimi: ***“Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur”.***

Eyni soykökə, dilə, dinə, çoxəsrlik böyük tarixə, ortaq milli adət-ənənələrə və dərin mədəniyyətə malik Azərbaycan və Türkiyə arasındakı münasibətlər bütün dünya ölkələrinə nümunədir.

Bu gün hər iki dövlət istər regional, istərsə də beynəlxalq məsələlərdə birgə əməkdaşlıq edir, həmrəylik nümayiş etdirir. Belə ki, beynəlxalq arenada hər iki ölkənin diaspor təşkilatları arasında aparılan sıx əməkdaşlıq, həyata keçirilən birgə hərbi təlimlər, böyük iqtisadi layihələr və digər qardaşlıq prinsiplərinə söykənən məsələlərdə olduğu kimi, informasiya sahəsində də birgə əməkdaşlığın aparılması olduqca zəruridir.

Bu məqsədlə sentyabr ayının yeddisində Azərbaycan

Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin İstanbulda Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fəxrəddin Altun və bir sıra dövlət və media qurumlarının rəhbər şəxsləri arasında keçirilmiş görüş yüksək əhəmiyyət kəsb edir.

Görüşdə Türkiyə–Azərbaycan Birgə Media Platformasının yaradılması, xəbər, mütəxəssis və fikir mübadiləsinin həyata keçirilməsi, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılmasının genişləndirilməsi ilə bağlı razılaşma əldə olunması hər iki qardaş ölkənin strateji maraqları baxımından uzunmüddətli perspektivlərə söykənən olduqca önəmli və dövlət əhəmiyyətli bir hadisədir.

Prezidentin köməkçisi Hikmət Hacıyevin də haqlı olaraq qeyd etdiyi kimi: "Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, ilk növbədə, hər iki ölkənin qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət göstərir. Bu baxımdan hər iki ölkənin dövlət və özəl media qurumlarının da yaxın əməkdaşlığı bu əlaqələrin daha da güclənməsinə əhəmiyyətli dərəcədə fayda verəcəkdir".

Türkiyə–Azərbaycan Media Platformasının yaradılması tarixi zərurətdən irəli gəlir. Belə ki, hər iki qardaş ölkənin ümumi məqsəd və hədəfləri eyni olduğu kimi, aparılan informasiya mübarizəsinin istiqaməti də eyni olmalıdır.

Məhz görülən işlər və aparılan danışıqların da əsas qayəsi hər iki ölkəyə yönəlik həyata keçirilən qara piarlara qarşı mübarizədə vahid strategiyanın yaradılmasıdır.

Yalnız bu birlik sayəsində rabitə və informasiya sahəsi üzrə mövcud imkan və təcrübələrin birləşdirilməsi, ortaq layihələrin icrası nəticəsində daha yüksək uğurlar, nailiyyətlər əldə etmək mümkündür.

Bu mənada hər iki qardaş ölkənin mövcud güc və imkanlarını birləşləşdirib, vahid mövqedən çıxış edərək ümumi düşmənə qarşı birgə mübarizə aparması üçün dünya ictimaiyyətinə dəqiq, qərəzsiz, obyektiv və əhatəli informasiyanın çatdırılması olduqca zəruridir.

Ölkələrimizə qarşı aparılan nüfuzdansalma, mənfi təbliğat, dezinformasiya kimi çirkin fəaliyyət cəhdlərinin olduğu bir dövrdə bu layihənin reallaşdırılması böyük əhəmiyyət daşıyır.

Məhz Türkiyə–Azərbaycan Birgə Media Platforması çərçivəsində birgə ortaq fəaliyyət sayəsində haqlı mövqeyimizi əks etdirən doğru məlumatların sürətli şəkildə yerli və beynəlxalq ictimaiyyətə çatdırılması, eyni zamanda ökələrimizə qarşı aparılan şər, böhtan xarakterli yalan xəbər və dezinformasiyanın qətiyyətli şəkildə qarşısının alınmasına nail olunacaqdır.

Belə ki, pərakəndə şəkildə deyil, hər iki ölkə mediasının mövcud imkan və təcrübələrinin koordinasiya olunmuş şəkildə birgə fəaliyyəti müasir dünyada aparılan informasiya müharibəsində effektiv mübarizə üsulu kimi uğurlar əldə edəcəyimizə heç bir şübhə yaratmır.

Xüsusilə informasiya müharibəsinin geniş yayıldığı müasir dövrdə Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə düzgün formada çatdırılması, Xocalı Soyqırımı və digər erməni vəhşilikləri haqqında bütün faktların dünya mediasında işıqlandırılması istiqamətində birgə informasiya və təşviqat işlərinin aparılması ən mühüm addımlardan biri olacaqdır.

Gələcəkdə isə digər dost və qardaş ölkələrin bu platformaya qoşulması ilə Vahid Türk Media Platformasının da təşkil edilməsi mümkün ola bilər. Bu isə ortaq məqsədlərimizin daha sürətli və effektiv şəkildə həyata keçirilməsi baxımından olduqca önəmlidir.

*"Səs" qəzeti, 16 sentyabr 2020-ci il, № 161 (6125)*

# VƏTƏN MÜHARİBƏSİ – ZƏFƏR YOLU

# ERMƏNİ NEOFAŞİZMİ VƏ AZƏRBAYCANIN HAQQ SAVAŞI

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalı regional sülh və təhlükəsizlik üçün real təhdid olaraq qalmaqdadır.

Təəssüflər olsun ki, işğalçı qüvvələrin Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatı *(BMT)* Təhlükəsizlik Şurasının *(TŞ)* 1993-cü il tarixli, 822, 853, 874 və 884 saylı qətnamələri hələ də kağız üzrərində qalmaqdadır. Bu qətnamələrdə ölkəmizə qarşı həyata keçirilən təcavüzkar addımlar qınanılır, münaqişə tərəfi olmayan mülki şəxslərin qorunmasının vacibliyi və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməz olduğu vurğulanır, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi beynəlxalq aləm tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı dəstəklənir.

Həmçinin Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Birliyi, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların mövcud münaqişə ilə bağlı çoxsaylı qərar və qətnamələr qəbul etməsinə rəğmən, Ermənistan tərəfi hələ də bu tələblərə etinasız yanaşmaqda davam edir.

1994-cü il may ayının 5-də Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərində tərəflər arasında dayanıqlı atəşkəsin əldə edilməsi ilə bağlı sazişin imzalanmasına baxmayaraq, Ermənistan tərəfinin nə bu sazişə, nə də indiyədək nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən mövcud münaqişə ilə bağlı qəbul edilmiş tələblərə əməl etməyərək, beynəlxalq öhdəliklərə sadiq olmadığının və hələ də öz çirkin siyasətini davam etdirdiyinin şahidi oluruq.

Belə ki, qəbul edilmiş beynəlxalq hüquq normalarına zidd olaraq Qarabağdakı separatçı rejim tərəfindən Azər-

baycanın işğal olunmuş ərazilərində təşkil olunmuş qondarma "seçki" və "andiçmə" şousunu, Ermənistanın Baş nazirinin də iştirakı ilə keçirilmiş "hərbi parad"ı, qondarma "parlament"in inzibati binasının qədim şəhərimiz olan Şuşaya köçürülməsini, həmçinin Suriya və Livandan olan qaçqınların qanunsuz məskunlaşdırılmasını və digər bu kimi məkrli, məqsədyönlü fəaliyyətlərini buna misal göstərmək olar.

Otuz ilə yaxın davam edən bu uzun müddət ərzində Azərbaycan tərəfi problemin sülh yolu ilə həllinə çalışsa da, qarşı tərəf hər dəfə müxtəlif bəhanələr gətirib, təxribatlar törətməklə danışıqlarda konkret addımlar atmaqdan yayınmış, mövcud status-kvonu hər vəchlə saxlamağa çalışmışdır. Beynəlxaq təşkilatlar isə bu dövr ərzində təcavüzkar Ermənistana qarşı ağır sanksiyalar tətbiq etmək, onları danışıqlar masasında real addımlar atmağa vadar etmək əvəzinə, heç bir əməli tədbirlər görməmişdir.

Azğınlaşmış düşmən törətdiyi cinayətlərin cəzasızlığını görüb daha da aqressivləşərək öz təcavüzkarlıq fəaliyyətini artırmış, bütün diqqət və məqsədini yeni ərazilər uğrunda işğala kökləmişdir. 2016-cı ildə baş vermiş Aprel döyüşlərindən sonrakı dövrdə atəşkəsin mütəmadi pozulma halları yaşansa da, son zamanlar bu təxribatların daha geniş və intensiv hal aldığının şahidi oluruq.

Belə ki, bu ilin iyul ayının 12-də Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən məqsədyönlü şəkildə təxribat törədildi. Ermənistanla dövlət sərhədinin mühafizəsini təşkil edən Dövlət Sərhəd Xidmətinin sərhəd nəzarəti məntəqəsinin balansında ağır hərbi texnikanın olmadığını fürsət bilən xain düşmən mövqelərimizə qarşı ağır artilleriya qurğularından istifadə edərək ani zərbələr endirmiş, nəticədə yüksək rütbəli hərbi qulluqçularımız şəhid olmuşdur.

Düşmənin Tovuz istiqamətində sərhəd bölgəsini intensiv raket atəşinə tutmasında başlıca məqsədi bu ərazilərdən keçən strateji əhəmiyyət daşıyan beynəlxalq enerji və nəqliyyat infrastrukturuna zərər yetirmək idi. Nəticədə mövcud marşurut xətlərinin ciddi təhdid altında olduğunu, regionda qeyri-stabil mühitin hökm sürdüyünü və yeni müharibə mənzərəsinin yarandığını iddia etməklə ölkəmizin tərəfdaş ölkələr və təşkilatlar qarşısında üzərinə götürdüyü beynəlxalq öhdəliklərə zərər vurmaq, onun uzun illərdən bəri formalaşan beynəlxalq müsbət imicinə xələl gətirmək idi.

Digər səbəblərdən biri isə ölkəmizi hücuma qarşılıq verməyə təhrik etməklə üçüncü qüvvələri münaqişəyə cəlb etmək və öz mənfur niyyətinə nail olmaq idi.

Lakin ordumuzun təcili və təxirəsalınmaz tədbirlər görməsi nəticəsində düşmən layiq olduğu cavabı alaraq, geri otuzduruldu və beləliklə, mənfur məqsədlərinə nail ola bilmədi.

Bir müddət sonra iyul təxribatının davamı olaraq avqust ayının 23-də respublikamızın Goranboy rayonu istiqamətindəki təmas xəttində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat törətməyə cəhd etdi. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən görülən ciddi və qabaqlayıcı tədbirlər nəticəsində məlum təxribatın qarşısı alındı, düşmən itki verərək geri çəkildi. Təxribat qrupunun rəhbəri, Ermənistan Silahlı Qüvvələrinin baş leytenantı Qurgen Alaverdyan isə zərərsizləşdirilərək ələ keçirildi. İstintaq tədbirləri nəticəsində sözügedən şəxs Ermənistan Silahlı Qüvvələrinin rəhbərliyi tərəfindən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin şəxsi heyətinə, hərbi infrastruktura, o cümlədən mülki əhaliyə qarşı terror aktları törətmək tapşırığı aldığını, bir qrup Ermənistan hərbçisi ilə birlikdə Azərbaycan ordusunun mövqelərinə basqın təşkil etmək niyyəti ilə hərəkət etdiklərini etiraf et-

mişdir. Bu fakt, işğalçı ölkənin Tovuz döyüşlərindən nəticə çıxarmadığının, öz məğlubiyyətindən dərs almadığının göstəricisi idi.

Nəhayət, sentyabrın 27-də səhər saat 6:00 radələrində düşmən növbəti dəfə iriçaplı silahlardan, minaatanlardan və müxtəlif ağır artilleriya qurğularından istifadə etməklə təmas xəttində yerləşən kəndlərimizə, hərbi mövqelərimizə genişmiqyaslı hücumlar təşkil etməyə başladı. Gəncə, Mingəçevir şəhərlərində mülki əhalinin yaşadığı məntəqələr hədəfə alınaraq uzaqmənzilli ağır artilleriya qurğularından raket atəşinə tutuldu. Nəticədə mülki şəxslər arasında həlak olanlar və yaralananlar olmuş, əhaliyə məxsus çoxlu sayda mülki obyektlər dağıdılmış, təsərrüfatlara ciddi ziyan dəymişdir.

Ermənistanın ölkəmizə qarşı bu cür genişmiqyaslı hərbi əməliyyatlara başlaması dövlətimizi və xalqımızı Vətən uğrunda mübarizəyə qalxmağa, lazımi zəruri tədbirlər görməyə vadar etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən güclü orduları sırasında yer alan qüdrətli Azərbaycan Ordusu beynəlxalq hüquq normaları çərçivəsində düşmənin növbəti təxribatının qarşısını almaqla, bütün təmas xətti boyu əks-hücum əməliyyatları həyata keçirməyə başladı. Nəticədə qısa müddət ərzində düşmənin uzun illər boyu qurduğu və keçilməz saydığı müdafiə xətti yarılaraq onlara məxsus yüzlərlə hərbi texnika və infrastruktur məhv edildi. Minlərlə canlı qüvvə itirən düşmən rəşadətli ordumuzun ağır zərbələrinə tab gətirməyərək, hərbi texnika və silah-sursatı döyüş meydanında tərk edərək qaçmağa, otuz ilə yaxın işğal etdiyi və nəzarətdə saxladığı mövqelərdən geri çəkilməyə məcbur oldu. Nəticədə Şanlı ordumuz Tərtər, Füzuli və Cəbrayıl istiqamətində parlaq qələbələr qazanaraq onlarla kəndi, Suqovuşan, Hadrut kimi qəsəbələri, bir sıra hərbi

strateji əhəmiyyətli yüksəklikləri, Murovdağ zirvəsini və Cəbrayıl şəhərini düşmən tapdağından azad etdi.

Azərbaycan ordusu tərəfindən məhv edilən bu və ya digər hərbi təyinatlı vasitələrin ümumi dəyəri isə yüz milyonlarla dollar səviyyəsində ölçülür. Bu isə Ermənistan kimi borc bataqlığında boğulan, zəif iqtisadiyyata, xarici ianələr hesabına formalaşan büdcəyə malik cılız bir ölkə üçün olduqca böyük və sağalmaz zərbədir. İllik məhsul istehsalı 12,9 milyard dollar, dövlət büdcəsi 3,3 milyard dollar, öhdəliyində mövcud büdcəsindən 2 dəfə çox – 6 milyarddan artıq xarici borcu olan, hərbi büdcəsi isə 600 milyon dollar səviyyəsində olan ölkə üçün bu itkiləri qarşılamaq, əlbətdə ki, mümkünsüzdür.

Öz mənfur və çirkin siyasətindən əl çəkməyən erməni tərəfi humanitar yardım adı altında ölkəyə silah-sursat gətirməkdə davam edir, hətta bunun üçün mülki aviasiya təyyarələrindən belə istifadə edir. Bu isə 1944-cü ildə imzalanmış Beynəlxalq Mülki Aviasiya Konvensiyasının 4-cü maddəsinin kobud şəkildə pozulması deməkdir.

Eyni zamanda, canlı qüvvə sarıdan əziyyət çəkən düşmən xarici terrorçu qruplaşmaların üzvlərinin, muzdluların Ordumuza qarşı döyüşməsi məqsədilə onların işğal altındakı torpaqlarımıza göndərilməsini də gizli şəkildə təşkil etməkdədir. Bu isə beynəlxalq hüququn tələblərinə tamamilə zidd olmaqla, beynəlxalq təhlükəsizliyin pozulmasına şərait yaradan amillərdəndir.

Bütün bunlara rəğmən yüksək səviyyədə döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları, cəbhə boyu üstünlüyü ələ alması Ermənistanda onsuz da kövrək olan psixoloji-emosional durumu daha da ağırlaşdırdı. Hərbi müstəvidə ciddi məğlubiyyətlərə uğrayan düşmən acizliyin aşkar nümayişi kimi yaşayış məntə-

qələrimizi vurmaq, dinc əhalini qətlə yetirməklə öz təbirlərincə qisas almağa başladı.

Ermənistan silahlı qüvvələri Cənubi Qafqazın ən böyük su elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərinə və təmas xəttindən yüz km-dən artıq uzaq məsafədə yerləşən, beş yüz mindən çox əhalisi olan, ölkəmizin ikinci böyük şəhəri – qədim Gəncə şəhərinə müvafiq beynəlxalq konvensiyalar tərəfindən qadağan edilmiş klaster bombaları atmağa başladı. Bu kimi cinayət xarakterli hərəkətləri törətməklə, Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüququ kobud şəkildə pozdu.

Şanlı, rəşadətli ordumuzun ağır və sağalmaz zərbələri önündə acizliyini görən düşmən, ənənəvi "məzlum xalq" obrazına bürünərək, xarici havadarlarına yalvarmağa, onlardan imdad diləməyə başladı.

Nəhayət, oktyabrın 10-da Rusiya Federasiyasının vasitəçiliyi ilə Moskvada keçirilən Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin görüşündə müvəqqəti humanitar atəşkəs barədə razılaşma əldə olundu. Bu razılaşma Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə humanist addım kimi, əsirlərin dəyişdirilməsi və meyitlərin təhvil verilməsini özündə əks etdirirdi.

Lakin humanitar atəşkəs barədə razılaşma əldə olunmasına baxmayaraq, ermənilər daha da azğınlaşaraq riyakar siyasət yürüdərək humanitar əsaslarla müəyyən olunmuş atəşkəs rejimini kobud şəkildə pozdu. Belə ki, 11 oktyabr gecə saat 2 radələrində ağır dağıdıcı effektə malik ballistik raket tətbiq etməklə, cəbhə zonasından 100 km-dən artıq məsafədə yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzində yerləşən çoxmənzilli yaşayış binalarını vurdu. Partlayış nəticəsində 5-i qadın olmaqla, 10 nəfər həlak oldu, aralarında uşaqlar da daxil olmaqla 34 nəfər yaralandı, həmçinin 10-dan artıq çoxmən-

zilli yaşayış binasına və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəydi. Bu xain terror aktını törətməklə Ermənistanın siyasi rəhbərliyi təmsil etdikləri ölkənin terrorçu mahiyyətini bir daha dünyaya nümayiş etdirmiş oldu.

Ümumilikdə isə indiyədək Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriya qurğularından atəşə tutması nəticəsində 42 mülki şəxs həyatını itirmiş, 207 nəfər isə yaralanmışdır. Həmçinin 1 185 ev, 148 mülki obyekt və 57 çoxmərtəbəli yaşayış binası yararsız vəziyyətə düşmüşdür.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın istər Gəncə şəhərinin, istərsə də digər şəhər və kəndlərinin dinc əhalisinin raket atəşinə tutulması hərbi cinayət kimi beynəlxalq humanitar hüququn fundamental norma və prinsiplərinin: 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının və 1977-ci il iyunun 8-də qəbul edilmiş Əlavə Protokolunun kobud şəkildə pozulması kimi hərbi əməliyyatlar zamanı mülki şəxslərin həyatını təhlükəyə atan hər hansı bir hücum və ya fəaliyyətini qadağan edən müddəalarının pozulmasıdır. Gəncə şəhərində törədilən vəhşiliklər erməni terrorunun növbəti təzahürü, ümumilikdə isə bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayət aktı kimi insanlıq tarixində silinməz ləkə olaraq əbədi qalacaqdır.

Faşist ideologiyası əsasında idarəolunan Ermənistan rəhbərliyinin dövlət səviyyəsində törətdiyi məlum xain terror əməli bir daha sübut etdi ki, düşmən əsla atəşkəs rejiminə əməl etmək niyyətində deyil və terrorçu fəaliyyətini hətta humanitar atəşkəs dövründə belə çəkinmədən pozmaqda davam edir. Bu səbəbdən mülki əhalinin kütləvi qətlini törədən Ermənistan Respublikasına beynəlxalq səviyyədə hərtərəfli təzyiqin göstərilməsi olduqca zəruridir. Dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar, eyni zamanda region ölkələri Ermənistanın bu kimi insanlıqdankənar, bəşəri

cinayətlərinə qarşı olduqca sərt mövqe nümayiş etdirməli, terrorçu dövlətə qarşı ciddi və sərt sanksiyalar tətbiq etməlidir. Ən başlıcası isə Ermənistan ordusunun pulsuz silahlandırılmasının qarşısı qəti şəkildə alınmalıdır.

Cinayətkar Ermənistan ordusundan fərqli olaraq, Azərbaycan Silahlı Qüvvələri beynəlxalq hüququn öhdəliklərinə sadiqliyini nümayiş etdirərək, onun bütün norma və prinsiplərinin tələblərinə şərtsiz əməl edir. İstər Qarabağ bölgəsində, istərsə də Ermənistan Respublikası ərazisində mülki obyektləri hədəfə almır. Cənab Prezident İlham Əliyevin də vurğuladığı kimi: ***"Əlbəttə ki, Gəncə belə vəhşi atəşə məruz qaldıqda, bu, hər bir azərbaycanlını hiddətləndirir və adekvat cavab tələb olunur. Amma biz cavabı döyüş meydanında veririk. Dünən itirilmiş qurbanlarımızın qisasını biz döyüş meydanında aldıq. Bizim münasibətimiz belədir: biz heç vaxt mülki şəxslərlə müharibə aparmamışıq, bu gün də aparmırıq. Bu, Azərbaycanı Ermənistandan fərqləndirən cəhətlərdən biridir".***

Bəli, bu gün Azərbaycan ordusu Gəncə və digər şəhər və kəndlərimizdə düşmən tərəfindən qətlə yetirilmiş günahsız mülki vətəndaşlarımızın qisasını düşməndən fərqli olaraq döyüş meydanında, ər meydanında öz hərbi qüdrəti ilə artıqlaması ilə alır. Mərd Azərbaycan əsgəri heç vaxt mülki şəxslərə qarşı silah tuşlamır.

Heç şübhəsiz ki, ordumuzun bu parlaq qələbələrinin əsas səbəbi, cənab Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uzun illər ərzində yürüdülən düzgün ordu quruculuğu, daxili və xarici siyasətdə atılan uğurlu addımlardır. Bunun parlaq nəticəsidir ki, bu gün qarı düşmən istər döyüş meydanında, istərsə də siyasi arenada öz acı məğlubiyyətini dadır.

Xalqımız isə bu çətin, lakin şərəfli günlərdə şanlı və məğlubedilməz ordumuza öz dəstəyini ifadə edir, dövlət-

xalq həmrəyliyini, sarsılmaz birliyini bütün dünyaya nümayiş etdirir. Ürəyi vətən sevgisi ilə alışıb-yanan on minlərlə xalqımızın vətənpərvər övladları parlaq qələbələr yazan ordumuza qatılmaq, torpaqlarımızı işğaldan azad etmək üçün könüllü olaraq hərbi qurumlara müraciət edirlər.

Ön cəbhədən gələn şad xəbərlər hər bir Azərbaycan vətəndaşında torpaqlarımızın tezliklə işğaldan azad olunacağına olan inamını daha da artırır. İnanırıq ki, bu Vətən müharibəsində müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi aparan qüdrətli ordumuz tezliklə zəfər çalaraq, üçrəngli şanlı Azərbaycan bayrağını işğal altındakı bütün torpaqlarımızda dalğalandıracaqdır.

*"İki sahil" qəzeti, 15 oktyabr 2020-ci il, № 182 (7682)*

*"525-ci qəzet", 16 oktyabr 2020-ci il, № 133 (5514)*

# ƏDALƏT QALİB GƏLDİ

Yetmiş illik sovet hakimiyyəti əsarətindən sonra azadlığına yenicə qovuşmuş gənc ölkəmiz, müstəqillik dövrünün ilk illərini – separatizm, ərazilərinin iyirmi faizinin işğalı və bir milyondan artıq vətəndaşının öz əzəli yurd-yuvalarından didərgin düşməsi kimi çətin və ağır sınaqlarla qarşıladı.

Məlum işğal faktı ilə bağlı Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı və bir sıra bu kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən mühüm qərar və qətnamələr qəbul edilmişdir. Lakin çox təəssüflər olsun ki, qəbul edilmiş bu kimi icrası zəruri, mühüm və taleyüklü qərarlar uzun illər boyu kağız üzərində qaldı, heç bir əməli tədbir görülmədi. Haqlı ilə haqsıza fərq qoymamaq, işğalçı ilə işğala məruz qalana eyni mövqedən yanaşmaq kimi çirkin siyasi oyunlar oynanıldı. Səbəb isə gün kimi aydın idi. Beynəlxalq arenada riyakarlığın, ədalətsizliyin acı təcəssümü olan və hələ də dünyada hökm sürən qərəzli və ikili standartlar.

Bu otuz ilə yaxın müddət ərzində dünya sanki lal, kar və kor idi. Baş verməkdə olan bütün bu zülmə və haqsızlığa qarşı biganə münasibət sərgiləyirdi. Qəbul edilmiş beynəlxalq səviyyəli qərarların icrasına yönəlik dünya ictimaiyyətinin nümayiş etdirdiyi bu etinadsızlıq və susqunluq isə Ermənistan tərəfini daha da cəsarətləndirir, qəbul edilmiş beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına tapdalayaraq, öz çirkin işğalçılıq siyasətini davam etdirirdi. Nəticədə günahsız, sivil əhalinin qanı axıdılır, şəhərlər, kəndlər viran edilir, xalqımıza məxsus bütün tarixi-mədəni abidələr məhv edilir, dini inanc yerləri təhqir edilirdi. Təqribi hesablamalara görə, münaqişə zamanı ölkəmizə dəyəri on milyardla dollar səviyyəsində ölçülə bilən maddi və mənəvi ziyan dəymişdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi: ***“Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Burada artıq bu məlumat hər kəsdə var, videogörüntülər var. Mənim azad edilmiş ərazilərə səfərlərim bunu göstərir. Bütün binalar dağıdılıb. Bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır”.***

Nəhayət, 27 sentyabr 2020-ci il tarixində müzəffər Azərbaycan Ordusu qəhrəmanlığı ilə şanlı tarix yazaraq, düşmənin üç-dörd ilə işğal edə bildiyi və otuz ilə yaxın əsarət altında saxladığı tarixi torpaqlarımızı qısa zaman kəsiyində – 44 gün ərzində işğaldan azad etdi.

QARABAĞ AZƏRBAYCANDIR! şüarı ilə düşmən üzərinə şığıyan xalqımızın mərd oğulları qarı düşməni məğlub edərək, işğal edilmiş torpaqlarımızı azad etdi, azad vətən torpaqlarında şanlı Azərbaycan bayrağını böyük qürur və iftixar hissilə dalğalandırdı.

Xalq-iqtidar birliyinin vəhdətindən doğan “Dəmir yumruq” düşmənin başını əzdi, belini sındırdı. Düşmən hələ uzun illər boyu unuda bilməyəcəyi layiqli cavabı aldı. “Məğlubedilməz Ermənistan ordusu” mifi Azərbaycan əsgərinin önündə darmadağın edildi.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq Meydanında Vətən müharibəsində qazanılan Qələbəyə həsr olunmuş Zəfər paradındakı çıxışında vurğuladığı kimi: ***“Bizim Dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi və bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yeri-***

***nə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə də eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq”.***

Bu haqq yolunda şəhidlərimiz, qazilərimiz oldu. 2 783 igid Azərbaycan oğullarının müqəddəs canı və qanı bahasına ölkəmiz nüfuzlu beynəlxalq təşkilatların icra edə bilmədikləri, daha doğrusu, etmək istəmədikləri qətnamə və qərarları özü icra etdi.

Uzun illərdir münaqişənin sülh yolu ilə həll olunması üçün üzərlərinə öhdəlik götürmüş və bu məqsədlə regiona saysız-hesabsız səfərlər həyata keçirmiş ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinin nümayəndə heyətlərinin göstərdikləri “səylər” heç bir fayda vermədi. Azərbaycan özü, öz gücü və birliyi hesabına hərbi-siyasi yollarla münaqişəni həll etdi, işğala son qoyaraq vətən torpaqlarını azadlığa qovuşdurdu.

Ölkə başçısı, Qalib Ali Baş Komandan İlham Əliyevin də vurğuladığı kimi: ***“Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır… Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib. Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat faktiki olaraq de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər.”***

Bəli, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə hərbi güc və bu gücə söykənən siyasi iradə sayəsində vətən həsrətinə son qoyuldu. Xalqımızın uzun illərdən bəri intizarında yaşadığı tarixi torpaqlarımız azad edildi, ərazi bütövlüyümüz bərpa edildi.

Əlbətdə, əldə edilmiş bu uğurun, zəfərin təməlində uzun illərə söykənən böyük əmək, uğurlu və məqsədyönlü ali siyasət dayanır. Məhz iqtisadi, siyasi və hərbi sahə üzrə görülmüş bu tədbirlər, həyata keçirilmiş köklü islahatlar sonunda öz bəhrəsini verdi.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq Meydanında Vətən müharibəsində qazanılan Qələbəyə həsr olunmuş Zəfər paradındakı çıxışında vurğuladığı kimi: ***"Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi. 30 ilə yaxın müddət ərzində əmri gözləyirdi, Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Və həyat bunu göstərdi ki, vaxtlı-vaxtında atılmış addımlar, bütün gücümüzü səfərbər edib bir dəmir yumruq yaradıb düşmənin başını əzdik".***

Artıq münaqişə həll edilmiş, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Regionda yeni reallıqlar yaranmışdır. Bu reallıları isə Azərbaycan, onun müdrik rəhbəri Müzəffər Ali Baş Komandan İlham Əliyev formalaşdırmışdır. Hər kəs, eyni zamanda Ermənistan rəhbərliyi bu həqiqəti qəbul etməli, bununla barışmalı, qapılarını sabitlik və əminəmanlığa doğru açmalıdır.

Postmünaqişə dövründə regionun inkişafı yalnız qonşu dövlətlərin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün qarşılıqlı tanınmasından, ona hörmətlə yanaşılmasından, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığından, bütün istiqamətlər boyu əlaqələrin bərpasından, qısacası, sülh şəraitində yaşamaqla xoş və səmimi münasibətlərin qurulmasından asılıdır. Əks təqdirdə uduzan tərəf yenə Ermənistan rəhbərliyi və onun xalqı olacaqdır. Nə qədər ki,

gec deyil, qarşı tərəf bu gerçəkliklərlə barışmalı, yersiz revanşizm xülyalarına qapılmamalıdır. Əks təqdirdə Dəmir Yumruğu yenidən dadmış olacaqdır.

İkinci Qarabağ və Vətən Müharibəsi bir daha bütün dünyaya sübut etdi ki, regionun lider ölkəsi, söz sahibi Azərbaycandır və onun güclü, Qalib Ordusu vardır.

**Gözün aydın Azərbaycan!**
**Zəfər Günün mübarək!**

*"Elm" qəzeti, 18 dekabr 2020-ci il, № 26 (1261)*

## ZƏNGƏZUR DƏHLİZİ –
## SÜLHÜN VƏ İNKİŞAFIN TƏMİNATI

İllərdir ölkəmizə qarşı nümayiş etdirilən ədalətsiz mövqe, haqlı ilə haqsıza bərabər yanaşma kimi çirkin, ikiüzlü siyasi münasibətlər torpaqlarımızın uzun illər düşmən tapdağında qalmasına rəvac verdi. Lakin dəmir siyasi iradə, dövlət-xalq həmrəyliyi, Ali rəhbərə inam və orduya mənəvi dəstək 44 günlük Vətən müharibəsinin mütləq şəkildə qələbəmizlə yekunlaşmasını təmin etmiş oldu. Otuz ilə yaxın davam edən işğala son qoyuldu, vətən torpaqları işğaldan azad edilərək tarixi ədalət bərpa olundu.

Ölkəmiz öz ərazi bütövlüyünü bərpa etməklə, BMT Təhlükəsizlik Şurasının illərlə kağız üzərində tətbiqini gözləyən, tozlanmış məlum qətnamələrinin icrasını reallığa çevirdi. Xalqımızın şərəf, qürur və heysiyyatını alçaltmağa çalışan mənfur düşmən layiq olduğu cavabı artıqlaması ilə aldı, ədalət zəfər çaldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə vətən, millət və bayraq sevgisi ilə böyüyən yeni nəsil, döyüşçü ruhlu, rəşadətli Azərbaycan ordusu düşmən üzərinə şığıyaraq, haqqı olanı geri aldı, illərlə düşmən tapdağında inildəyən vətən torpaqlarını canı və qanı bahasına işğaldan azad etdi.

Prezident İlham Əliyev həm müdrik siyasi lider, həm də dəmir iradəli Ali Baş Komandan kimi ona qarşı yönələn hədsiz təhdid və ağır təzyiqlərə rəğmən, bütün çətinliklərə sinə gərərək, icra etdiyi missiyanı uğurla başa vurdu, ata vəsiyyətini yerinə yetirdi.

Azərbaycan ordusunun önündə aciz duruma düşən qarı düşmən kapitulyasiya aktına imza atmağa məcbur oldu. Şanlı qələbə yürüşümüzün əsas hədəfi, yekun mərhələsi olan qədim yurd yerimiz, Qarabağın tacı Şuşa şəhərinin işğalçılardan azad olunduğu gün isə xalqımızın qüdrətinin və

milli qürurunun real təntənəsi olaraq – 8 noyabr Zəfər Günü kimi əbədi tarixə düşdü.

Vətən müharibəsindən sonra regionda geosiyasi vəziyyət əhəmiyyətli dərəcədə dəyişdi. Regionda yeni əməkdaşlıq imkanlarına yol açacaq yeni reallıqlar yarandı. Bu reallıqları isə Azərbaycan, onun Prezidenti – Müzəffər Ali Baş Komandan İlham Əliyev formalaşdırdı.

Bu gün postmünaqişə dövründə dövlətimizin qarşısında duran ən başlıca məqsəd, dinc mühitə və tərəqqiyə əsaslanan, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini sürətli şəkildə həyata keçirmək, bölgənin iqtisadi inkişafına nail olmaq, ən yaxın gələcəkdə qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri dönməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2021-ci ilin dövlət büdcəsindən 2 milyard manat sərf edilmiş, gələn ilin dövlət büdcəsindən isə 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Bunun real nəticəsidir ki, müharibənin bitməsindən cəmi bir il keçməsinə baxmayaraq azad olunmuş ərazilərdə köklü şəkildə bərpa və quruculuq işləri həyata keçirilmiş, yeni yollar salınmış, kommunikasiya xətləri çəkilmiş, həyati əhəmiyyətli inzibati infrastruktur obyektləri tikilmiş, bir sözlə, bölgəyə yeni həyat, yeni nəfəs gəlmişdir. Hal-hazırda bölgənin gələcək inkişafını və ən müasir şəkildə təşkilini nəzərdə tutan bir sıra əhəmiyyətli layihələrin icrası davam etdirilməkdədir.

Belə ki, 2021-ci ildə açılışı olan Füzuli Beynəlxalq Hava Limanı, aprel ayında təməli qoyulan Zəngilan Beynəlxalq Hava Limanı və gələcəkdə inşası nəzərdə tutulan Laçın Beynəlxalq Hava Limanı bölgənin beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsi üçün yeni və geniş imkanlar açır.

Eyni zamanda, cari ilin oktyabrın 26-da, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına başlanılmışdır. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki ümumi uzunluğu 124 kilometr olan bu yol Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Azərbaycanı onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Həmçinin strateji əhəmiyyətə malik avtomobil yolu ilə yanaşı, inşası nəzərdə tutulan Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti də əhəmiyyətli hadisədir. Bu dəmir yolu istər Azərbaycan, istərsə də region ölkələri üçün böyük strateji önəm daşıyır.

Ümumilikdə isə İkinci Qarabağ müharibəsində əldə edilən Qələbədən sonra ölkəmiz öz nəqliyyat-kommunikasiya, logistika imkanlarını genişləndirməsi baxımından çox əlverişli imkanlar əldə etmişdir. Belə ki, Vətən müharibəsinin sonunda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə üçtərəfli Bəyanatda Zəngəzur dəhlizinin açılması buna bariz nümunədir. Azərbaycan, Rusiya və Ermənistan arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradır. 10 noyabr 2020-ci il tarixində bütün hərbi əməliyyatların dayandırılmasının elan edilməsi ilə bağlı üç ölkənin dövlət başçıları tərəfindən imzalanmış bəyanatın 9-cu bəndində deyilir: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılır. Ermənistan, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat

əlaqəsinə zəmanət verir. Nəqliyyat nəzarəti Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin, Sərhəd Xidmətinin orqanları tərəfindən həyata keçirilir".

Beləliklə, dəhliz uzun illər blokadada qalmış Naxçıvan Muxtar Respublikasını bu ağır şəraitdən çıxarmaqla yanaşı, xalqımızın tarixi ərazisi olan qədim Zəngəzur torpağına 101 ildən sonra yenidən qayıdışını da təmin edəcəkdir. Cəmi 42 kilometrlik Zəngəzur dəhlizinin bərpa olunması ölkəmiz üçün yeni iqtisadi perspektivlər yaradacaqdır. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı qədim torpağımız olan Qərbi Zəngəzurla, oradan isə Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə Respublikası ilə birləşdirmək, ölkəmizin qazanacağı növbəti tarixi zəfər olacaqdır.

Ölkə başçısı, Prezident İlham Əliyevin də vurğuladığı kimi: ***"Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır... Bu baxımdan Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verir".***

Hazırda Azərbaycan tərəfindən bu istiqamətdə ciddi işlər görülməkdədir. Eyni zamanda, bu dəmir yolu, azad edilmiş torpaqlara həm vətəndaşların gediş-gəlişi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaqdır. Ümumilikdə isə işğaldan azad olunmuş torpaqlarda inşa olunan hər bir yol və gələcəkdə icrası nəzərdə tutulan mühüm əhəmiyyətə malik hər bir layihə regionun tranzit və logistik əhəmiyyətini artırmağa, bölgə iqtisadiyyatının inkişafının daha da sürətlənməsinə xidmət etmiş olacaqdır.

Məlumdur ki, bu gün respublikamız Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında önəmli rola malikdir. Belə ki, Qədim İpək Yolu üzərində yerləşən

Azərbaycan Bakı–Tbilisi–Qars dəmiryolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Şimal-Cənub" beynəlxalq nəqliyyat və Trans-Xəzər tranzit dəhlizləri vasitəsilə Çin ilə Avropa arasında "mühüm körpü" rolunu oynayır. Bu baxımdan Zəngəzur dəhlizi də ölkəmiz üçün, onun gələcək nəqliyyat və logistik imkanlarının daha da genişlənməsi baxımından olduqca mühüm əhəmiyyətə malik olacaqdır.

Bu gün artıq postmünaqişə dövründə Zəngəzur dəhlizi dövlətimizin strateji hədəf və maraqları çərçivəsindədir. Bu layihə təkcə ölkəmiz üçün deyil, ümumilikdə region ölkələrinə böyük fayda gətirməklə, beynəlxalq nəqliyyat layihələrində Cənubi Qafqazın rolunu əhəmiyyətli dərəcədə artıracaq, Qafqazı mühüm logistik mərkəzə çevirəcəkdir. Eyni zamanda, bu layihə region ölkələrinin, bu layihəyə qoşulacaq və onun imkanlarından yararlancaq digər tərəfdaş ölkələrin maraqlarına, onların sosial-iqtisadi inkişafının və xalqlarının həyat rifahının yüksəməsinə də xidmət etmiş olacaqdır.

Cənab prezident İlham Əliyevin BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyasındakı çıxışında vurğuladığı kimi: ***"Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu re-***

***gional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm."***

İllərdir dövlət səviyyəsində dəstəklənən və təbliğ edilən faşizm ideologiyası və ifrat torpaq tamahkarlığı ilə qonşu ölkələrə qarşı bitib-tükənməyən ərazi iddialarının ağır nəticəsidir ki, bu gün Ermənistan iqtisadiyyatı hələ də öz tənəzzül dövrünü yaşamaqdadır.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən düzgün strateji xətt, həyata keçirilən sistematik siyasi-iqtisadi kurs sayəsində işğalçı Ermənistan bütün mühüm beynəlxalq əhəmiyyətə malik regional layihələrdən kənarda qalmışdır.

Bütün bunlara rəğmən münaqişə artıq keçmişdə qalmış, ölkəmiz öz ərazi bütövlüyünü təmin etmiş və yeni bir dövr – sülh, əməkdaşlıq və inkişaf üçün dəyərli fürsət dövrü başlamışdır. Bu səbəbdən illərdir sərgilədiyi qeyri konstruktiv mövqe səbəbindən bütün regional layihələrdən təcrid olunmuş və hələ də onun ağrı-acısını çəkən Ermənistan hökuməti yaranmış bu fürsəti maksimal dərəcə dəyərləndirməli, qonşu ölkələrə qarşı əsassız ərazi iddialarından imtina etməli, ona hörmətlə yanaşmalıdır. Postmünaqişə dövründə əsas məqsəd də məhz bölgədə davamlı sülhü təmin edəcək dövlət sərhədlərinin delimitasiya və demarkasiya proseslərinin başlanılması, kommunikasiya əlaqələrinin qurulması və iki ölkə arasında iqtisadi münasibətlərin bərpa edilməsi olmalıdır. Yalnız bundan sonra sülh və əminamanlıq şəraitində bölgənin inkişafına və onun çiçəklənməsinə nail olmaq mümkündür.

Ermənistandan fərqli olaraq, ölkəmiz hər zaman üzərinə götürdüyü bütün öhdəliklərin, o cümlədən kommunikasiya əlaqələrinin açılması ilə bağlı razılaşmaların yerinə yetirilməsinə sadiqliyini vurğulamışdır. Bölgədə qalıcı sülh

və sabitliyin bərqərar olmasına, beynəlxalq hüququn ali prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət əsasında yeni əməkdaşlıq formatları çərçivəsində münasibətlərin normallaşdırılmasının tərəfdarıdır. Bu baxımdan Zəngəzur dəhlizi uğurlu regional əməkdaşlıq nümunəsi olmaqla yanaşı, bölgədə sülhün və sabitliyin möhkəmlənməsinə də öz dəyərli töhfəsini verəcəkdir.

Eyni zamanda, bu proses dünyada tranzit yük daşımalarının həcminin artdığı bir dövrdə, Xəzər dənizində su nəqliyyatının inkişafında da böyük rol oynayacaqdır. Belə ki, bu dəhlizin Avropa və Asiya ölkələri arasında qitələrarası yeni alternativ nəqliyyat şəbəkəsinin formalaşmasında əhəmiyyəti olduqca yüksəkdir. Bu baxımdan Zəngəzur dəhlizi Uzaq Çin və Qərb dünyası arasında yeni nəqliyyat yolu kimi yükdaşımaların fasiləsiz və səmərəli şəkildə daşınmasında önəmli ticarət marşrutu kimi də çıxış edərək, Azərbaycana və bütün iştirakçı ölkələrə yeni dividentlər qazandıracaqdır. Beləliklə, yaradılacaq yeni nəqliyyat-kommunikasiya infrastrukturu yük daşımalarının artımına xidmət etməklə regional və dünya miqyasında iştirakçı, tərəfdaş ölkələrə, iqtisadi cəhətdən yüksək fayda verəcəkdir. Eyni zamanda, iqtisadi inkişafın və beynəlxalq ticarətin stimullaşdırılmasında da böyük rola malik olacaqdır.

Zəngəzur dəhlizi, otuz ilə yaxın ağır və çətin blokada şəraitində yaşamasına rəğmən öz inkişaf yolunu uğurla qət etmiş Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas ərazisi ilə çıxışını da təmin etmiş olacaqdır. Dəhliz, eyni zamanda Naxçıvan Muxtar Respublikası vasitəsilə qardaş ölkə – Türkiyə Respublikası ilə də əlaqələri möhkəmləndirəcək və bu əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəkdir. Beləliklə, qardaş ölkələr uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə qovuşacaqlar. Cənubi Qaf-

qazın lider ölkəsi olan Azərbaycanla, dünyada ciddi böyük potensiala və gücə malik Türkiyə arasında olan bu birlik, ümumən Cənubi Qafqazda sülhə, sabitliyə və əməkdaşlığın bərpa olunması istiqamətində müsbət dəyişikliklərə də öz töhfəsini verəcəkdir.

Beləliklə, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ümumilikdə türk dünyasının coğrafi baxımdan da birləşməsi deməkdir. Belə ki, bu təkcə coğrafi və siyasi anlamda deyil, həmçinin böyük iqtisadi gücə malik və nominal ümumi daxili məhsulu 1,1 trilyon dollardan çox olan türkdilli dövlətlərin strateji və iqtisadi cəhətdən birləşməsi də deməkdir. Belə ki, Türkiyə 761,4 milyard dollar, Qazaxıstan 181,7 milyard dollar, Özbəkistan 57,9 miyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızstan 8,5 milyard dollar nominal ÜDM-ə malik ölkələrdir. Bu isə Zəngəzur dəhlizinin kifayət qədər yüksək iqtisadi potensiala və təbii resurslara malik olan böyük və geniş coğrafi ərazini birləşdirən önəmli nəqliyyat infrastrukturu olduğunun bariz sübutudur.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin də vurğuladığı kimi: ***“Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr***

***üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün...”.***

Beləliklə, qədim yürd yerimiz olan Zəngəzur yenidən Böyük Türk Dünyasının birləşdiricisi rolunu oynayacaqdır. Layihə həm tarixi aspektdən, həm müasir geosiyasi reallıqlar prizmasından, həm də siyasi-iqtisadi baxımından Türk dövlətlərinin güclənməsini, beynəlxalq və regional siyasi-iqtisadi proseslərdə birgə rolunun və həmrəy iştirakının daha əhəmiyyətli təsirə malik olmasına xidmət etmiş olacaqdır.

*“Xalq” qəzeti, 29 yanvar 2022-ci il, № 20 (29848)*

*“Elm” qəzeti, 30 dekabr 2021-ci il, №48 (1310)*

# ŞUŞA – AZƏRBAYCANIN TARİX VƏ MEMARLIQ ABİDƏSİ

Keçən əsrin 90-cı illərinin əvvəllərində həm xarici, həm də daxili faktorlardan yaranan mənfi təsirlər nəticəsində Azərbaycan bir dövlət, xalq, hətta coğrafi ərazi kimi böyük risklərlə üz-üzə qalmışdı. Xalqın səriştəsiz, zəif və qətiyyətsiz rəhbərliyə olan inamının tükənməsi xalq və hakimiyyət arasında böyük uçurumun yaranmasına səbəb olmuşdu. Eyni zamanda, ölkədə yaranmış hərc-mərclik mühiti, geniş şəkildə tuğyan edən özbaşınalıq halları, vahid nizami ordunun yoxluğu və ölkədə baş verən vətəndaş qarşıdurması dövlətçiliyimizin sütunlarını ciddi şəkildə sarsıdaraq, onun gələcək mövcudluğunu böyük şübhə altına almışdı.

Bütün bu yaranmış anarxik vəziyyətdən və xaosdan yararlanan məkrli düşmən öz çirkin planlarını reallaşdırmağa müvəffəq oldu. Tarixi və əzəli torpaqlarımız bir-birinin ardınca işğal edilməyə başlanıldı. Xüsusilə münaqişənin ilkin dövrlərində məhz Şuşanın itirilməsi digər rayonların da işğalına rəvac verdi. Belə ki, Şuşanın mənsub olduğu mühüm əlverişli coğrafi mövqe ümumilikdə bütöv Qarabağ və Şərqi Zəngəzur bölgəsinə tam nəzarəti həyata keçirməyə hərbi-strateji baxımdan böyük imkanlar yaradırdı.

Beləliklə, 1992-ci il may ayının 8-nə keçən gecə erməni hərbi birləşmələri keçmiş Sovet ordusunun 366-cı alayının hərbi qulluqçularının və 40 zirehli texnikasının köməyi ilə qədim və doğma şəhərimiz olan Şuşa şəhərinə hücuma keçdilər. Hücum nəticəsində 195 nəfər vətəndaşımız qətlə yetirildi, 165 nəfər isə yaralandı, onlardan 150 nəfəri əlil oldu, 522 uşaq valideynlərini itirdi. 20 mindən artıq Şuşa sakininin acı taleyinə isə doğma yurd-yuvalarından didərgin düşərək, məcburi köçkün olmaq yazıldı.

İşğal dövründə qarı düşmən sanki şuşalılarsız tənha qalan, təklənən Şuşanın özü ilə döyüşməyə başladı. İşğal nəticəsində şəhər tamamilə talan edildi, zəngin muzey və kitabxanalara məxsus dəyərli tarixi əsərlər, eksponatlar, xalçalar yağmalanaraq Ermənistana daşındı. Tarix və mədəniyyət abidələri yerlə-yeksan edildi. Dini-inanc yerləri, qəbiristanlıqlar vandalizm aktları nəticəsində dağıdılaraq təhqir edildi, aşağılandı. Hətta xan qızı Xurşidbanu Natəvanın məzarı insanlıq simasını itirmiş düşmən tərəfindən qızıl-zinət əşyalarını talamaq məqsədilə dağıdıldı, yerlə bir edildi. Ən acınacaqlı hal isə ondan ibarət idi ki, şairəyə məxsus cənazədən əsər-əlamət belə qalmamışdı. Qarabağ şahzadəsinin Şuşanın Xanlıq məhəlləsində tikilən, tarixi XVIII-XIX əsrlərə gedib çıxan, bir zamanlar balaca Üzeyir Hacıbəylinin tez-tez şairə qonşusuna qonaq getdiyi, onun qəzəllərinə heyranlıqla qulaq asdığı, çəkdiyi rəsmləri məftunluqla seyr etdiyi sarayı da talanaraq dağıdıldı, xarabazara döndərildi. Bu, o mülk idi ki, bir zamanlar Bülbülün təşəbbüsü ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1932-ci ildə qəbul etdiyi Qərarı ilə Azərbaycanda ilk uşaq musiqi məktəbi olan "Şuşa Musiqi Məktəbi" yaradılaraq bu binada fəaliyyətə başlamışdı. Bütün bu kimi vandallıq aktları bizlərin nə qədər amansız və faşist düşmənlə mübarizə apardığımızın bariz nümunəsi idi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin də vurğuladığı kimi: ***"... Görün biz kimlərlə üz-üzə idik və biz kimi məğlub etmişik? ... bu, təkcə ərazi bütövlüyümüzün bərpası deyil, erməni faşizminin belinin qırılmasıdır. Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik...".*** Bəli, biz müzəffər xalq, qalib dövlət kimi, öz birliyimizlə, həmrəyliyimizlə erməni faşizmini məğlub etdik, onun başını əzdik, düşməni önümüzdə diz çökdürdük.

Şuşa, xalqımızın qədimliyini, onun zəngin mədəniyyətini özündə tərənnüm edən qədim və unikal memarlıq abidələri ilə zəngin yurd yerlərimizdən biridir. İşğala qədər şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan yerli daş döşəməli küçələr, 9 məhəllə, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. Həmçinin Şuşada 25 məktəb, 31 kitabxana, 20 səhiyyə müəssisəsi, 17 klub, 8 mədəniyyət evi, 4 texnikum, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya və turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi, Qafqazda tək və yeganə olan Şərq musiqi alətləri fabriki fəaliyyət göstərirdi.

Eyni zamanda, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünədək şəhərdə 72 mühüm sənət və tarixi abidə, dövlət xadimlərinə və digər tanınmış şəxsiyyətlərə məxsus ev və ev muzeyləri var idi. Bu abidələrin əksəriyyəti XIX əsrdə yaşamış və yaratmış Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib və həmin dövrün ən məşhur nəqqaşı olan Kərbəlayi Səfərəli tərəfindən bəzədilmişdi.

Lakin çox təəssüflər olsun ki, 30 ilə yaxın davam edən işğal dövründə xalqımıza məxsus tarixi-mədəni irsin məhv edilməsi siyasətini həyata keçirən erməni vandalları tərəfindən yüzlərlə tarixi memarlıq abidəsi məhv edildi, Pənahəli xanın sarayı, Cümə məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev muzeyləri dağıdılaraq xarabalığa çevrildi. Əvəzində isə Şuşanın tarixi adını saxtalaşdıraraq "Şuşi" adlandıran, "bura qədim erməni yurdudur", – deyə dünyaya tanıtdırmağa çalışan məkrli düşmən, şəhərdə oliqarxların öz şəxsi istirahətləri üçün tikdirdikləri malikanələri çıxmaqla, daşı daş

üstünə qoymadılar, bir fidan belə əkmədilər. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Şuşada Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı vurğuladığı kimi: ***"...Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb"***. Bu real faktlar bir daha bu qədim Azərbaycan torpağının onlar üçün əziz və doğma olmadığının, bu yerlərdə qorxu və səksəkə içində müvəqqəti yaşadıqlarının bariz nümunəsidir.

Bütün bu kimi əzablara və çətinliklərə baxmayaraq, nə zamansa ədalətin bərqərar olacağına, sülh və danışıqlar yolu ilə münaqişənin sona yetəcəyinə, işğal edilmiş bütün tarixi torpaqlarımızın geri qaytarılaraq haqqın öz yerini tapacağına böyük inam və ümidlər var idi. Lakin çox təəssüflər olsun ki, dünya birliyi tərəfindən nümayiş etdirilən ikili yanaşma, siyasi riyakar münasibətlər qəbul edilmiş və icrasını gözləyən mühüm beynəlxalq əhəmiyyətli qərarların masa üzərində qalmasına səbəb oldu.

Nəhayət, dünya birliyi tərəfindən sərgilənən ədalətsiz və haqsız mövqelərə rəğmən məğrur və qürurlu Azərbaycan xalqı işğalla heç vaxt barışmayacağını, ədalətsizliyə boyun əyməyəcəyini ortaya qoydu. Xalqımız üçün mədəniyyət qibləgahı olan müqəddəs Şuşanı içki məclisləri ilə murdarlayan, yallılar gedərək "Qarabağ Ermənistandır və nöqtə", "yeni ərazilər uğrunda yeni müharibə" kimi hədələyici, sərsəm və məsuliyyətsiz bəyanatlar səsləndirən, onu təbliğ edən azğınlaşmış düşmən öz layiq olduğu cavabı aldı. 44 günlük Vətən müharibəsində Qalib Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusu otuz ilə

yaxın düşmən tapdağında inildəyən vətən torpaqlarını işğaldan azad edərək, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə müvəffəq oldu. Qalib Azərbaycan əsgəri onun xalqına və dövlətinə qarşı illərdir həyata keçirilən işğalçılıq, talançılıq və soyqırımların qisasını döyüş meydanında və ona yaraşacaq şəkildə – ləyaqətlə aldı. Düşmənin başı xalqımızın birliyinin rəmzinə çevrilmiş "Dəmir Yumruq"la əzildi, ərazilərimizə soxulmuş qanlı əlləri kəsildi.

44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan əsgəri öz igidliyi, qəhrəmanlığı, vətənə olan sonsuz məhəbbət və sədaqəti ilə bir növ qəhrəmanlıq salnaməsi yazdı. Xüsusilə qədim və doğma yurd yerimiz, mədəniyyət beşiyimiz Şuşa şəhərinin ciddi zərər görməməsi məqsədilə yüngül silahlarla silahlanmış Azərbaycan oğulları o hündür, sıldırım Şuşa dağlarına dırmaşaraq, düşmənlə üz-üzə, diş-dişə gəldi, qanlı döyüşlə ona məxsus olanı geri aldı. Qalib Azərbaycanın şanlı bayrağını Şuşa Qalasında dalğalandırdı.

Düşməni vahiməyə salan səhnələrdən biri də o idi ki, qəhrəman Azərbaycan əsgəri vurulsa da, yenidən ayağa qalxır, qana boyanmış əlləri ilə sıldırım qayaların kəsici daşlarından yapışaraq nəinki özünü, kürəyində yaralı, hətta şəhid qardaşını belə özü ilə o müqəddəs şəhərə qaldırırdı. Bu mərd, qorxmaz vətən oğulları kürəklərində təkcə əsgər yoldaşını deyil, sanki Şanlı Qələbəni də o müqəddəs məkana daşıyırdılar. Məhz bu igid Azərbaycan oğullarının Şuşaya doğru addımladığı mübarək ayaq izləri Zəfər Yolumuzun cığırlarına çevrildi.

Beləliklə, şanlı qələbə yürüşümüzün əsas qayəsi, son missiyası olan qədim yurd yerimiz, Qarabağın tacı Şuşa şəhərinin işğalçılardan azad olunduğu gün, xalqımızın qüdrətinin və milli qürurunun real təntənəsi olaraq – 8 noyabr Zəfər Günü kimi əbədi tarixə düşdü.

Keçmiş Sovetlər Birliyi ölkələri sırasında işğal edilmiş torpaqlarını azadlığa qovuşduran yeganə ölkə kimi Azərbaycan – dünyada tarix yazmış, qüdrətli dövlət, qalib xalq olaraq öz layiq olduğu məqama sahibləndi. Məhz bu şücaətin nəticəsidir ki, bu gün Azərbaycan ordusunun qazandığı döyüş təcrübəsi, xüsusilə zərgər dəqiqliyi ilə hazırlanmış və böyük şücaət tələb edən Şuşa əməliyyatının detalları dünyanın nüfuzlu ekspert və hərbi-siyasi mərkəzləri səviyyəsində, hərbi təhsil ocaqlarında öyrənilir və tədris edilir. Ümumilikdə isə bu müharibə nəinki Azərbaycanın, bütöv dünyanın hərb tarixinə qazandırılan böyük hərbi-taktiki bilik təcrübəsi oldu.

Hazırda postmünaqişə dövründə bütün işğaldan azad olunan ərazilərdə sürətli şəkildə böyük bərpa və quruculuq işləri həyata keçirilməkdədir. Əsas məqsəd bölgənin iqtisadi inkişafına nail olmaq, ən yaxın gələcəkdə qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri dönməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2021-ci ilin dövlət büdcəsindən 2 milyard manat sərf edilmiş, cari ilin dövlət büdcəsindən isə 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Ən başlıcası isə ondan ibarətdir ki, bütün bu görülmüş işlər və gələcəkdə icrası nəzərdə tutulan tədbirlər, zəruri layihələr xarici yardımlar olmadan, ölkəmizin bugünkü iqtisadi gücünə əsaslanan real maddi imkanlar hesabına həyata keçirilir. Bu isə əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış siyasi-iqtisadi kursun möhkəm təməllər üzərində olduğunun və Prezident İlham Əliyev tərəfindən düzgün və uğurlu şəkildə davam etdirildiyinin sübutudur.

İşğaldan azad olunmuş ərazilərdə ilk bərpa və quruculuq işlərinin məhz Şuşada həyata keçirilməsi isə Qarabağın tacı olan Şuşanın xalqımız üçün nə qədər önəmli, müqəd-

dəs və əziz olduğunun göstəricisidir. Çünki Şuşa tarix boyu bütün çətinliklərə rəğmən, hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz bir parçası olmuş və bu cür də qalacaqdır.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşmanı zəruri edir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 may 2021-ci il tarixli, 2632 nömrəli Sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir.

Eyni zamanda, Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2021-ci il tarixli, 1375 nömrəli Fərmanı ilə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Həmçinin bərpa və quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi də məhz Şuşa rayonuna təyin edilmişdir.

Şuşada işğalın səbəb olduğu dağıntılar nəticəsində milli-mədəni irsimizə məxsus bütün tarixi-memarlıq abidələrinin bərpası, eyni zamanda təbiətə vurulmuş zərərlərin aradan qaldırılması məqsədilə təxirəsalınmaz işlərə 2021-ci ilin yanvarın 14-dən başlanılmış və qısa müddət keçməsinə

baxmayaraq, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının əvvəlki görkəminə qaytarılması yönündə nəhəng layihələr gerçəkləşdirilməkdədir.

Bu layihələr azad olunan ərazilərdə inzibati, tarixi və mədəni abidələrin bərpası ilə yanaşı, həm də tarixi torpaqlarımızda illərdir həyata keçirilməyən mədəni tədbirlərimizin, ənənələrimizin bərpasını da əhatə edir. Beləliklə, işğaldan azad olunan torpaqlarımız hazırda bərpa və quruculuq işləri ilə yanaşı, eyni zamanda mənən və ruhən də dirçəlməkdədir.

İlk addım kimi vaxtilə ermənilər tərəfindən güllərbaran edilmiş dahi şəxsiyyətlərimizin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri doğma yurdlarına geri qaytarıldı və Şuşa şəhərinin mərkəzi meydanında yerləşdirildi. Eyni zamanda, mənfur düşmən tərəfindən dağıdılmış Şərqdə ilk operanın müəllifi, müasir musiqimizin qurucusu – dahi bəstəkar Üzeyir Hacıbəylinin abidəsi yenidən ucaldıldı, dahi bəstəkarın viran edilmiş evinin bərpası ilə bağlı işlərə başlanıldı. Görkəmli sənətkar, bülbül avazlı, məlahətli səs sahibi, böyük xanəndəmiz Bülbülün ev muzeyi bərpa edildi.

Bu gün uzun sürən ayrılıqdan sonra azad Şuşamız yenidən festivallar, poeziya günləri və bir çox başqa mühüm mədəni tədbirlərə də ev sahibliyi etməkdədir. Belə ki, 12-13 may 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə “Xarıbülbül” musiqi festivalı qala-konserti keçirildi. Festival çərçivəsində Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Tofiq Quliyevin və digər böyük Azərbaycan bəstəkarlarının əsərləri təqdim olundu, tanınmış ifaçıların çıxışları dinlənildi.

Konsertdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi ***"Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu. Biz onlarsız yaşaya bilmərik"*** tarixi fikirləri və Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi ***"Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"*** sözləri qürur və duyğulu hisslər fonunda hörmət və ehtiramla anıldı.

30 Avqust 2021-ci il tarixində isə ölkə başçısı, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vaqif Poeziya Günləri böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri, Azərbaycan ədəbiyyatında, poeziyasında xüsusi yeri olan, yeni səhifə açan Molla Pənah Vaqifin doğma şəhərində yenidən təşkil olundu. Çox təəssüflər olsun ki, vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də o, qarlı, şaxtalı, soyuq qış günündə açılışı olan məqbərə işğal dövründə bütün digər tarixi-mədəni abidələrimiz kimi erməni vandalizminin qurbanına çevrilmişdi. Şükürlər olsun ki, bu gün

artıq azad Şuşada məqbərə Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən tam bərpa edildi, böyük şairin xatirəsinə ucaldılan məqbərə yenidən öz əvvəlki əzəmətini geri qaytarmış oldu.

Bütün keçirilmiş mədəni tədbirlər bir daha Şuşamızın sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolunda mətin addımlarla irəlilədiyini göstərir.

Eyni zamanda, Şuşada bir sıra infrastruktur sahələrinin inşası da nəzərdə tutulmuşdur. Bu məqsədlə Ölkə Başçısı, Prezident İlham Əliyev tərəfindən bir sıra mühüm Sərəncamlar imzalanmışdır:

- "Şuşa Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2021-ci il tarixli 2988 nömrəli Sərəncamı. Sərəncama əsasən, Şuşa rayonunda 90 çarpayılıq mərkəzi xəstəxananın layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 500 min manat ayrılmışdır;
- "Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2021-ci il tarixli, 2989 nömrəli Sərəncamı. Sərəncama əsasən, Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə ilkin olaraq 200 min manat ayrılmışdır;
- "Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Pre-

zidentinin 8 may 2021-ci il tarixli, 2643 nömrəli Sərəncamı. Sərəncama əsasən, 960 şagird yerlik Şuşa şəhər 1 nömrəli tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır;

- "Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 may 2021-ci il tarixli, 2642 nömrəli Sərəncamı. Sərəncama əsasən, Şuşa şəhərində növbəti istilik mövsümündə 31 binanın isitmə və isti su ilə təmin edilməsi üçün qazanxanaların, binadaxili sistemlərin layihələndirilməsi, tikintisi və quraşdırılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 1 milyon manat vəsait ayrılmışdır.

Vətən müharibəsindən sonra regionda geosiyasi vəziyyət əhəmiyyətli dərəcədə dəyişmişdir. Yeni əməkdaşlıq imkanlarına yol açacaq yeni reallıqlar yaranmışdır. Bu reallıqları isə Azərbaycan, onun Prezidenti – Müzəffər Ali Baş Komandan İlham Əliyev formalaşdırmışdır. Yeni reallıqlar prizmasından yanaşdıqda Şuşa daha bir möhtəşəm, ölkəmiz və onun təhlükəsizliyi baxımından önəmli tarixi əhəmiyyət kəsb edən tədbirə ev sahibliyi etdi. 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı. Bu Bəyannamə iki qardaş ölkənin mövcud birliyini daha üst səviyyələrə

daşımağa xidmət edəcəkdir. Dostda güvən, düşməndə qorxu hissləri oyadacaq bu hərbi-siyasi təhlükəsizliyə və müttəfiqlik münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək birgə bəyannamənin məhz Şuşada imzalanması isə geosiyasi reallıqlar prizmasından xüsusi önəm daşıyır. Belə ki, tarixdə 100 il əvvəl imzalanmış Qars müqaviləsitək mühüm əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsi sayəsində Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla dünyada ciddi potensiala və böyük nüfuza malik Türkiyə arasında yaranan bu birlik regionda sülhə, sabitliyə və tərəqqiyə öz dəyərli töhfəsini verəcəkdir.

Şuşa şəhərinin Sovet hakimiyyəti dönəmində – ötən əsrin 70-ci illəri və 80-ci illərin əvvəlində keçdiyi sürətli inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz onun şəxsi təşəbbüsü ilə qəbul edilmiş, böyük və əsaslı quruculuq işləri həyata keçirilmişdir. 1977-ci ildə görkəmli dövlət xadimi və böyük siyasətçi Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan edilməsi haqqında" qərar qəbul edilmişdir. Həmçinin Azərbaycan SSR Nazirlər Sovetinin 1985-ci il 27 dekabr tarixli 414 nömrəli Qərarı ilə "Şuşa dövlət tarix-arxitektura qoruğu" yaradılmışdır. Qəbul edilmiş bu kimi qərarlar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin, avqustun 2-də Xurşidbanu Natəvanın abidəsinin açılışı və bir sıra mühüm mədəni tədbirlərin həyata keçirilməsi buna bariz nümunədir. Bu bir daha Ulu Öndərin öz vətəninə, xalqına, onun tarixinə, mədəniyyətinə xüsusi qayğı və diqqətlə yanaşdığının göstəricisidir.

Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, həmin dövrdə erməni tarixçilər və rəsmi dairələr ölkəmizə qarşı saxtalaşdırılmış xəritələr, materiallar əsasında ərazi iddiaları ilə çıxış edirdilər. Lakin xalqının mənafeyini, dövlət maraqlarını hər şeydən üstün tutan, onu canı və qanı bahasına olsa belə, müdafiə edəcək müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbirlik etdiyi o dönəmlərdə *(1969–1982)* bütün bu kimi əsassız iddiaların qarşısını qətiyyətlə almış, Ermənistana bir qarış belə vətən torpağının pay verilməsinə imkan verməmişdir. Şuşanın önəmini yüksək dəyərləndirən Ulu Öndər onun qorunması və inkişaf etdirilməsinə çox böyük həssaslıqla yanaşırdı.

Hələ Sovetlər Birliyi zamanında havasının təmizliyi, saflığı və müalicəvi əhəmiyyətə malik olması bu cənnət guşəsini kurort şəhəri kimi də məşhur etmişdi. Nəinki ölkəmizdə, hətta ölkəmizin hüdudlarından kənarda da Şuşa səfalı təbiəti və istirahət məkanları ilə məşhur idi. Şuşa dağlarının ecazkar mənzərəsi, Turşsu yaylaraqları, İsa bulağı, əfsanəvi igidlər oylağı Cıdır düzü yerli və xarici turistlərin üz tutduğu əsas turistik məkanlar sırasında idi. Dünyada ən uzun mineral su kəmərinin – Narzan tipli Şırlan turşsuyunun otuz iki kilometrlik məsafədən birbaşa şəhərə çəkilməsi isə Şuşanın kurort şöhrətini daha da artırmışdı.

Şuşa şəhəri tarixən nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri kimi zəngin inkişaf yolu keçmiş və xalqımız üçün milli-mənəvi dəyərlər baxımından önəmli yerə malik olmuşdur. Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarolunmaz incilərindən biridir. Bu ərazilərdə qədim insanların 200-250 min il bundan əvvəl yaşamağa başlamaları elmi əsaslarla sübuta yetirilmişdir.

Dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən, mühüm strateji coğrafi mövqeyə malik cənnət məkanı Şuşa tarixən həm də hərbi-siyasi əhəmiyyət kəsb edən alınmaz, basılmaz qala olmuşdur. Təsadüfi deyil ki, Ağa Məhəmməd şah Qacarın 33 gün mühasirədə saxlasa da ala bilmədiyi məşhur qala idi Şuşa.

Şuşa Qarabağ xanlığının qurucusu, ilk xanı, sərkərdə Pənahəli xan tərəfindən 1752-ci ildə müdafiə məqsədilə düşmən əlinin çatmayacağı dağ başında böyük qala divarları əhatəsində – istehkam məqsədli tikilən qala-şəhər olmuşdur. Buna görə də şəhər “Şuşa qalası” kimi də tanınır. İlk əvvəllər şəhər xanın şərəfinə “Pənahabad” adlandırılsa da, sonralar öz tarixi “Şuşa” adını yenidən qaytarır. Belə ki, eramızın II əsrində yaşamış qədim Roma tarixçisi Gaius Cornelius Tacitus *(Tasit)* Qafqaz ərazisində dondar türk tayfasına məxsus “Sosu” *(latın dilində “ş” səsi yoxdur)* şəhərinin olması barədə məlumat verir. Xalq əfsanəsinə görə isə sonralar bu yerlərin havasının büllur kimi saf və şəfalı olduğuna görə şəhəri şüşə, yəni “Şuşa” adlandırırlar.

Şuşa Azərbaycanın paytaxt şəhərlərindən biri kimi 1758-1823-cü illərdə Qarabağ xanlığının mərkəzi olmuşdur. 1921-ci ildə isə Azərbaycanda Sovet hakimiyyəti zamanında Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılan zaman Şuşa vilayətin mərkəzi statusunu alır. Lakin bu status uzun sürmür. Belə ki, 1923-cü ildə vilayətin mərkəzi bir zamanlar xanın istrahət yeri, atlarının saxlanc yeri kimi istifadə olunmuş Xankəndi olur. Bunun isə başlıca səbəbi Şuşa əhalisinin azərbaycanlılardan ibarət olması idi ki, bu da məkrli düşmənin gələcək planlarını alt-üst edirdi. Doğrudur, Şuşa rəsmi olaraq bütün Qarabağın mərkəzi olmaq statusunu itirdi, lakin bu, yalnız rəsmiyyətdə öz əksini tapdı. Belə ki, tarixin bütün dövrlərində insanların ürəyində məhz Şuşa Qarabağın mərkəzi kimi qəbul olunmuşdur. Əbəs deyil ki, 44

günlük Vətən müharibəsi zamanı Qarabağ separatçılarının lideri, quldurbaşı – Arayik Harutunyanın bir zamanlar divanxana olmuş, sonralar rus əsgərlərinin ibadət etməsi bəhanəsi ilə Rus Pravoslav Kilsəsinə çevrilmiş, daha sonralar isə gümbəzi saxtalaşdırılaraq qriqorianlaşdırılmış Qazançı kilsəsinin arxa divarlarının kölgəsində, yaxınlaşmaqda olan Azərbaycan əsgərinin ayaq səslərinin qorxusundan gizlənərək, səksəkə içində dünya ermənilərinə yalvardığı bəyanatda: “Şuşaya nəzarət etmək, Qarabağa nəzarət etmək deməkdir”, – deməsi heç də təsadüfi səslənən fikirlər deyildi. Bu, onu bir daha sübut edir ki, hətta düşmən belə bu reallıqla barışır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan Şuşa, yetirdiyi böyük şəxsiyyətləri ilə də ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır. Məşhur rus şairi Sergey Yeseninin də dediyi kimi: “Əgər oxumursansa, deməli, şuşalı deyilsən”. Azərbaycan ifaçılıq sənətində, musuqi tarixində xüsusi rolu olan bir çox bəstəkarlar, xanəndələr məhz bu müqəddəs məkanda doğulub boya-başa çatmışlar. Bəli, Şuşa Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Bülbülün, Qurban Pirimovun, Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Niyazinin və digər böyük musiqi dühalarının ana vətəni olmuşdur. Şuşanı “Zaqafqaziyanın konservatoriyası”, hətta “Şərqin konservatoriyası” da adlandırırlar. Bu isə bu əziz və müqəddəs məkanın – Azərbaycanın musiqi beşiyi olmasının sübutudur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli, 3096 nömrəli Sərəncamı ilə Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilmişdir.

Sərəncama əsasən, bu il bir sıra önəmli mədəni və dövlət əhəmiyyətli tədbirlərin, xüsusilə Şuşanın 270 illiyinin böyük qürur və sevinc hissləri ilə dövlət səviyyəsində, təmtəraqlı şəkildə qeyd olunması nəzərdə tutulmuşdur.

Həm Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi, həm də 2022-ci ilin "Şuşa İli" elan edilməsi ilə bağlı imzalanmış Sərəncamlar gələcək uğurlara hesablanmış böyük məqsədləri və amalları özündə ehtiva edən müdrik qərarlardır. İmzalanmış bu Sərəncamlar Şuşanın əvvəlki statusunu və şöhrətini bərpa etməklə yanaşı, onun tarixi və əzəli Azərbaycan torpağı olduğunu, xalqımızın bu ərazilərdə çoxəsrlik mədəniyyətə sahib olduğunu, milli-mədəni və tarixi irsimizin dərin köklərə əsaslandığını bütün dünyaya nümayiş etdirmiş olacaqdır.

Beləliklə, azad Şuşanın bərpa-quruculuq və inkişafı fonunda qürurla deyə bilərik ki, vaxtilə düşmən tapdağı altında inildəyən müqəddəs vətən torpaqlarının, o cümlədən mədəniyyətimizin incisi, qədim, tarixi şəhərimiz olan Şuşanın dağıdılmış və xarabalığa döndərilmiş mənzərəsi üzərində dolaşan Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün və digər böyük mədəniyyət xadimlərimizin narahat ruhları bu gün azad, firəvan və günügündən çiçəklənən, müasirləşən Şuşanı gördükcə sevinir və rahatlıq tapırlar. Şuşa sanki günəş kimi yenidən doğulur, yenidən yaranır.

**Gözün aydın – Şuşa!**
**Gözün aydın – Vətən!**
**Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

*"Azərbaycan" qəzeti, 24 fevral 2022-ci il, № 42 (8921)*
*"Elm və həyat" elmi-populyar jurnalı, 2022, № 1 (475)*

## UĞUR SALNAMƏSİNİN NÖVBƏTİ REAL TƏNTƏNƏSİ – FƏRRUX ZƏFƏRİ

BMT Təhlükəsizlik Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların otuz ilə yaxın müddət ərzində yerinə yetirə bilmədikləri və ya etmək istəmədikləri qərarların icrasını Azərbaycan ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qısa müddət ərzində gerçəkləşdirməyə müvəffəq oldu. Azərbaycan ordusu bu uzun illər ərzində davam edən xalqımızın vətən həsrətinə son qoyaraq ədaləti bərpa etdi, 44 günlük kiçik dövrə böyük və tarixi Qələbəni sığdırmağı bacardı. Müzəffər Azərbaycan ordusunun gücü qarşısında aciz duruma düşən düşmən layiq olduğu cavabı alaraq, kapitulyasiya aktına imza atmağa məcbur edildi. Tarixi torpaqlarımız işğaldan azad edilərək, ərazi bütövlüyümüz təmin olundu. Qalib ordumuz əcdadlarımızdan bizə miras qalan şanlı, üçrəngli Azərbaycan bayrağını azad vətən torpaqlarında dalğalandırdı.

Qələbəmizin başlıca uğur simvolları, sirri isə Prezident, Ali Baş Komandan İlham Əliyevin iqtisadi, siyasi və hərbi sahədə həyata keçirdiyi müdrik siyasət, yaxın və uzaq dövrü əhatə edən düzgün strateji xətt, eyni zamanda milli birlik, dövlət-xalq həmrəyliyi və ordumuzun ruh yüksəkliyi oldu.

Qələbədən il yarım müddət keçməsinə rəğmən, təəssüflər olsun ki, Erməni tərəfi hələ də qeyri konstruktiv mövqe sərgiləyərək, regionda uzunmüddətli, qalıcı sülhün və sabitliyin bərqərar olmasına süni maneələr yaradır. Münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tamamilə dayandırılması haqqında 10 noyabr 2020-ci il tarixdə imzalanmış üçtərəfli Bəyanatın, regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 11 yanvar 2021-ci il tarixli üçtərəfli Bəyanatın, həmçinin tərəflər arasında münasi-

bətlərin normallaşdırılması, etimad mühitinin formalaşdırılması, habelə regionda qonşuluq münasibətlərinin bərqərar olunması haqqında 26 noyabr 2021-ci il tarixli üçtərəfli Bəyanatın tələblərini yerinə yetirməkdən yayınır. Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü təhdid edəcək təhlükəli bəyanatlar verərək, revanşist mövqedən çıxış edir. Halbuki bölgədə sülh və sabitliyin təmin olunması üçün ilk növbədə imzalanmış üçtərəfli Bəyanatların bütün müddəalarının qeyd-şərtsiz icra olunması olduqca zəruridir.

Təəssüflər olsun ki, biz hələ də atılması zəruri olan addımların əksini müşahidə etməkdəyik. Belə ki, Rusiya Sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında olan ərazilərdən ordumuzun mövqeləri mütəmadi olaraq regiondan hələ də çıxarılmamış qanunsuz erməni silahlı birləşmələri tərəfindən atəşə tutulur. Bu isə Azərbaycan tərəfinə tam hüquqi əsas verir ki, öz suverenliyi və təhlükəsizliyi naminə imzalanmış məlum üçtərəfli Bəyanatların tələblərinə uyğun şəkildə davranaraq, bir zamanlar dünya birliyinin işğal faktlarına susqun və etinasız yanaşmasına qarşılıq sərgilədiyi ədalətli mövqeyi, revanşist qüvvələrə qarşı da tətbiq etsin və bölgədə erməni faşizminin yenidən canlanmasını önləsin.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibədə vurğuladığı kimi: ***“Erməni faşizmi məhv edilib. Onu məhv edən Azərbaycan xalqı olmuşdur. Bu gün Ermənistanda bəzi revanşist qüvvələr baş qaldıranda bilməlidirlər ki, onların başı lazım olarsa, istənilən zaman əziləcəkdir. Biz imkan verə bilmərik ki, erməni faşizmi yenə baş qaldırsın. Biz imkan verə bilmərik, Ermənistan yenə də öz ordusunu o vəziyyətə gətirib çatdırsın ki, bizə hansısa bir təhdid olsun. Biz əgər mümkün olan təhdidi təsbit etsək, dərhal onu məhv***

***edəcəyik. Bunu hər kəs bilməlidir - həm Ermənistan, həm də onun havadarları. Çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir."***

Bu gün hələ də erməni tərəfi anlamaqda çətinlik çəkir ki, revanşist meyillərlə yaşamaq erməni toplumunu, ümumilikdə isə Ermənistanı məhvə sürükləyir. Halbuki ölkənin inkişafı və xalqın rifahı yalnız qonşu ölkələrə qarşı saxta ərazi iddialarından əl çəkmək, ölkələrin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi beynəlxalq səviyyədə qəbul edilmiş hüquqi prinsiplərə hörmətlə yanaşmaqla mümkündür. Yalnız bu yolla regionda sülh və əmin-amanlıq şəraiti yarana bilər ki, bu da ilk növbədə hazırda ağır iqtisadi tənəzzül dövrünü yaşayan, öz təcəvüzkarlığı səbəbindən bütün regional və beynəlxalq əhəmiyyətli layihələrdən təcrid olunan Ermənistan üçün faydalıdır. Əks təqdirdə uduzan tərəf yenə də Ermənistan və onun uğursuz rəhbərliyinin yarıtmaz fəaliyyəti nəticəsində ağır həyat tərzi yaşayan erməni xalqı olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibədə vurğuladığı kimi: ***"Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək. .... Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcək. Bizim yumruğumuz yerindədir".***

Son zamanlar Qarabağ iqtisadi zonasına aid Xocalı rayonu ərazisində baş vermiş hadisələr fonunda revanşist qüvvələrin yenidən fəallaşdığının və onlara havadarlıq edənlərin ikili, riyakar münasibətinin şahidi oluruq.

Ölkəmiz öz suveren hüquqlarından istifadə edərək beynəlxalq səviyyədə tanınmış əraziləri daxilində məntəqələrdə mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi prosesini həyata keçirmişdir. Bu tədbirlər mövsümi xarakterli dəyişiklikləri nəzərə alaraq və mövcud reallıqlara əsaslanaraq, əlverişsiz mövqelərin daha münasib və əlverişli mövqelərlə əvəzlənməsi zərurətindən irəli gəlir.

Lakin erməni tərəfi hər zaman olduğu kimi, öz çirkin ənənəsinə sadiq qalaraq, mövcud vəziyyəti süni şəkildə şişirtməklə gərgin vəziyyət yaratmaq, ictimaiyyəti çaşdırmaq və yanlış istiqamətə yönəltmək məqsədi ilə martın 26-sı səhər saatlarında dumanlı hava və məhdudgörmə şəraitindən yararlanaraq, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstərdi. Lakin Azərbaycan ordusunun ayıq-sayıqlığı və həyata keçirdiyi qabaqlayıcı tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri xeyli itki verərək geri çəkilməyə məcbur edildi.

Ölkəmizi, onun beynəlxalq müsbət imicini ləkələmək məqsədilə səsləndirilən bütün yalan və məsuliyyətsiz bəyanatlara rəğmən Azərbaycan tərəfi hər zaman 2020-ci il 10 noyabr tarixdə imzalanmış üçtərəfli Bəyanata sadiqliyini nümayiş etdirmiş, onun heç bir müddəasını pozmamışdır. Lakin ölkəmizdən fərqli olaraq erməni tərəfi məlum bəyanatın 4-cü bəndinə uyğun olaraq, Ermənistan ordusunun qalıqlarının, qeyri-qanuni erməni silahlı dəstələrinin tərksilah edilməklə, Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış suveren ərazilərindən tam və qeyd-şərtsiz çıxarılması tələbini bu günədək hələ də icra etməmişdir. Bu baxımdan bəyanatın müddəalarını kobud surətdə pozan tərəf Azərbaycan deyil, məhz Ermənistandır.

Yaddaş üçün qeyd edək ki, 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli Bəyanatın 4-cü bəndində deyi-

lir: “Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir”. Lakin əfsuslar olsun ki, bu bəndin tələbləri hələ də yerinə yetirilməmiş şəkildə kağız üzərində qalmaqdadır.

Bütün bunlara rəğmən qanunsuz erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxarılması ləngidilərsə, ölkəmiz gələcəkdə bu səbəbdən yarana biləcək hər hansısa təxribatlara beynəlxalq hüququn tələb etdiyi normalar çərçivəsində əməli tədbirlər görmək hüququnu özündə saxlayır. Əlbəttdə ki, Azərbaycanın səbri tükənməz deyildir və kimlərsə onu sınamağa cəhd göstərməyə çalışmamalıdır. Bu məsələ ölkəmizin suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyi baxımından olduqca önəmlidir.

Bu gün dünya birliyi tərəfindən Ukraynada separatizmlə mübarizə, ərazi bütövlüyünün təmin edilməsi kimi fundamental dövlətçilik dəyərləri ilə bağlı sərgilənən aydın və prinsipial mövqe nədənsə, Azərbaycana münasibətdə etinasız, hətta ədalətsiz mövqe ilə əvəzlənir. Məkan fərqli, səbəb, nəticə və reallıq bənzər olsa da, münasibət eynilik təşkil etmir. Bu ayrıseçici yanaşmaları biz hələ Birinci və İkinci Qarabağ müharibələri dövrlərində də yaşamışdıq. Hətta Azərbaycanın haqq savaşı – İkinci Qarabağ, Vətən müharibəsi zamanı Qərb mətbuatı tərəfindən ordumuzun işğalçılara qarşı tətbiq etdiyi “Bayraktar TB2” Taktik PUA Sistemlərinin “Qatil Bayraktar” kimi adlandırıldığı halda, Rusiya-Ukrayna müharibəsində bunun əksini – “Xilaskar Bayraktar” kimi təqdim olunduğunun şahidi olduq. Görünən odur ki, dünyada təəssüf ki, hələ də ikili yanaşmalar hökm sürür, hələ də ölkəmizin güclənməsini istəməyən, inkişafına qısqanclıqla yanaşan, onun ərazi bütövlüyünü, suverenliyini qəbul edə bilməyən İslamofob, Azərbaycanofob, Türkofob kimi məkrli qüvvələr vardır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə vurğuladığı kimi: ***"Halbuki bu, gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük, Rusiya-Ukrayna müharibəsində görürük. Vaxtilə biz torpaqlarımızı işğaldan azad edəndə və məşhur "Bayraktar" dronlardan istifadə edəndə xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. İndi isə Rusiya-Ukrayna müharibəsində bunu mələk adlandırırlar. Fərq budur, ikili standartlar budur, bizə qarşı ədalətsizlik budur. Bu, reallıqdır. Biz isə öz gücümüzlə yeni reallıq yaratmışıq və yaradırıq".***

Onu da qeyd etmək lazımdır ki, üçtərəfli Bəyanatın 7-ci bəndinin icrası da ləngiməkdədir. Belə ki, Bəyanatın 7-ci bəndində deyilir: "Daxili məcburi köçkünlər və qaçqınlar Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır". Lakin Bəyanatın bu bəndinin də birtərəfli qaydada həyata keçirildiyinin şahidi oluruq. Belə ki, erməni tərəfindən fərqli olaraq, Xankəndindən, Xocalıdan və digər şəhər və kəndlərimizdən didərgin düşən məcburi köçkünlərimiz hələ də öz doğma yurd-yuvalarına həsrət qalmaqdadır.

Bütün bu çatışmazlıqlar və həlli vacib məqamlara qarşı etinasız yanaşmalar fonunda Rusiya Müdafiə Nazirliyinin ittiham xarakterli son bəyanatları ölkəmiz tərəfindən haqlı olaraq acı təəssüf hissi ilə qarşılanır. Bu məqsədlə Azərbaycan tərəfi həm Müdafiə Nazirliyi, həm də Xarici İşlər Nazirliyi səviyyəsində öz haqlı mövqeyini ortaya qoyaraq, üçtərəfli Bəyanatın tələblərinə uyğun şəkildə davranılmanın zəruriliyini, götürülmüş öhdəliklərə mütləq şəkildə əməl olunmasını, həmçinin ölkəmizin ayrılmaz tərkib hissəsi olan və hazırda müvəqqəti yerləşdirilmiş Rusiya Sülhmə-

ramlılarının məsuliyyət zonasında olan Azərbaycan ərazi vahidlərinin adlarının düzgün şəkildə qeyd edilməməsini, bu cür yanlış yanaşmanın Azərbaycan Respublikasının beynəlxalq birlik, o cümlədən Rusiya Federasiyası tərəfindən tanınmış və qəbul edilmiş ərazi bütövlüyünə qarşı hörmətsizlik kimi qəbul edildiyini qarşı tərəfin diqqətinə çatdırmışdır.

Həmiçinin erməni silahlı qüvələrinin qalıqlarının ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını təmin etməyi, Azərbaycan silahlı qüvvələrinin ölkəmizin suveren əraziləri daxilində hərəkətini təhrif edilmiş formada qələmə verməməyi tələb etmişdir.

Yalan və ictimaiyyəti çaşdıran Ermənistan tərəfinin və Rusiya Müdafiə Nazirliyinin bu kimi təxribatçı bəyanatlarına qarşılıq, Azərbaycan Xarici İşlər Nazirliyi, Azərbaycan Müdafiə Nazirliyi səviyyələrində həqiqətə, qanuni əsaslara söykənən bəyanatları, dolğun və tutarlı cavabları olduqca düzgün və haqlı yanaşma, müdrik davranış kimi qəbul edilməlidir.

2021-ci il aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində vurğuladığı kimi: ***"Rusiya sülhməramlı qüvvələri Azərbaycanın razılığı ilə bizim torpağımıza – Qarabağa, Xankəndinə və ətraf yerlərə gətiriliblər. Biz hesab edirdik ki, bu yeni əməkdaşlıq formatı bizim əlaqələrimizi möhkəmləndirəcək. Əslində, möhkəmləndirməlidir. ...Strateji tərəfdaşlar arasında münasibətlər səmimi olmalıdır. Azərbaycan bütün strateji tərəfdaşlarla həmişə səmimi olub, həmişə öz sözünün üstündə durmuşdur, öz sözünü yerinə yetirmişdir. Üçtərəfli Bəyanat da Azərbaycan tərəfindən tam icra edilib".***

Həmçinin 2021-ci ilin oktyabrın 11-də Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplan-

tının rəsmi açılış hissəsinə sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışında vurğuladığı kimi: ***"Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir".***

Onu da qeyd etmək lazımdır ki, bu cür yanaşma, eyni zamanda Azərbaycanla Rusiya arasında cari ilin 22 fevralında imzalanmış Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin müddəaları ilə də ziddiyyət təşkil edir.

Belə ki, 2022-ci il 22 fevral tarixində iki ölkə prezidentləri tərəfindən imzalanmış Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin birinci bəndində qeyd olunur: "Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar".

Xüsusilə onu da nəzərə alaq ki, hələ Bəyannamənin imzalandığı gün, yəni fevralın 22-də Moskvada Rusiya Federasiyasının Prezidenti, cənab Vladimir Putinlə birgə mətbuat konfransında çıxış edən Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev bu bəndi xüsusi vurğulayaraq demişdir: ***"Bəyannamənin birinci bəndində deyilir ki, tərəflər öz münasibətlərini müstəqilliyə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq əsasında quracaqlar. Bu bənd bizim münasibətlərimizin***

***xarakterinə, ona dəlalət edir ki, bu münasibətlər zamanın sınağından çıxıb və artıq dediyim kimi, dostluq hisslərinə, qarşılıqlı maraqlara və gələcəyə yönəlməyə əsaslanır. Ona görə ki, bu sənəd təkcə çoxillik birgə işə yekun vurmaqla kifayətlənməyib, həm də gələcək üçün böyük perspektivlər açır. Biz qarşılıqlı siyasi fəaliyyəti artıracaq, əvvəl olduğu kimi, yenə bir-birimizi beynəlxalq qurumlarda dəstəkləyəcək, qarşılıqlı ticarətin həcmini artıracaq və gündəlikdəki bütün məsələləri həll edəcəyik."***

Bundan əlavə, bəyannamənin 18-ci bəndinə əsasən, "Rusiya Federasiyası və Azərbaycan Respublikası beynəlxalq terrorçuluq, ekstremizm və separatçılıq təhdidlərinə qarşı mübarizədə və onların neytrallaşdırılmasında səylərini birləşdirirlər". Lakin çox təəssüflər olsun ki, bu sahədə də əməli tədbirlərin şahidi olmuruq. Terrorçubaşı Arayik Harutunyan və onun başçılıq etdiyi quldur dəstəsi Sülhməramlıların kölgəsi altında öz çirkin əməllərini törətməkdə davam edirlər.

Bütün bunları nəzərə alaraq, əminliklə vurğulaya bilərik ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin məlum açıqlamaları ikitərəfli əlaqələrin mahiyyətinə xələl gətirmək və kölgə salmaqla yanaşı, eyni zamanda Rusiya Federasiyasının Prezidenti, Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab Vladimir Putin tərəfindən atılmış imzaya da hörmətsizlikdir.

Tarixə nəzər saldıqda görərik ki, strateji əhəmiyyətinə görə seçilən Xocalı rayonu ərazisindəki Fərrux kəndi və eyniadlı dağ, hələ keçən əsrin əvvəllərində 1918-1920-ci illərdə müstəqilliyini yenicə əldə etmiş gənc Azərbaycan Xalq Cümhuriyyəti ordusunun Qarabağın erməni-daşnak birləşmələrindən azad olunması üçün apardığı ümumi hərbi əməliyyatlar siyahısına da daxil edilmişdi. Bəlkə də tarixi zərurətdən idi ki, həmin dövr də məhz indiki kimi soyuq mart

ayının sonlarına təsadüf etmişdi. Belə ki, 1920-ci ilin martın 26-da Ağdama gəlmiş Milli Ordumuzun general-mayoru Həbib bəy Səlimov Əsgəran yolunun kəşfiyyatını apararaq həmin istiqamətdəki yüksəkliklərin, o cümlədən Fərrux dağının düşməndən azad edilməsi üçün əməliyyat planı hazırlamışdı.

Tarixi mənbələrdə bu haqda belə yazılır: "Bu məntəqə *(Əsgəran)* hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edirdi. Onun nəzarətə alınması Qarabağda hərbi təşəbbüsün əldə saxlanması üçün başlıca amil idi. Buna görə də 1920-ci il martın 21-də, Novruz bayramı gecəsi erməni-daşnak qüvvələri Qarabağın bir sıra məntəqələri ilə bərabər, Əsgərandakı Cümhuriyyət ordusu postlarının da üzərinə hücuma keçmiş və bu postlarda dayanan azsaylı qüvvələri qətl etmişdi. Bununla da Əsgəran keçidi bağlanmış, Xankəndidə və Şuşada yerləşən hərbi qarnizon çətin vəziyyətə düşmüşdü. Qarabağın Azərbaycandan qoparılmasına yol verməmək, bölgədəki erməni-daşnak silahlı qüvvələrinə güclü zərbə endirmək üçün ilk növbədə, Əsgəran keçidini açmaq lazım idi. Ona görə də Qarabağ əməliyyatına rəhbərlik etmək üçün 1920-ci il martın 26-da Ağdama gəlmiş general-mayor Həbib bəy Səlimov əvvəlcə Əsgəran yolunun kəşfiyyatını apardı. Erməni qüvvələrinin müqavimətini qırmaq üçün general-mayor Həbib bəy Səlimov hərbi nazirdən Ağdama bir zirehli avtomobil göndərilməsini xahiş etdi. Müəyyən hazırlıq işləri görüldükdən sonra martın 29-da Azərbaycan qoşun hissələrinin Əsgəran üzərinə ilk hücumu başlandı. Döyüşdə 5-ci Bakı piyada alayının bölmələri, Parlament mühafizə dəstəsi və partizan dəstələri iştirak edirdilər. Süvari qüvvələrə isə 1-ci Azərbaycan süvari alayının bölmələri cəlb olunmuşdu. Döyüşün gedişində Pirlər kəndi, Daşbaşı yüksəkliyi, Fərrux kəndi azad edildi və qüvvələr Xanabad kəndinə xeyli yaxınlaşdılar. Döyüş planına əsa-

sən, qüvvələr bu mövqelərdə dayanıb möhkəmlənməli olduqları halda, daha irəliyə getməyə can atırdılar...”.

Növbəti uğurlu hərbi əməliyyatlar nəticəsində Əsgəran və Xocalı azad olunsa da, çox təəssüflər olsun ki, Bolşevik Rusiyasının ölkəmizi işğal etməsi nəticəsində, Milli Ordumuzun Xankəndini də azad etmək planları yarımçıq qaldı və Sovet dövründə Əsgəranla yanaşı, ətraf yüksəkliklər, o cümlədən Fərrux kəndi və eyniadlı dağ, həmçinin Daşbaşı yüksəkliyi də ermənilərin nəzarətinə keçdi...

Müstəqilliyini ikinci dəfə əldə etmiş ölkəmiz Birinci Qarabağ müharibəsi zamanı da bu ərazilərdə qızğın döyüşlərə məruz qaldı.

Rusiyanın Xankəndindəki 366-cı alayının dəstəyi ilə separatçı erməni hərbi birləşmələri Fərrux kəndində və eyni adlı dağda yerləşən mövqelərindən Ağdam rayonunun kəndlərini müxtəlif atıcı silahlarla daim atəş altında saxlayırdılar.

Həmin kəndin azad edilməsi uğrunda ilk uğurlu əməliyyat isə 1992-ci ilin yanvarında əfsanəvi alay komandiri, şəhid Milli Qəhrəman, polkovnik Şirin Mirzəyev tərəfindən təşkil olunmuşdu. Milli Qəhraman ərazinin strateji əhəmiyyətini yüksək qiymətləndirərək, deyərdi: “Fərrux dağında kim otursa, Ağdama da o, nəzarət edəcək”.

Lakin çox təəssüflər olsun ki, həmin dövrdə ölkədə tuğyan edən özbaşınalıq və hərcmərclik mühiti, döyüş zonalarında başıpozuqluq, nizamsızlıq halları ümumən uğursuz hərbi əməliyyatlara rəvac verdi ki, bu da nəticə etibarilə digər ərazilərimiz kimi Fərrux kəndi və yüksəkliyinin də işğalına səbəb oldu.

Bu baxımdan mühüm hərbi strateji mövqeyə malik Fərrux dağı, Daşbaşı yüksəkliyinin işğalçılardan azad olunması ölkəmizin Uğur Salnaməsinin növbəti real təntənəsidir.

Coğrafi cəhətdən dəniz səviyyəsindən 3 200 metr yüksəklikdə yerləşən Fərrux dağı Ağdam rayonu ilə keçmiş Əsgərən rayonu istiqamətində *(Xankəndi istiqamətində)* yerləşən silsilə yüksəkliklərdən ibarətdir. Bu dağ silsilələri Ballı Qayaya, oradan isə Vəngə qədər uzanır. Xaçınçayın yatağı da *(Xaçınçay su anbarı)* bu dağın ətəyi ilə axır.

Bu mənada Əsgərandan 16 km, Xankəndidən isə 32 km aralıda yerləşən Fərrux dağı yüksəklikləri, Daşbaşı zirvəsi ordumuza Ağdərə-Xankəndi yoluna, həmçinin Xocalı-Xankəndi yoluna, bütövlükdə isə Əsgəran, Xanabad və Xocalı ərazisinə tam nəzarəti həyata keçirməyə böyük imkanlar yaradır. Öz yerləşdiyi ərazidən əlavə geniş ərazilərə də vizual müşahidəetmə üstünlüyü tanıyır. Bu baxımdan Daşbaşı yüksəkliyindəki mövqelər böyük hərbi-strateji əməliyyat taktiki əhəmiyyət kəsb edir. Bu isə ərazilərdən hələ də çıxarılmamış erməni silahlı birləşmələrinin tör-töküntülərinin fəaliyyətinə tam nəzarəti təmin etməyə və gələcəkdə onların neytrallaşdırılması üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə yardımçı olur.

Eyni zamanda, Fərrux dağının azad olunması Bərdə, Tərtər, Ağdam rayonlarının, xüsusilə yaxın məsafədə yerləşən Ağdamın Cinli və bir neçə digər kəndinin təhlükəsizliyini təmin etmiş olur ki, bu da həmin ərazilərə qayıdacaq məcburi köçkünlərin tam təhlükəsiz yaşaması üçün olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə vurğuladığı kimi: ***"Bildirməliyəm ki, Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyüründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni, böyük bir təhlükə mənbəyi idi... Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə***

***ataş açılırdı... Fərrux dağını məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır. Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti var".***

Beləliklə, bir zamanlar ermənilərin Fərruxun alınmaz qala olduğu haqqında yaratdıqları mif qəhrəman Azərbaycan əsgərinin önündə sabun köpüyü kimi dağıldı. Xocalı qatili Zori Balayanın Qarabağın "qızıl açarı" adlandırdığı Fərrux kəndi bu gün Qalib Azərbaycan Ordusunun nəzarəti altındadır.

Bütöv bu dövrə – 102 illik mübarizə tariximizə nəzər salaraq, qürür və heyrətlə görürük ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin öndərliyi ilə Azərbaycan ordusu öz suveren ərazilərində zor tətbiq etmədən, itki vermədən, sadəcə, hərbi dislokasiya həyata keçirməklə Fərrux əməliyyatını uğurla icra etdi. Bu gün Fərrux kəndində və Daşbaşı zirvəsində ölkəmizin üçrəngli bayrağı qürurla dalğalanır.

İnanırıq ki, tezliklə Azərbaycan ordusu Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Zərgər Dəqiqliyi ilə işlənmiş uzaqgörən siyasəti sayəsində Fərrux kəndi və yüksəkliyi kimi, digər ərazilərimiz də qanunsuz erməni birləşmələrindən tam təmizlənəcək, həmin ərazilərdə ölkəmizin suveren hüquqları bərpa edilərək, üçrəngli şanlı bayrağımız dalğalanacaqdır.

Fərrux dağı, Daşbaşı zirvəsi kimi yüksək dağlıq və sərt iqlim şəraitində ayıq-sayıq döyüş növbətçiliyi aparan Azərbaycan əsgərinə eşq olsun!

**Fərrux – Azərbaycandır!**
**Qarabağ – Azərbaycandır!**

*"525-ci qəzet", 05 aprel 2022-ci il, № 57 (5863)*

# DAYANIQLI ENERJİ TƏMİNATI VƏ TƏHLÜKƏSİZLİYİ

## BÖYÜK QAYIDIŞIN YOLU: “QARABAĞ”DAN – QARABAĞA

### “QARABAĞ”A QAYITDIĞIMIZ KİMİ QARABAĞA DA QAYIDACAĞIQ!

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış neft strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu düzgün və uzaqgörən siyasətin nəticəsidir ki, bu gün ölkəmiz bütün sahələrdə olduğu kimi bu sahə üzrə də uğurla inkişaf edir, böyüyür və çiçəklənir. İstər regionda, istərsə də dünyada davamlı enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynayır.

Neft və təbii qaz kimi zəngin karbohidrogen ehtiyatlarına malik ölkəmiz, bu sahə üzrə beynəlxalq aləmdəki nüfuzunun artması, mövqeyinin daha da möhkəmləndirilməsi istiqamətində zəngin tarixi yol qət edərək, xeyli uğurlar əldə etmiş, ilklərə imza atmışdır.

Belə ki, dünyada ilk neft qazma quyusu məhz Bakıda 1844-cü ildə “Ağayi” və “Xəlafi” neft şirkətlərinə məxsus quyular olmuşdur. Müqayisə üçün qeyd edək ki, Amerika Birləşmiş Ştatlarının ən zəngin neft bölgəsi olan Pensilvaniyada ilk neft quyusu Bakıdan 15 il sonra – 1859-cu ildə qazılmışdır.

1949-cu ildə isə açıq dənizdə – Bakı şəhərindən 100 kilometr məsafədə yerləşən və o zaman üçün dünyada nadir yataq sayılan “Neft daşları”nda qazılmış neft quyusu, dənizdə ilk neft hasilatının yeni mərhələsinin əsasını qoydu. Beləliklə, Azərbaycan neft sənayesi üzrə inqilabi proseslərə rəhbərlik edən lider ölkə olaraq, dünyada ilk dəfə olaraq quruda neft hasilatı ilə yanaşı, açıq dənizdə də neft hasil edən ölkə statusunu əldə etdi.

Aparılmış uzun müddətli geoloji tədqiqatlara əsasən, ölkəmizdə neft və qaz ehtiyatları təkcə Xəzər dənizi və Ab-

şeron yarımadası ilə bitmir. Respublikamızın müxtəlif ərazilərində neft yataqları və neft ehtiyatları mövcuddur *(Şirvan, Qobustan, Siyəzən rayonu və s.)*. Lakin əsas neft və qaz ehtiyatları Xəzər dənizi şelfi ilə bağlıdır ki, hazırda nüfuzlu, beynəlxalq investor şirkətlərinin də qatıldığı iri neft-qaz layihələri məhz burada həyata keçirilir. Bu yataqlardan biri də doğma Qarabağımızın adını daşıyan "Qarabağ" yatağıdır.

Beləliklə, 2020-ci il avqust ayının 10-da daha bir önəmli tədbirin açılış mərasiminin şahidi olduq. Belə ki, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda Azərbaycan Dövlət Neft Şirkətinin *(SOCAR)* BOS Şelf şirkəti tərəfindən "Qarabağ" yatağında neft-qaz kəşfiyyatı və hasilatı üçün hazırlanmış "Qarabağ" dayaq blokunun dənizə yola salınma mərasimi keçirilmişdir. Bu tədbir neft sənayemizin zəngin tarixində əlamətdar bir hadisə idi. Açılış mərasimində Prezident İlham Əliyevin iştirakı isə tədbirin nə qədər önəmli və yüksək əhəmiyyətə malik olduğunun göstəricisidir.

Məlumat üçün qeyd edək ki, "Qarabağ" yatağı Azərbaycanın ən zəngin karbohidrogen yataqlarından biridir. Yataq Xəzər dənizinin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir. Yataqda hələ 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən kəşfiyyat-qazma işləri aparılmışdır. Bu məqsədlə ərazidə 3 kəşfiyyat quyusu qazılmışdır. Lakin xarici tərəfdaşlar yatağın səmərəliliyinə şübhə ilə yanaşaraq, kəşfiyyat-qazma prosesini dayandırmış və müqaviləyə xitam verərək "Qarabağ" yatağını birdəfəlik tərk etmişlər. Lakin bu sahə üzrə böyük praktiki təcrübəyə və elmi-nəzəri biliklərə malik Azərbaycanın ixtisaslı mütəxəssisləri yatağın böyük potensiala malik olduğunu, kəşfiyyat-qazma prosesinin bir qədər də davam etdirilməsinin zəruriliyini qətiyyətli şəkildə

bildirmişlər. Nəhayət zaman da onların haqlı olduqlarını, mülahizələrində yanılmadıqlarını sübuta yetirdi.

Belə ki, Azərbaycan Dövlət Neft Şirkəti *(SOCAR)* tərəfindən ən son texnologiyalar əsasında aparılmış tədqiqatlara əsasən, Azərbaycanın zəngin karbohidrogen yataqlarından olan "Azəri", "Çıraq" və "Günəşli" *(yaxud "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku)* kimi neft-qaz yataqlarından sonra "Qarabağ" yatağı 60 milyon ton həcmində ən böyük neft potensialına malik yataqlarımızdan biridir. Təsdiq olunmuş layihəyə əsasən, yataqda 6 neft, 3 qaz və 3 suvurucu quyunun qazılması nəzərdə tutulur. Hasilata gəldikdə isə bu yataqdan ildə ən azı 1,5 milyon ton neft və 1,5-1,8 milyard kubmetr qaz hasil edilməsi nəzərdə tutulur. İlk neft və qaz hasilatı isə 2022-ci ilin sonuna proqnozlaşdırılır.

Onu da qeyd edək ki, "Qarabağ" yatağı digər yataqlardan fərqli olaraq müstəqillik tariximizdə kəşf edilmiş birinci neft yatağı kimi də xüsusi tarixi önəm daşıyır.

"Qarabağ" yatağının istismar layihəsi üzrə hazırlanan dayaq bloku ölkəmizin neft-qaz sənayesi tarixində həm ölçülərinə, həm də çəkisinə görə *(ümumi çəkisi 16 min ton)* Xəzər dənizində inşa edilən ən böyük sualtı konstruksiya hesab edilir.

Dayaq bloku "Qarabağ" yatağında quraşdırılacaq stasionar dəniz özülünün üst hissəsini və göyərtə meydançasını saxlamaq məqsədilə şəbəkə tipli metal konstruksiya şəklində hazırlanmışdır. Ümumi hündürlüyü 190 metr olan dayaq bloku Xəzər dənizində suyun 182 metr dərinliyində qərar tutacaqdır.

Qurğunun çox mürəkkəb və nəhəng konstruksiyaya malik olduğunu və mühəndis-texnoloji xarakteristikalarının önəmini yüksək qiymətləndirən ölkə başçısı İlham Əliyev demişdir:

***“Nəzərə alsaq ki, “Qarabağ” yatağının yerləşdiyi ərazi Xəzər dənizində çox dərin hissəyə aiddir, əlbəttə ki, belə nəhəng qurğunun tikintisinə böyük tələbat var idi. Onu da bildirməliyəm ki, “Qarabağ” yatağında suyun dərinliyi 180 metrdir və hesab edirəm ki, məhz buna görə sovet vaxtında bu yataqdan neft-qaz çıxarılmamışdır. Çünki sovet dövründə bizim belə texnologiyalarımız olmamışdır, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərin hissəsi də toxunulmaz qalmışdır, müstəqillik dövrü üçün qalmışdır. Əks təqdirdə, quru yataqlarda olduğu kimi, dəniz yataqlarımız da tam boşaldılacaqdı və müstəqil Azərbaycanın inkişafı üçün enerji resursları qalmayacaqdı. Ona görə “Qarabağ” yatağının aşkarlanması və sonra yataqda işlərin görülməməsi əlbəttə ki, müstəqil Azərbaycan üçün böyük hədiyyə olmuşdur. Məhz bu gün aparılan siyasət nəticəsində biz bu işləri görə bilirik. Odur ki, bu, texnoloji baxımdan, mühəndislik baxımından çox nəhəng və çox mürəkkəb bir konstruksiyadır. Şadam ki, bunu Azərbaycan mütəxəssisləri inşa ediblər. Görülmüş işlərin mütləq əksəriyyəti Azərbaycan mütəxəssisləri, fəhlələri tərəfindən icra olunubdur”.***

Beləliklə, son elmi, texnoloji yeniliklərin tətbiqi əsasında hazırlanmış, beynəlxalq standartlara cavab verən dayaq blokunun quraşdırılması “Qarabağ” yatağının dərin qatlarında neft və qaz ehtiyatlarının səmərəli şəkildə istismarına böyük imkanlar yaradacaqdır.

Konstruksiyanın hazırlanması prosesində mühüm amillərdən biri də burada yerli mütəxəssislərin iştirak etməsidir. Belə ki, tikintisi iki il ərzində həyata keçirilən dayaq blokunda çalışanların 95%-ni məhz yerli mütəxəssislər təşkil etmişdir. Bu isə ölkəmizin neft-qaz sənayesi üzrə kifayət qədər yerli, təcrübəli, ixtisaslı mütəxəssislərə, eyni zamanda beynəlxalq standartlar səviyyəsində layihələri icra edə

biləcək imkanlara malik Azərbaycan şirkətlərinin mövcudluğunun göstəricisidir. Bu isə bizlər üçün dövlət və xalq olaraq qürurverici hal, böyük nailiyyətdir.

Dünyada hökm sürən pandemiya şəraitinin yaratmış olduğu mövcud ağır iqtisadi çətinliklərə, qlobal maliyyə böhranına rəğmən respublikamızda həyata keçirilən iri həcmli infrastruktur proqramlarının davamı olaraq bu layihənin icrası, bir daha ölkəmizin seçdiyi siyasi kursun, iqtisadi siyasətin doğru və düzgün istiqamətdə olduğunu göstərir.

Texnoloji baxımdan nəhəng və mürəkkəb konstruksiyaya malik bu cür qurğunun istifadəyə verilməsi, eyni zamanda ölkəmizin beynəlxalq müsbət imicinin formalaşması istiqamətində də atılmış önəmli addımdır. Belə ki, tarixi ənənələrə söykənən böyük təcrübə, münbit investisiya mühiti və ən başlıcası isə ali siyasi iradə xarici investorların ölkəmizə, onun neft-qaz sənayesinə güvənini, diqqət və marağını artırır. Bu isə ümumilikdə ölkə iqtisadiyyatının böyüməsi və inkişafına öz töhfəsini vermiş olur.

Əminik ki, "Qarabağ" yatağı da digər yataqlar kimi uğurlu və səmərəli şəkildə istismar edilərək, ölkəmizin davamlı inkişafına böyük fayda qatacaqdır.

Yatağın adının rəmzi məna olaraq hər bir azərbaycanlı üçün doğma və əziz olan Cənnət guşəsi – Qarabağın adını daşıması isə heç də təsadüfi deyildir. Belə ki, bu gün Azərbaycan vaxtilə – 1990-cı illərdə tərk edilmiş "Qarabağ" yatağına yenidən qayıtmış olur. Bu isə tezliklə ümidləri doğruldan "Qarabağ" yatağı kimi otuz ilə yaxındır düşmən tapdağında inildəyən vətən torpağına – doğma yurdumuz, Qarabağa da qayıdacağımıza böyük inam yaradır.

Prezident İlham Əliyevin açılış mərasimindəki tarixi çıxışında qətiyyətli və əmin şəkildə vurğuladığı kimi: ***"Əminəm ki, Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa edi-***

***ləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş "Qarabağ" yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq.***

***Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".***

*"525-ci qəzet", 14 avqust 2020-ci il, № 88 (5469)*

# “DOSTLUQ” YATAĞI – MEHRİBAN QONŞULUQ VƏ ƏMƏKDAŞLIĞIN NÜMUNƏSİ

Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında 21 yanvar 2021-ci il tarixdə Türkmənistanın paytaxtı Aşqabad şəhərində “Xəzər dənizindəki “Dostluq” yatağında karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında” imzalanmış Anlaşma Memorandumu hər iki ölkənin və xalqın həyatında iqtisadi və siyasi cəhətdən xüsusi əhəmiyyətə malik mühüm tarixi hadisədir.

Memorandum tarixi, etnik-dini ənənələrə, ortaq köklərə malik iki qardaş ölkə arasında Xəzər dənizində energetika və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığa dair birgə layihələrin təşkili baxımından yeni mərhələnin başlanğıcı olmaqla yanaşı, gələcək perspektivdə iki ölkə arasında iqtisadi, siyasi və mədəni əlaqələrin genişləndirilməsi və daha da inkişaf etdirilməsinə öz mühüm töhfəsini verəcəkdir.

Xəzər dənizinin Azərbaycan sektorunda ən iri neft yatağı olan “Azəri-Çıraq-Günəşli” *(AÇG)* yataqlar bloku və Türkmənistanın “Petronas 1” yataqlar bloku arasında yerləşən “Dostluq” yatağı Xəzər dənizinin cənub hissəsində hər iki ölkənin sərhəd suları arasında yerləşən ən iri neft-qaz yataqlarından biridir.

SSRİ dövründə bu yataq Azərbaycanla Türkmənistanın Xəzər dənizindəki sərhədlərinin tən ortasında yerləşdiyi üçün “Промежуточное”, yəni “Aralıq” adlandırılsa da, müstəqillik illərində Azərbaycanın “Kəpəz”, Türkmənistanın “Sərdar”, hazırda isə hər iki ölkənin birgə “Dostluq” adlandırdığı bu yataqda ilk kəşfiyyat-qazma işləri hələ ötən əsrin səksəninci illərində başlanılmışdı. Azərbaycanlı neft

mühəndisləri tərəfindən 1989-cu ildə kəşf edilən bu yataq, müstəqillik əldə edildikdən sonra iki ölkə arasında istismarla bağlı uzun illərə söykənən müzakirələr aparıldı və nəhayət, bu istiqamətdə mühüm tarixi əhəmiyyətə malik razılıq əldə olundu.

Anlaşma Memorandumu önəmli tarixi hadisə olmaqla yanaşı, iqtisadi cəhətdən də böyük əhəmiyyət kəsb edir. Belə ki, "Dostluq" yatağı kifayət qədər böyük enerji resurslarına malik yataqlardan sayılır. İlkin qiymətləndirmələrə görə, yataqda təqribən 60 milyon ton neft, 100 milyard kubmetr təbii qaz ehtiyatları mövcuddur. Geniş və əhatəli kəşfiyyat işlərindən sonra bu göstəricilərin bir qədər də artacağı ehtimal olunur. Bu isə hər iki ölkənin büdcə gəlirlərinin nəzərəçarpacaq dərəcədə yüksəlməsinə səbəb olacaqdır. Bu mənada "Dostluq" yatağının birgə istismarı ilə bağlı Anlaşma Memorandumunun imzalanması hər iki qardaş ölkənin xalqlarının gələcək rifahı üçün mühüm əhəmiyyət kəsb edir.

Yanvarın 21-də Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında keçirilən görüş zamanı çıxış edən dövlətimizin başçısı imzalanan memorandumu tarixi sənəd adlandıraraq, bununla iki ölkənin ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başladığını, "Dostluq" yatağındakı istehsal proseslərinin Azərbaycan və Türkmənistanı daha da yaxınlaşdıracağını, xalqlarımıza xeyir gətirəcəyini vurğulamışdır:

***"Bugünkü imzalama Xəzərin karbohidrogen resursla-rının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkə-lərimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq".***

Yatağın ikitərəfli əməkdaşlıq əsasında birgə istismarı ölkəmizin həm kommersiya, həm də texniki cəhətdən cəl-bediciliyini də artırmış olur. Belə ki, Xəzər dənizində möv-cud neft və qaz yataqlarının hasilatı və nəqli üçün yaradıl-mış müasir kommunikasiya xətləri, lazımi çoxfunksiyalı infrastruktur "Dostluq" yatağından hasil olunacaq enerji məhsullarının da Azərbaycan üzərindən tranzit yolu ilə dünya bazarlarına daşınmasını təmin edəcəkdir ki, bu da öl-kəmizin beynəlxalq müsbət imicinin formalaşması və in-vestisiya cəlbediciliyi baxımından xüsusi önəm daşıyır.

Həmçinin hazırda Azərbaycan Cənub Qaz Dəhlizini *(SGC)* təşkil edən Trans Anadolu Qaz Boru Kəməri *(TA-NAP)* və Trans Adriatik Qaz Boru Kəməri *(TAP)* vasitəsilə Türkiyə və Avropa bazarlarına təbii maye qaz tədarük edir. Eyni zamanda, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri vasi-təsilə hasil olunan Azərbaycan neftinin dünya bazarlarına nəqli təmin edilir. Bütün bunları nəzərə alsaq, yaxın gələ-cəkdə Türkmənistanın maye qazı və neftinin də Azərbay-can üzərindən beynəlxalq neft və qaz kəmərləri vasitəsilə Avropaya nəqli gerçəkləşə bilər.

İndiyədək öz enerji resurslarının ixracını Rusiya, İran və Çin üzərindən həyata keçirən Türkmənistan üçün bu cür alternativ və iqtisadi cəhətdən daha sərfəli ixrac marşrutu olduqca cəlbedici xüsusiyyətə malikdir.

Bu, eyni zamanda Türkmənistan Respublikası ilə bəra-bər, digər Mərkəzi Asiya ölkələrinin, xüsusilə Qazaxıstan Respublikası və Özbəkistan Respublikasının öz enerji ixra-

cının şaxələndirilməsi üçün də çox əhəmiyyətlidir. Ölkəmiz üçün isə bu imkanlar nəqliyyat-tranzit ölkə olaraq öz önəmini artırmaq və geosiyasi mövqeyini daha da möhkəmləndirməsi deməkdir.

Bu baxımdan, mövcud Anlaşma Memorandumu Orta Asiyanın enerji resurslarının Avropa bazarlarına rahat və təhlükəsiz şəkildə çıxışının təmin olunması üçün gələcəkdə Transxəzər boru kəmərinin tikintisinin reallaşdırılmasını da yenidən gündəmə gətirə bilər. Bu isə bütövlükdə dünyanın enerji xəritəsində yeni ciddi dəyişikliklərə, böyük investisiya axınına, region ölkələrinin iqtisadi durumunun inkişafına, yeni iş yerlərinin yaradılmasına və nəticə etibarilə xalqların həyat səviyyəsinin yüksəlməsinə səbəb olacaqdır. Bu baxımdan "Dostluq" yatağı nəinki Azərbaycan və Türkmənistanın, ümumilikdə tərəfdaş ölkələrin də gələcək inkişafı üçün böyük perspektivlər vəd edir.

Məlumdur ki, respublikamız Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün ilk təşəbbüs göstərən ölkələrdən biri olmuşdur. Bu məqsədlə sahilyanı ölkələrin mövqelərinin yaxınlaşdırılması və hər bir tərəfi qane edə biləcək şəkildə ümumi razılığın əldə olunması yönündə ciddi səylər göstərilmişdir.

Nəticədə 29 noyabr 2001-ci ildə "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında" Saziş, 23 sentyabr 2002-ci ildə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında" Saziş və 14 may 2003-cü ildə "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında" Sazişin imzalanmasına nail olunmuşdur.

Eyni zamanda Xəzəryanı dövlətlər arasında çoxtərəfli birgə fəaliyyətin, qarşılıqlı kompromis və mövqelərin yaxınlaşması nəticəsində 12 avqust 2018-ci ildə Qazaxıstan Respublikasının Aktau şəhərində 5 Xəzəryanı dövlətin – Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran və Rusiyanın ölkə başçılarının növbəti zirvə görüşü keçirilmiş, uzun illərə söykənən müzakirə və mübahisə mövzusu – Xəzərin hüquqi statusu məsələsi həll edilərək sahilyanı ölkələr arasında 24 Maddədən ibarət "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya imzalanmışdır.

"Dostluq" yatağının birgə istismarı ilə bağlı Anlaşma Memorandumunun imzalanması üçün videokonfrans formatında keçirilən görüş zamanı çıxış edən dövlətimizin başçısı Prezident İlham Əliyev Xəzəryanı ölkələrin əməkdaşlığının çox dinamik, qarşılıqlı anlaşma və dəstək ruhunda inkişaf etdiyini, bunun nəticəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalandığını da xatırladaraq demişdir:

***"Xəzəryanı ölkələr xoş məram, siyasi iradə nümayiş etdiriblər. Çoxillik uzun diskussiyalardan sonra enerji resurslarının mənimsənilməsi, habelə Xəzərin qorunması üzrə birgə fəaliyyət üçün ölkələrə yeni imkanlar açan Konvensiya razılaşdırılıb. Biz birgə səylərimizlə bundan sonra da xalqlarımıza bu qədər nemətlər bəxş edən bu nadir su hövzəsini qorumaq üçün nə lazımdırsa etməliyik. Bu gün imzalanma prosesini müşahidə edərək düşündüm ki, əcdadlarımız bugünkü mərasimi görsəydilər, yəqin ki, şad olardılar. Necə deyərlər, onların ruhu şaddır. Onlar bizə görə, iki qardaş xalqın əl-ələ, çiyin-çiyinə birlikdə inamla irəliləməsinə, bir-birini dəstəkləməsinə, öz xalqlarının gələcəyi naminə əməkdaşlıq etməsinə, bununla da ölkələrimizin hələ illər boyu, onilliklər boyu davamlı inkişafını təmin etmələrinə görə qürur duyardılar".***

Bu mənada, imzalanmış növbəti sənəd Xəzər dənizinin sülh, sabitlik, mehriban qonşuluq və dostluq dənizi kimi sahil ölkələri üçün bütün məsələlərin məhz qarşılıqlı anlaşma, dialoq və işbirliyi yolu ilə həll oluna biləcəyini bir daha sübut etmiş olur. Bu baxımdan məlum Anlaşma Memorandumu gələcəkdə hər iki ölkə arasında mövcud əməkdaşlıq və qarşılıqlı etimad mühitinin artması fonunda Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi üzrə aparılacaq dialoq və əməkdaşlığa da öz dəyərli töhfəsini verəcəyinə ümidləri artırır. Eyni zamanda, bu əməkdaşlıq Türkmənistan Respublikasının Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında aktiv iştirakını da reallaşdıra bilər. Bu isə öz növbəsində Böyük Türk Dünyasına yeni güc qazandıracaqdır.

Beləliklə, Anlaşma Memorandumunun imzalanması iki ölkəni bir-birinə daha da yaxınlaşdırmaqla yanaşı, ümumilikdə bütün Türk dünyasına yeni imkanlar açacaq, türk dövlətləri arasında siyasi, iqtisadi və mədəni sahədə inteqrasiyanın dərinləşməsinə, bölgənin ümumi rifahı və sabitliyinə yeni fayda qatacaqdır.

Bu gün əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu və məqsədyönlü siyasət nəticəsində ölkəmiz 21-ci əsrdə geosiyasi mövqeyinə və geostrateji gücünə görə ən mühüm dövlətlərdən birinə çevrilməkdədir.

*"Elm" qəzeti, 29 yanvar 2021-ci il, № 04 (1266)*

# ALTERNATİV VƏ BƏRPAOLUNAN ENERJİ MƏNBƏLƏRİNİN İMKANLARI

Enerji ehtiyatlarına olan tələbatın ildən-ilə artdığı müasir dövrdə hər bir dövlət üçün mövcud ənənəvi enerji mənbələrindən səmərəli istifadə etməklə yanaşı, ümumi enerji istehsalının artımına nail olunması və ölkənin enerji təhlükəsizliyinin təmin olunması üçün düzgün enerji siyasətini formalaşdırmaq olduqca zəruridir. Bu baxımdan alternativ və bərpaolunan enerji mənbələrinin mövcudluğu elektrik enerjisi təminatının şaxələndirilməsinə və fasiləsizliyinin təmin edilməsinə geniş imkanlar açır. Belə ki, alternativ və bərpaolunan enerji mənbələri ənənəvi enerji mənbələrinə nisbətdə potensial imkanlar baxımından daha geniş və tükənməzdir.

Həmçinin alternativ və bərpaolunan enerji mənbələrindən istifadə iqtisadi cəhətdən əhəmiyyətli olmaqla yanaşı, qlobal səviyyədə ekoloji problemlərin aradan qaldırılması və ətraf mühitin təhlükəsizliyi baxımından da xüsusi önəm daşıyır.

Lakin alternativ və bərpaolunan enerji mənbələrindən fərqli olaraq, ənənəvi enerji mənbələri məhdud və tükənən olması ilə yanaşı, ondan istifadə zamanı ətraf mühitə dəyəcək ciddi mənfi təsirlər də qaçılmaz olur. Belə ki, bərk və ya maye halında olan yanacaqların yandırılması zamanı Kükürd dioksid *($SO_2$)*, Karbon dioksid *($CO_2$)*, Karbon oksid *(CO)*, Azot dioksid *($NO_2$)*, Metan *($CH_4$)* eləcə də toz, his və s. bu kimi zərərli maddələr əmələ gəlir ki, bu da ətraf mühitin və atmosferin xeyli çirklənməsinə səbəb olur. Kömürün açıq üsul ilə çıxarılması və torfun işlənməsi isə landşaftların dəyişilməsinə, hətta onun dağılması hallarına gətirib çıxarır. Həmçinin neftin hasilatı və daşınması zamanı yarana biləcək hər hansı qəza zamanı neft və neft məhsulla-

rının geniş ərazilərə yayılması ekoloji mühitin çirklənməsinə səbəb olur ki, bu da ətraf mühitdə mövcud canlıların məhvinə yol açır.

Alternativ və bərpaolunan enerjinin istehsalı zamanı isə ətraf mühiti çirkləndirən heç bir tullantı və ya zərərli maddə yaranmır. Bu isə alternativ və bərpaolunan enerji mənbələrinin ənənəvi enerji mənbələrinə nisbətdə ekoloji cəhətdən daha təmiz və zərərsiz olmasının bariz nümunəsidir. Məhz bu üstün cəhət bəşəriyyəti narahat edən qlobal istiləşmə prosesinin və onun nəticəsində baş verən kataklizmlərin, təbii fəlakətlərin qarşısını müəyyən qədər almağa imkan verir.

Bu məqsədlə dünyanın bir sıra ölkələrində günəş, külək və digər bu kimi təmiz və bərpaolunan enerji mənbələrindən istifadə ildən-ilə artmaqdadır. Belə ki, alternativ və bərpaolunan enerji mənbələrinin mənimsənilməsi bu ölkələr üçün dövlətin enerji təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, ekoloji tarazlığın qorunması baxımından da prioritet vəzifə kimi qəbul edilir. Bir sözlə, alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə müasir dövrün tələbi olmaqla, iqtisadiyyatın və cəmiyyətin ümumi tərəqqisinə töhfə vermiş olur.

Respublikamızda isə enerji təhlükəsizliyinin tam təmin edilməsinə baxmayaraq, qlobal çağırışlara uyğun olaraq, enerji siyasətinin əhatə dairəsinin təkcə neft və qazla məhdudlaşdırılmamasına çalışılır. Belə ki, ənənəvi enerji mənbələrinin getdikcə tükənməsi bir sıra dövlətlər kimi ölkəmizin də neft və təbii qaz kimi karbohidrogen ehtiyatlarına olan asılılığının azaldılması məqsədilə alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin inkişaf etdirilməsini zəruri edir.

Ölkəmiz zəngin karbohidrogen ehtiyatlar ilə yanaşı özünün əlverişli coğrafi mövqeyi və təbii iqlim şəraiti hesabına kifayət qədər alternativ və bərpaolunan enerji ehtiyatlarına da malikdir.

Belə ki, hesablamalara görə, ölkəmiz 800 MVt-a yaxın illik külək enerji ehtiyatına malikdir. Bu ehtiyat ildə təxmini hesablamalara görə 2,4 mlrd. kVt.s elektrik enerjisinə bərabərdir. Bu isə öz növbəsində ildə 1 mln.t-a yaxın şərti yanacağa qənaət edilməsi, atmosferə küllü miqdarda tullantıların, o cümlədən ozondağıdıcı Karbon dioksidin *($CO_2$)* atılmasının qarşısının alınması deməkdir.

Eyni zamanda, ölkəmiz zəngin su ehtiyatlarına da malikdir. Belə ki, aparılmış son elmi-tədqiqat işlərinin nəticəsinə əsasən ölkə ərazisində çayların hidroenerji potensialının 40 mlrd. kVt.s, texniki cəhətdən əlverişli potensialın isə 16 mlrd. kVt.s olduğu müəyyən edilmişdir. Bunun da 5 mlrd. kVt.s-ı kiçik hidroenergetikanın payına düşür.

Həmçinin ölkəmizin təbii iqlim şəraiti bizə günəş enerjisindən də səmərəli istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını xeyli artırmağa geniş imkanlar açır. Belə ki, hesablamalara görə ölkə üzrə günəşli saatların sayı Naxçıvan Muxtar Respublikası ərazisində illik 3200 saat, Kür-Abşeron ərazisi üzrə isə 2500 saatdır. Ərazinin hər kvadrat metrinə düşən illik enerji miqdarı isə Naxçıvan Muxtar Respublikası üzrə 2200–2600 kVt.s, Kür-Abşeron ərazisi üzrə isə 1900–2200 kVt.s təşkil edir.

Qeyd edilən göstəricilər üzrə respublikamız bir sıra dünya ölkələrini qabaqlayır. Bu da ölkəmizin alternativ və bərpaolunan enerji mənbələrindən istifadə imkanlarının yüksək olduğunu göstərir.

Bu səbəbdən Azərbaycan Respublikası Prezidentinin ölkədə mövcud alternativ və bərpaolunan enerji mənbələri hesabına yeni enerji güclərinin yaradılmasını təmin etmək məqsədilə 2004-cü il 21 oktyabr tarixli, 462 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Proqram üzrə faktiki ola-

raq, bir çox layihələr həyata keçirilmiş və ya hazırda icra edilməkdədir.

Həmçinin "2012–2020-ci illər üçün Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə dair Dövlət Strategiyasının hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidenti tərəfindən 29 dekabr 2011-ci il tarixli, 1958 nömrəli Sərəncam imzalanmışdır.

Dövlət Strategiyasının əsas məqsədi alternativ və bərpaolunan enerji mənbələrinin geniş tətbiqi hesabına elektrik və istilik enerjisi istehsalı, enerjidən səmərəli istifadə, enerji təchizatının effektivliyinin artırılması və istehlakçıların dayanıqlı enerji ilə tam təminatına nail olmaqdır. Həmçinin strategiyanın tərkib hissəsi alternativ və bərpaolunan enerji mənbələri hesabına özəl enerji istehsalçılarına dövlət dəstəyinin həyata keçirilməsi üçün bu sahə üzrə dövlət proqramlarının, qanunvericilik bazasının, tarif siyasətinin, subsidiyalar sisteminin yaradılmasının, yeni texnologiyaların öyrənilməsi və tətbiqinin, bərpaolunan enerji resurslarının potesialının təyin olunmasını təmin etməkdir.

Eyni zamanda, Startegiyaya əsasən, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə sayəsində generasiya güclərinin paylanılmış strukturunun inkişafı, enerji mənbələrinin diversifikasiyası, istilik effekti yaradan qaz tullantılarının azaldılması, alternativ və bərpaolunan enerji mənbələrinin iqtisadiyyatın bütün sahələrinə tətbiqi və enerji istehlakı balansında yeni yaradılacaq generasiya gücləri hesabına alternativ və bərpaolunan enerji mənbələrinin istehlak payının 2020-ci ili əhatə etməklə, 20%-ə çatdırılması ilə bağlı zəruri tədbirlər həyata keçirməkdir.

Bununla yanaşı, dövlət başçısı ölkəmizdə alternativ və bərpaolunan enerji sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə 01 fevral 2013-cü ildə Azərbaycan

Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması haqqında Fərman imzalamışdır. Fəaliyyət müddəti ərzində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji və ondan səmərəli istifadə olunması sahəsində dövlət siyasətini həyata keçirmişdir.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 14 yanvar 2019-cu il tarixli Fərmanı ilə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ləğv edilmişdir. Fərmanın imzalanmasında məqsəd Azərbaycan Respublikasında dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmin edilməsidir. Agentliyin bundan sonrakı fəaliyyəti və yarımçıq qalmış layihələrin icrası Azərbaycan Respublikasının Energetika Nazirliyinə həvalə edilmişdir.

Məlumdur ki, enerji sahəsi perspektivli və etibarlı biznes sahəsi olmaqla, davamlı inkişafın əvəzolunmaz bir hissəsidir. Bu səbəbdən alternativ və bərpaolunan enerji sahəsinə uzunmüddətli sərmayə yatırmaq olduqca faydalıdır. Bu məqsədlə mövcud ənənəvi enerjidən fərqli olaraq ekoloji cəhətdən daha təmiz metodlarla əldə edilən enerjinin təşviqi olduqca zəruridir. Həmçinin ölkəmizdəki mövcud sağlam siyasi-iqtisadi vəziyyət, münbit investisiya mühiti və ən başlıcası isə Ali siyasi iradə bu sahənin inkişafına real şərait yaratmış olur.

Tarixə qısa nəzər salsaq görərik ki, Azərbaycanda alternativ və bərpaolunan enerji mənbələrindən istifadə və bu sahənin öyrənilməsinə hələ iki əsr bundan öncə başlanılmışdır. Belə ki, Azərbaycanda hidro enerjidən səmərəli isti-

fadə edilməsi məqsədilə ilk su elektrik stansiyalarının tikintisi həyata keçirilmişdir. Alternativ və bərpaolunan enerji mənbələrinin digər növlərindən istifadə və elmi-tədqiqi isə yaxın müasir dövrü əhatə edir. Lakin bu sahənin öyrənilməsi və ondan səmərəli istifadənin yeni olmağına baxmayaraq ölkəmizdə bu istiqamətdə qısa vaxt ərzində xeyli işlər görülmüşdür. Belə ki, bu sahə üzrə normativ hüquqi baza yaradılmış, struktur təkmilləşdirilməsi prosesi həyata keçirilmiş, kompleks elmi-tədqiqatlar aparılmış və müxtəlif vaxtlarda bir sıra dəyərli elmi əsərlər nəşr edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutu, Radiasiya Problemləri İnstitutu, Geologiya İnstitutu, Polimer Materialları İnstitutu, həmçinin Coğrafiya İnstitutunda bu sahənin inkişafı ilə əlaqədar nəzəri və praktiki əhəmiyyətli fundamental elmi-tədqiqatlar aparılmışdır.

Elmi-tədqiqatların əsas məqsədi ölkəmizdə mövcud ənənəvi enerji mənbələrindən səmərəli istifadə ilə yanaşı, alternativ və bərpaolunan enerji mənbələrinin geniş tətbiqi hesabına ölkə üzrə ümumi elektrik və istilik enerjisi istehsalının artımına və istehlakçıların dayanıqlı enerji ilə təmin olunmasına nail olmaq üçün müvafiq təkliflərin işlənib hazırlamasını həyata keçirməkdir.

Bütün bunlarla yanaşı, ölkəmizdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin inkişafına və bu sahə üzrə köklü dəyişikliklərə nail olunması üçün xüsusi təşviqedici mexanizmlər yaradılmalı, effektiv stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Bu məqsədlə alternativ və bərpaolunan enerji sahəsi üzrə qabaqcıl təcrübəyə malik və yüksək nailiyyətlər əldə etmiş ölkələrlə əməkdaşlığı daha da genişləndirmək, onların təcrübələrindən maksimum yararlanmaq olduqca zəruridir.

*"Elm və həyat" elmi-populyar jurnalı, 2020, № 1-2 (467-468)*

## ÜMUMİ ENERJİ İSTEHLAKINDA ALTERNATİV VƏ BƏRPAOLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ROLU

Dünya əhalisinin təbii artımı, eyni zamanda yaşanan qlobal iqtisadi aktivlik enerjiyə olan tələbatın da yüksəlməsinə səbəb olur.

Hesablamalara görə son 50-60 ildə ümumdünya üzrə bu tələbat özünü kəskin şəkildə büruzə vermişdir. Belə ki, 1960-cı illərdə təbii ehtiyatlara olan tələbat yer kürəsinin bioloji bərpaetmə gücünün təqribən 70%-nə bərabər idisə, 1980-ci illərdə sözügedən tələbat artıq yer kürəsinin gücünü üstələməyə, yaxın on-iyirmi il ərzində isə istifadə edilən təbii ehtiyatlar yer kürəsinin yenidən bərpaetmə gücünün ən azı 120%-ni təşkil etmişdir. Bu isə o deməkdir ki, hal-hazıradək planetimizdə istehlak edilmiş ehtiyatların tam bərpa olunması üçün təqribən bir yarım yer kürəsi tələb olunur.

Bütün bunlara baxmayaraq, hələ də dünya əhalisinin müəyyən qisminin elektrik enerjisinə olan tələbatının tam ödənilməsində ciddi çətinliklər mövcuddur. Belə ki, hesablamalara görə hazırda, əsasən inkişaf etməkdə olan Asiya və Afrika ölkələrində yaşayan bir milyarddan artıq insan elektrik enerjisindən məhrumdur. Bu isə dünya əhalisinin təqribən 15%-ni təşkil edir. Elektrik enerjisindən məhrum olan əhalinin 600 milyonu Saxaranın cənubunda, Afrika ölkələrində yaşayır. Əgər ciddi tədbirlər həyata keçirilərsə, yaxın on il ərzində bu rəqəm cüzi azalaraq 530 milyon təşkil edə bilər. Bu xüsusda dünya əhalisinin elektrik enerjisinə olan tələbatının tam ödənilməsi bəşəriyyətin önündə duran ən başlıca vəzifələrdən biridir.

Proqnozlara görə ümumdünya üzrə enerjiyə olan tələbatın 2040-cı ilə qədər bir qədər də artacağı və 28%-ə çata-

cağı gözlənilir. Bu artımın böyük hissəsi isə OECD – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına *(Qeyd: OECD (Organization for Economic Cooperation and Development) – demokratiya və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan və özündə inkişaf etmiş 36 üzv ölkəni cəmləşdirən beynəlxalq iqtisadi təşkilatdır)* daxil olmayan və inkişaf etməkdə olan ölkələrin payına düşəcəkdir. Buna səbəb isə həmin ölkələrin iqtisadi səviyyələrinin yüksəlməsi və buna paralel olaraq enerjiyə olan tələbatın da artmasıdır. Proqnozlara əsasən Çin və Hindistan kimi yüksək əhali sayına malik olan ölkələr başda olmaqla, OECD-yə daxil olmayan ölkələrin enerji istehlakı bu təşkilata daxil olan ölkələrin ümumi enerji istehlakını üstələyəcəkdir. Bu fərqin gələcək dövrlərdə daha da dərinləşəcəyi gözlənilir.

Hazırda dünyada elektrik enerjisinin istehsalında alternativ və bərpaolunan enerji mənbələrinə nisbətən ənənəvi enerji mənbələrindən daha geniş istifadə olunur. Belə ki, ümumdünya üzrə enerjiyə olan tələbatın 81,7%-i *(o cümlədən 2,2%-i nüvə enerjisi)* ənənəvi enerji mənbələri və 18,3%-i isə alternativ və bərpaolunan enerji mənbələri hesabına təmin edilir.

Hesablamalara görə, gələcəkdə dünyada alternativ və bərpaolunan enerji mənbələri elmi-texniki tərəqqi və yüksək qabaqcıl texnologiyalar sayəsində ənənəvi enerji mənbələrinə nisbətdə ən sürətli inkişaf edən enerji mənbəyi olacaqdır. Lakin bütün bu inkişafa rəğmən 2040-cı ilə qədər ənənəvi enerji mənbələri hələ də əsas enerji mənbələri olaraq öz mövqeyini qoruyub saxlayacaqdır. Belə ki, ənənəvi enerji mənbələri 2040-cı ilə qədər ümumi enerji istehlakının 77%-ini təşkil edəcəkdir. Xüsusilə təbii qaz ənənəvi enerji mənbələrinin digər növlərinə nisbətdə daha çox inkişaf edən enerji mənbəyi olacağı gözlənilir. Həmçinin hazırda ümumi enerji istehlakının 33%-ni neft və maye yanacaq-

ları tutduğu halda 2040-cı ildə bu göstərici cüzi azalaraq 31% təşkil edəcəkdir. Bu müddət ərzində nüvə enerjisinə olan tələbat isə 1,5 dəfə artacaqdır. Bu göstərici ilə nüvə enerjisi dünyada ikinci ən böyük inkişaf edən enerji mənbəyi olacaqdır.

Lakin onu da nəzərə almalıyıq ki, neft, təbii qaz və daş kömür kimi ənənəvi enerji mənbələri tükənən resurslardır. Belə ki, hesablamalara görə bu yanacaqlardan istifadə indiki inkişaf tempi ilə davam etsə təxminən neftin 43-50, qazın 65-73, daş kömürün 150-170, boz kömürün isə 500-550 ildən sonra tükənəcəyi proqnozlaşdırılır.

Beləliklə, enerjiyə olan tələbatımızın ödənilməsində xüsusi çəkiyə malik olan karbohidrogen ehtiyatlarının tükənən olduğunu və artan enerji qiymətlərinin iqtisadiyyata mənfi təsirlərini də nəzərə alsaq mövcud ehtiyatların gələcək nəsillər üçün qorunub saxlanılmasında, qlobal iqlim dəyişikliklərinin qarşısının alınmasında və eləcə də dayanıqlı enerji təminatının həyata keçirilməsində alternativ və bərpaolunan enerji mənbələrinin əhəmiyyətini və onlardan istifadənin zəruriliyini daha aydın görə bilərik.

Ənənəvi enerji mənbələrinin tükənən olması ilə yanaşı, onlardan istifadə zamanı ətraf mühitə qarşı ciddi mənfi təsirləri də qaçılmaz olur. Belə ki, bərk və ya maye halında olan yanacaqların yandırılması zamanı kükürd dioksid *($SO_2$)*, karbon dioksid *($CO_2$)*, karbon oksid *(CO),* azot dioksid *($NO_2$)*, metan *($CH_4$)* eləcə də toz, his və s. bu kimi zərərli maddələr əmələ gəlir ki, bu da ətraf mühitin və atmosferin xeyli çirklənməsinə səbəb olur. Nəticədə atmosferdə "istixana effekti" yaranır ki, bu da mümkün iqlim dəyişikliklərinə və qlobal istiləşməyə yol açır. Belə ki, təxmini hesablamalara görə faydalı qazıntı şəklində çıxarılan enerji daşıyıcılarının yanmasından hər il atmosferə on milyonlarla

ton karbon dioksid *($CO_2$)* qazı atılır. Təkcə 2020-ci ildə bu göstərici təqribən 32 milyon ton təşkil etmişdir.

Beləliklə, mövcud ənənəvi enerji mənbələrinin tədricən tükənməsi, həmçinin onlardan istifadə zamanı ətraf mühitə dəyən zərərlərin yüksək olması, bu enerji mənbələrinin daha güvənli, tükənməyən və ətraf mühitə qarşı zərərsiz təsirlərə malik alternativ və bərpaolunan enerji mənbələri ilə əvəz edilməsini zəruri edir.

Beynəlxalq Enerji Agentliyinin *(International Energy Agency (İEA))* təsnifatına əsasən, alternativ və bərpaolunan enerji mənbələri beş qrupa bölünür:

1. Külək enerjisi
2. Günəş enerjisi
3. Bioenerji
4. Geotermal enerji
5. Hidro enerji *(okean və dənizlərdə qabarma daxil olmaqla)*

Bütün bunları nəzərə alaraq, biz faydalı qazıntılara və nüvə enerjisinə əsaslanan ənənəvi enerji sistemini ilkin sistem, alternativ və bərpaolunan enerji mənbələrinə əsaslanan qeyri-ənənəvi enerji sistemini isə yeni və müasir strateji sistem hesab edə bilərik.

Nəticə olaraq alternativ və bərpaolunan enerji mənbələrini ənənəvi enerji mənbələrindən fərqləndirən xüsusiyyətləri aşağıdakı kimi təsnifləşdirə bilərik:

1. Alternativ və bərpaolunan enerji mənbələri bərpa olunandır və tükənməzdir. Ənənəvi enerji mənbələri isə məhdud ölçüdədir və tükənəndir.

2. Alternativ və bərpaolunan enerji mənbələri ekoloji cəhətdən səmərəlidir. Belə ki, ənənəvi enerji mənbələrinə nisbətdə ondan istifadə zamanı atmosferin Karbon qazı *($CO_2$)* və digər bu kimi zərərli tullantılarla çirklənməsinə səbəb olmaz. Xüsusilə gələcəkdə alternativ və bərpaolunan

enerji mənbələrindən istifadə genişləndikcə, ənənəvi enerji mənbələrinə olan tələbat da azalacaq və beləliklə atmosferin çirklənmə səviyyəsi tədricən aşağı enəcəkdir.

3. Alternativ və bərpaolunan enerji mənbələri təbii və yerli enerji mənbələridir. Belə ki, məhz bu kimi mühüm üstünlüklərə malik alternativ və bərpaolunan enerji mənbələrindən istifadə, hər bir ölkə üçün dünya üzrə dominant enerji istehsalçılarına olan asılılığın azaldılması və nəticə etibarilə ölkənin enerji təminatında fasiləsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Başqa sözlə desək dünya bazarlarında yanacaq məhsullarının qiymətində baş verə biləcək hər hansı bir dəyişikliklərdən yaranan risklər minimuma enərək, ölkənin enerji təhlükəsizliyi tam təmin edilmiş olacaqdır.

Beləliklə, alternativ və bərpaolunan enerjini təbiətdə mövcud olan, istifadə zamanı tükənməyən, mühüm və strateji əhəmiyyətə malik enerji mənbəyi kimi adlandırmaq olar.

Lakin məlumdur ki, hazırda alternativ və bərpaolunan enerji mənbələri hesabına əldə edilmiş enerji kifayət qədər yüksək deyil və bu da mövcud ənənəvi enerji mənbələrindən tam imtina edilməsinə imkan vermir.

Bütün bunları nəzərə alaraq dünyada, eləcə də ölkəmizdə alternativ və bərpaolunan enerji istehsalının artımına nail olmaq üçün aşağıdakı qeyd olunan bir sıra tədbirlərin həyata keçirilməsi məqsədə müvafiq olardı:

- maddi-texniki bazanın yenilənməsi və inkişaf etdirilməsi, eyni zamanda istehsalatda yeni və təkmilləşdirilmiş, müasir standartlara cavab verə biləcək mütərəqqi metodların və yüksək texnologiyaların tətbiqi;
- nəzəri və praktiki əhəmiyyətli genişmiqyaslı fundamental elmi-tədqiqat layihələrin aparılması və əldə olunmuş uğurlu innovativ nəticələrin bu sahəyə tətbiqi;

- alternativ və bərpaolunan enerji mənbələrindən istifadə üzrə fəaliyyəti tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi;

- yerli və xarici investorların bu sahəyə marağının artırılması məqsədilə təşviqedici mexanizmin qurulması, əhatəli stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

- investorların maliyyə və vergi yükünün azaldılması məqsədilə müəyyən güzəşt və azadolmaların tətbiqi və s.

Beləliklə, yuxarıda qeyd olunan təkliflər bu sahədə enerji istehsalının intensivləşdirilməsində, yüksək məhsuldarlığın əldə edilməsində, enerji şəbəkəsinin genişləndirilməsində, eyni zamanda ekoloji tarazlığın təmin edilməsində mühüm və həlledici rol oynaya bilər.

*"Elm və həyat" elmi-populyar jurnalı, 2021, № 1 (471)*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏR “AĞILLI KƏND VƏ ŞƏHƏR” VƏ “YAŞIL ENERJİ ZONASI” KONSEPSİYALARI ƏSASINDA YENİDƏN QURULACAQDIR

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qırx dörd gün davam edən Vətən Müharibəsi ölkəmizin hərbi-siyasi və diplomatik qələbəsi ilə yekunlaşdı.

Düşmənin “məğlubedilməz ordu” kimi illərlə formalaşdırdığı mif rəşadətli Azərbaycan ordusu önündə sabun köpüyü kimi dağıldı. Düşmən tapdağı altında inildəyən vətən torpaqları xilaskar Azərbaycan ordusuna qucaq açdı, həqiqi sahiblərinə qovuşdu.

Lakin uzun dövrü əhatə edən bu otuz illik işğal müddətində torpaqlarımız mənfur düşmən tərəfindən vəhşicəsinə talan edilmiş, şəhər və kəndlərimiz viran qoyulmuş, zəruri infrastruktur sahələri tamamilə dağıdılmış, xalqımıza məxsus tarixi, mədəni və dini abidələrimiz yerlə-yeksan edilmişdir. Bölgənin iqtisadiyyatına və ekoloji mühitinə əhəmiyyətli dərəcədə ziyan dəymişdir.

Bu isə azad edilmiş ərazilərdə böyük qayıdışın və daimi məskulaşmanın həyata keçirilməsində xeyli çətinliklər yaradır. Bu mənada əvvəl mövcud olmuş zəruri infrastruktur sahələrinin yenidən və daha müasir şəkildə qurulması ərazidə köklü şəkildə geniş bərpa və quruculuq işlərinin həyata keçirilməsini, yüksək məbləğdə maliyyə vəsaitinin cəlbini tələb edir. Lakin dövlətimizin bu istiqamətdə sərgilədiyi qəti siyasi iradə və ölkəmizin davamlı artan iqtisadi-maliyyə imkanları regionun dirçəliş prosesinin daha sürətli şəkildə aparılacağına və bütün tədbirlərin zamanında yekunlaşacağına böyük ümid və imkanlar yaradır.

Bunun göstəricisidir ki, bu gün artıq işğaldan azad edilmiş vətən torpaqlarında genişmiqyaslı bərpa və quruculuq

işlərinə başlanılmış, qısa zaman keçməsinə baxmayaraq bu sahə üzrə xeyli uğurlar əldə olunmuşdur. Bütün bu görülən işlər, həyata keçirilən tədbirlər isə dövlət başçısı, cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Onun qətiyyətli qərarları, müdrik və uzaqgörən siyasəti nəticəsində regionun sürətli inkişafını nəzərdə tutan zəruri istiqamətlər müəyyənləşdirilir, lazımi tədbirlər həyata keçirilir.

Belə ki, ilk addım olaraq, ölkə başçısı cənab İlham Əliyevin 2303 nömrəli, 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılmışdır.

Qərargah işğaldan azad edilmiş ərazilərdə beynəlxalq standartlara uyğun nəqliyyat və rabitə infrastrukturunun qurulması, müasir çağırışlarla uzlaşan yüksək texnologiyaların tətbiqi, o cümlədən həmin ərazilərdə nəqliyyatın bütün növlərindən rahat və təhlükəsiz şəkildə istifadə olunması, tranzit nəqliyyat əlaqələrinin bərpası və bu sahədə regional əməkdaşlığın genişləndirilməsi, magistral və lokal telekommunikasiya şəbəkələrinin tikilməsi və alternativlik təmin edilməklə respublikanın ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulması, orada yaşayacaq və fəaliyyət göstərəcək əhaliyə və dövlət qurumlarına yeni texnologiyalar əsasında telefon, internet, radio-televiziya yayımı, poçt xidmətlərinin göstərilməsi, həmçinin “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarının tətbiqi məsələlərinin təmin edilməsi üzərində çalışır.

Məqsəd ölkə başçısı tərəfindən verilən tapşırıqlar əsasında, işğaldan azad edilmiş ərazilərə kütləvi qayıdış və daimi məskunlaşma tədbirləri çərçivəsində görüləcək bərpa

və quruculuq işləri və ərazilərin dayanıqlı inkişafı üçün əsas istiqamətləri müəyyənləşdirmək, gələcək tələbat və perspektivlər, yeni çağırışlar və konsepsiyalar nəzərə alınmaqla vəzifələri icra etməkdir.

Bu məqsədlə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın layihəsi tərtib edilmişdir.

Proqramın əsas məqsədi: bölgədə iqtisadi, sosial və ekoloji ünsürlərin harmonik inkişafını sürətləndirəcək ərazilərin davamlı və tarazlı tərəqqisinin təmin olunması, dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, iqtisadi cəhətdən layiqli yaşayış şəraitinin yaradılması ilə konfliktsonrası reabilitasiyanın mühüm hissəsi olan əhalinin repatriasiyası, dövlət xərclərinin azaldılması məqsədilə bərpa prosesinə özəl sektorun investisiyalarının cəlb edilməsi, habelə dövlət və özəl sektor tərəfdaşlığından geniş istifadə olunması, ərazilərin bərpası prosesinin yerli istehsala tələb yaratması və iqtisadi artımın stimullaşdırılması, işğaldan azad edilmiş ərazilərin təhlükəsizlik məsələləri, infrastruktur təminatı və iqtisadi potensialı nəzərə alınmaqla yenidən qurulması və bərpası, yüksək standartlara cavab verən sosial rifahın əldə edilməsi, təbii resursların effektiv istifadəsi, ətraf mühitin etibarlı mühafizəsinə əsaslanan ekoloji təhlükəsizlik sisteminin formalaşdırılması üçün əlverişli mühitin yaradılması təşkil edir.

Dövlət proqramının 2021–2025-ci illər üzrə Tədbirlər planında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə üzrə aidiyyəti qurumlarla birlikdə görülməsi nəzərdə tutulan tədbirlər aşağıdakı kimi təsnifləşdirilir:

- əhalinin enerji təminatında alternativ və bərpaolunan enerji mənbələrindən *(günəş enerjisi, külək enerjisi, geotermal enerji, bioenerji, biokütlə və s.)* istifadə perspektivləri-

nin öyrənilməsi və qiymətləndirilməsi üzrə təkliflərin hazırlanması;

- mövcud hidroenerji infrastrukturun bərpası və ya yenidən qurulması məqsədilə hidroenerji potensialın qiymətləndirilməsi üzrə təkliflərin verilməsi;
- işğaldan azad edilmiş ərazilər üzrə elektrik enerjisinin istehsalı üçün günəş və külək elektrik stansiyalarının tikintisi;
- işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrinin mövcud potensialının ölçülməsi və ərazilərin enerji xəritələrinin tərtib edilməsi.

Dövlət Proqramı çərçivəsində yerinə yetiriləcək vəzifələrdən biri də "yaşıl enerji zonası" və "ağıllı" konsepsiyası əsasında yeni və müasir şəhərlərin qurulmasıdır. Bu məqsədlə aidiyyəti qurumlarla birlikdə görülməsi nəzərdə tutulan tədbirlər aşağıdakı kimi təsnifləşdirilir:

- müasir texnologiyalara əsaslanan infrastruktur sisteminə malik "Ağıllı kənd" layihələrinin hazırlanması və tikintisi üzrə tədbirlərin görülməsi;
- "Yaşıl məkan" konsepsiyasının reallaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi və "Yaşıl şəhər"lərin yaradılması;
- "Ağıllı şəhər" konsepsiyasının pilot olaraq tətbiqi və innovativ həll üsulları ilə keyfiyyətli xidmətlərin göstərilməsi.

Ölkə ərazisinin inzibati rayonlara bölünməsi ilə yanaşı, iqtisadi rayonlaşdırılması da mövcuddur ki, bu da idarəetmənin səmərəliliyinin artırılması və operativliyin, çevikliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Əvvəllər Azərbaycan Respublikası ərazisi on iqtisadi regiona bölünmüşdü ki, işğaldan azad edilmiş ərazilər bu iqtisadi regionların ikisində təmsil olunurdu:

- Yuxarı Qarabağ iqtisadi regionuna yeddi inzibati rayon – Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Füzuli və Cəbrayıl rayonları, habelə Xankəndi şəhəri;
- Kəlbəcər–Laçın iqtisadi regionuna isə dörd inzibati rayon – Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxil idi.

Lakin İkinci Qarabağ, Vətən müharibəsindən sonra regionda yeni reallıqlar, gerçəkliklər yarandı ki, bu da regionlar üzrə idarəetmənin təkmilləşdirilməsi məqsədilə iqtisadi rayonların bölgüsünə yenidən baxılmasını zəruri etdi. Bu məqsədlə Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 07 iyul 2021-ci il tarixli Fərmanına əsasən, iqtisadi rayonların sayı artırılaraq on dördə çatdırıldı.

Yeni bölgüyə əsasən indiyə qədər mövcud olan Yuxarı Qarabağ və Kəlbəcər–Laçın iqtisadi rayonları, o cümlədən Aran iqtisadi rayonundan Ağcabədi və Bərdə inzibati rayonları əsasında Qarabağ iqtisadi rayonu *(Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları)* və Şərqi Zəngəzur iqtisadi rayonu *(Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları)* yaradıldı.

Fərmana əsasən işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Eyni zamanda azad olunmuş ərazilərin

ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Onu da nəzərə almaq lazımdır ki, ölkəmiz regionların sosial-iqtisadi inkişafının təmin edilməsinə dair 2004-2023-cü illəri əhatə edən ümumilikdə dörd Dövlət Proqramının hazırlanması və icrası üzrə böyük təcrübəyə malikdir. Bu mənada, bu Dövlət Proqramlarının tərtibi və tətbiqi zamanı qazanılan uğurlu təcrübə yuxarıda qeyd olunan Dövlət Proqramının da təkmil hazırlanmasına və onun tətbiqinə öz dəyərli töhfəsini verəcəkdir. Bu isə nəticədə azad edilmiş ərazilərdə mövcud potensialdan səmərəli istifadə olunmaqla, ölkənin digər bölgələrində olduğu kimi innovasiyalara əsaslanan istehsalat və xidmət sahələrinin dəyər zəncirinin bütün həlqələrinin inkişaf etdirilməsini, bölgənin sosial-iqtisadi inkişafının təmin edilməsini, yaşıl iqtisadiyyatın inkişafına münbit şəraitin yaradılmasını, ölkənin qeyri-neft sektorunun inkişafında azad edilmiş ərazilərin rolunun və əhəmiyyətinin artırılmasını, məskunlaşma zamanı əhalinin məşğulluq və gəlir əldə etmə imkanlarını artırmaqla, sosial şəraitinin yaxşılaşdırılmasını təmin edəcəkdir.

Ölkənin ərazi bütövlüyünün təmin edilməsinin mühüm şərtlərindən biri də işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı iqtisadi quruculuq işlərinin aparılması və bu ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədlə 29 dekabr 2020-ci il tarixli №233-VIQ nömrəli “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqında” Qanuna əsasən, işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması *(elektrik enerjisi, təbii*

*qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidənqurulması, yaşayış evlərinin tikintisi və s.)* üçün 2021-ci ilin təsdiq edilmiş dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Həmçinin 2021-ci il üçün büdcə zərfinə daxil olan "Azərbaycan Respublikasının 2021-ci il və növbəti 3 il üçün iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"nə əsasən, "İşğaldan azad edilən ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı konsepsiya" qəbul ediləcəkdir.

Konsepsiya çərçivəsində dövlət investisiyaları ilə yanaşı, yerli və xarici investisiyaların cəlb edilməsi ilə işğaldan azad edilən ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində işlərin həyata keçirilməsi prioritet olacaqdır.

Qeyd olunanları nəzərə alaraq, ortamüddətli dövrdə işğaldan azad edilmiş ərazilərin bərpası, regionların davamlı və tarazlı şəkildə inkişafının təmin edilməsi üzrə siyasətin aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- işğaldan azad edilmiş ərazilərdə kommunal, iqtisadi və sosial infrastrukturun qurulması;
- işğaldan azad edilmiş inzibati rayon mərkəzlərində və kəndlərdə yaşayış binalarının və evlərin tikintisi, əhalinin məskunlaşmasının təmin edilməsi;
- həmin ərazilərdə istehsal, xidmət və ticarət sahələrinin yaradılması, əhalinin məşğulluğunun təmin edilməsi və s.

Eyni zamanda, Prezident İlham Əliyev 4 yanvar 2021-ci il tarixdə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və

rifahın davamlı artımının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında 1243 nömrəli Fərman imzalamışdır.

Fərmana əsasən, Fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Fondun xətti ilə mərkəzləşdirilmiş qaydada və dövlət-özəl tərəfdaşlığı ilə görüləcək işlər nəticəsində ərazilər tamamilə yenidən qurulacaq, yeni infrastruktur sahələri yaradılacaq, müasir dövrün tələblərinə cavab verə biləcək şəkildə yaşıl kənd, qəsəbə və şəhərlər salınacaqdır. Beləliklə, qaçqın və məcburi köçkünlər öz tarixi torpaqlarına qayıdmaqla, bölgədə rahat və təhlükəsizlik həyat təmin olunmuş olacaqdır.

Eyni zamanda, dirçəliş prosesində yeni iş yerləri də açılacaqdır ki, bu da bölgədə əhalinin məşğulluğunu təmin edəcəkdir.

Ümumilikdə isə görüləcək bütün bu tədbirlər ölkənin sürətli inkişafının təmin olunmasına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına öz dəyərli töhfəsini verəcəkdir.

Beləliklə, regionun sosial-iqtisadi vəziyyətinin dirçəldilməsi istiqamətində görülən bu tədbirlər, həyata keçirilən bərpa və quruculuq işləri ölkəmizin yüksək iqtisadi potensialının və ən başlıcası isə qətiyyətli Ali siyasi iradənin göstəricisidir.

*"Elm" qəzeti, 9 iyul 2021-ci il, № 25 (1287)*

# AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ YAŞIL ENERJİYƏ KEÇİDİN REALLIQLARI VƏ ƏHƏMİYYƏTİ

Respublikamızda həyata keçirilən genişmiqyaslı və məqsədyönlü sosial-iqtisadi islahatlar ölkə iqtisadiyyatının güclənməsini, onun hərtərəfli inkişafının sürətlənməsini təmin etmişdir. Bunun nəticəsidir ki, bu gün ölkəmiz regionda iqtisadi gücünü və həlledici rolunu artırmaqla yanaşı, regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaqla regionun mühüm tranzit mərkəzinə çevrilərək beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə yüksəltmiş, ümumilikdə dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaşa çevrilmişdir.

Həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət iqtisadiyyatın inkişafı ilə yanaşı, ölkənin hərbi potensialının yüksəlməsinə də öz dəyərli töhfəsini vermişdir. Belə ki, uzun illərə söykənən ardıcıl və sistematik şəkildə həyata keçirilən məqsədyönlü islahatların və gələcək hədəflərə yönəlik uğurlu siyasətin nəticəsində müzəffər Azərbaycan ordusu otuz ilə yaxın davam edən münaqişəyə son qoyaraq öz əzəli torpaqlarını işğalçılardan azad etdi, şanlı Azərbaycan bayrağını azad vətən torpaqlarında qürurla dalğalandırdı.

İmzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat – münaqişənin qələbəmizlə nəticələnməsinin və ərazi bütövlüyümüzün bərpa olunmasının təsdiqi ilə yanaşı, respublikamızın gələcək davamlı sosial-iqtisadi inkişafının təmin olunmasına, xalqımızın yaşayış səviyyəsinin daha da yüksəlməsinə, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasına, qaçqın və məcburi köçkünlərin öz yürd-yuvalarına qayıdışı və sosial rifahının yaxşılaşmasına öz layiqli töhfəsini verəcəkdir.

Təəssüflər olsun ki, bu otuz ilə yaxın müddət ərzində işğal olunmuş ərazilərdə su, təbii qaz, yol, nəqliyyat, rabitə,

təhsil, səhiyyə, mədəniyyət və digər zəruri iqtisadi, kommunal və sosial infrastruktur sahələri kimi enerji sahəsi də tamamilə dağıdılmış, bölgənin iqtisadiyyatına və ekoloji vəziyyətinə əhəmiyyətli dərəcədə böyük ziyan dəymişdir. Belə ki, işğal edilmiş ərazilərdə yarımstansiyalar, ötürücü və paylaşdırıcı şəbəkələr dağıdılmış və ya talan edilmişdir. Bu mənada əvvəl mövcud olmuş şəbəkələrin bərpası və daha müasir, yüksək istehsal gücünə malik enerji hasilatı müəssisələrinin yaradılması milyardlarla dollar həcmində maliyyə vəsaiti tələb edəcəkdir.

Azad edilmiş ərazilərdəki enerji şəbəkələri əvvəllər kənardan – Kür çayı üzərindəki SES *(Şəmkir-Yenikənd)* və Mingəçevirdəki AzDRES-dən 35-330 kV-luq Gəncə-Ağdam, AzDRES-Ağdam və Ağdam-İmişli yüksəkgərginlikli ötürücü xətlər vasitəsi ilə təchiz olunurdu. Bu yolla Ağdam elektrik yarımstansiyasına *(330/110 kV)* gətirilən elektrik enerjisi oradan isə 110 kV-luq yüksək gərginlikli ötürücü xətlər vasitəsilə paylaşdırılırdı. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində bütün bu sistem, Ağdam elektrik yarımstansiyası da daxil olmaqla, tamamilə sıradan çıxarılmış, 17 000 km-dən artıq elektrik paylayıcı şəbəkələr və 2500 yarımstansiya ya oğurlanıb xaricə satılmış, ya da sadəcə olaraq dağıdılıb yerlə yeksan edilmişdir.

Belə olduğu təqdirdə azad edilmiş ərazilərdə bölgənin gələcək inkişafı üçün ilk növbədə ən zəruri yeni infrastruktur layihələrin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Belə ki, bu kimi zəruri layihələrin icrası olmadan qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdışı və bölgədə yenidən daimi məskunlaşmanın təmin edilməsi mümkün deyildir. Bu baxımdan, Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizin mövcud ekoloji vəziyyəti, iqtisadi potensialı və enerji ehtiyyatlarının dəyərləndirilməsi bölgədə bərpa və quruculuq işlərinin aparılmasını və dai-

mi məskunlaşmanı təmin etmək üçün olduqca önəmlidir.

Bu gün dövlətimizin qarşıya qoyduğu əsas məqsədlərdən biri də məhz Qarabağ və Şərqi Zəngəzur bölgələrinin iqtisadi, ekoloji və enerji potensialının, xüsusilə də günəş, külək, hidroenerji, bioenerji və geotermal enerji kimi alternativ və bərpaolunan enerji mənbələrinin dəqiq potensialının müəyyən edilməsidir.

İlkin mərhələyə – böyük potensiala malik rayonları ayrı-ayrılıqda qiymətləndirməklə, həmin ərazilərdə günəş və külək enerjisi üzrə dəqiq potensialın müəyyən edilməsi üçün ölçü-müşahidə stansiyalarının quraşdırılması, texniki imkanların və iqtisadi səmərəliliyin qiymətləndirilməsi kimi işlər daxildir. Beləliklə, azad edilmiş ərazilərdə alternativ və bərpaolunan enerji mənbələrinin potensialının və mövcud coğrafi və ekoloji vəziyyətinin öyrənilməsi bu sahənin hərtərəfli inkişafı və investisiya cəlbediciliyinin artırılması üçün geniş imkanlar açacaqdır.

Hesablamalara əsasən, yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin cənub düzənlik hissəsi – Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikasının ərazisindən sonra ikinci yerdədir. Burada bir kvadrat metr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kVt.s təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı isə 3000-4000 MVt-dır. Bu məqsədlə Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən ilkin olaraq Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarının ərazisində yüksək günəş enerjisi potensialına malik ümumi sahəsi 14 427 ha olan 8 potensial ərazi seçilmişdir. Məlum olmuşdur ki, bu ərazilərdə ümumilikdə 7 214 MVt  gücündə günəş elektrik stansiyalarının yerləşdirilməsi mümkün görünsə də, cənub ərazilərin bir hissəsinin kənd təsərrüfatı təyinatlı ola biləcəyi nəzərə alınaraq, burada ümumi potensial

4 000 MVt-dan yüksək qiymətləndirilir.

Qarabağ və Şərqi Zəngəzur bölgələrinin dağlıq ərazilərində 100 metr hündürlükdə küləyin orta illik sürətinin 7-8 m/s olduğu geniş ərazilər mövcuddur. Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzurda külək enerjisinin potensialı 300-500 MVt qiymətləndirilir. Lakin bu potensialın böyük hissəsi yuxarıda adıçəkilən rayonların Ermənistanla sərhəd zonalarına düşür ki, burada da küləyin orta illik sürəti 10 m/s-ə çatır. Bu cür böyük potensiala baxmayaraq, hələ ki, ərazidə əlverişli infrastrukturun olmaması və eyni zamanda sərhədinin delimitasiyası və demarkasiyası işlərinin aparılması səbəbindən bu sahələrdə külək enerjisindən elektrik enerjisinin hasil edilməsi məsələsi gələcəkdə bu ərazilərdə yenidən hərtərəfli araşdırma və geniş tədqiqat işlərinin aparılmasını tələb edir.

Həmçinin ölkəmizin ümumi yerli su ehtiyatlarının 25%-nin, yəni ildə təqribən 2 mlrd. 560 mln. $m^3$ su ehtiyatlarının Qarabağ və Şərqi Zəngəzur bölgələrində formalaşdığını nəzərə almaqla, Tərtər, Bazarçay, Həkəri kimi böyük hidroenerji potensialına malik əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı məqsədi ilə kiçik su elektrik stansiyalarının yaradılmasının mümkünlüyü müəyyən edilmişdir. Mövcud su elektrik stansiyaları isə əsasən Tərtər, Laçın və Kəlbəcər rayonlarının ərazisində yerləşir. Artıq bəzi kiçik su elektrik stansiyalarında təmir-bərpa işlərinə də başlanılmışdır.

Qarabağ və Şərqi Zəngəzur ərazisində üç iri su elektrik stansiyası mövcud olmuşdur ki, bu stansiyalardan biri "Tərtər" SES 1976-cı ildə Tərtər rayonu ərazisində, Tərtərçayın üzərində Sərsəng su anbarı ilə birgə inşa edilmişdir. Stansiya hər birinin gücü 25 MVt olan 2 hidroaqreqatdan ibarət idi. Bəndinin hündürlüyünə görə *(125 m)* Sərsəng ölkədə ən hündür bəndli su anbarlarından biridir. Sərsəng su anbarı 6

rayonunun *(Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi)* 125 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. 1990-cı ildə stansiyanın il ərzində istehsal etdiyi elektrik enerjisi 81.9 mln. kVt.s olmuşdur.

Regiondakı digər mühüm enerji obyektləri "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarıdır. Təəssüflər olsun ki, Cəbrayıl rayonunun Xudafərin kəndindən 1 km şimal-qərbdə yerləşən "Xudafərin" Su Elektrik Stansiyasının layihəsi üzrə tikintisi nəzərdə tutulan ərazi 1992-ci ildən Cəbrayıl rayonunun işğalı nəticəsində Ermənistanın nəzarəti altına düşmüş və stansiyanın Azərbaycan tərəfdən tikintisi dayandırılmışdır. Lakin stansiyanın İran tərəfdən tikintisi davam etdirilmişdir. Qeyd etmək lazımdır ki, stansiyanın Azərbaycan tərəfində hər birinin gücü 50 MVt-a bərabər olan 2 hidroaqreqatdan ibarət olması planlaşdırılır. Araz çayı üzərində tikintisi nəzərdə tutulmuş "Qız Qalası" Su Elektrik Stansiyasının isə hər biri 20 MVt olan 2 hidroaqreqatdan ibarət olacağı planlaşdırılır. "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisi və istifadəsi iki ölkə arasında 2016-cı ildə imzalanmış sazişlə tənzimlənir.

Ümumilikdə isə postmünaqişə dövründə azad edilmiş ərazilərin yenidən bərpası, zəruri infrastruktur sahələrinin yaradılması, ev və fermer təsərrüfatlarının, məişət obyektlərinin, sənaye müəssisələrinin, yaşayış məntəqələrindəki kommunal təsərrüfatların elektrik enerjisinə olan tələbatının ödənilməsi və beləliklə daimi məskunlaşma prosesinin sürətləndirilməsi üçün ilk növbədə kiçik və mini su elektrik stansiyalarından istifadəyə əsaslanan lokal elektrik şəbəkələrinin yaradılması olduqca böyük əhəmiyyət kəsb edir. Əlbəttə ki, gələcəkdə bu kimi yerli ərazi elektrik şəbəkələri sonda ümumölkə üzrə vahid energetika sisteminə qoşulacaqdır.

Həmçinin gələcəkdə regionun bioenerji və geotermal enerji mənbələri kimi alternativ və bərpaolunan enerji mənbələrindən elektrik və istilik enerjisi istehsalı da mümkündür. Belə ki, Kəlbəcər rayonu ərazisində 3 093 $m^3$/gün, Şuşada isə 412 $m^3$/gün termal su ehtiyatları mövcuddur.

Eyni zamanda, bu ərazilərdə yaranan və regionun ekoloji vəziyyətinə ciddi mənfi təsirlər törədə biləcək istehsalat və məişət tullantılarının səmərəli idarə edilməsi məqsədilə yığılma, daşınma və zərərsizləşdirilmə kimi xidmətlərin yaradılması nəzərdə tutulur. Bu isə əlavə xammal bazarının və təkrar emalın formalaşdırılmasına, tullantıların ətraf mühitə mənfi təsirlərinin minimuma endirilməsinə, beləliklə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət etməklə yanaşı kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması üçün beynəlxalq təcrübədən yararlanmaqla və müasir texnologiyalardan istifadə etməklə elektrik enerjisinin əldə edilməsinə öz müsbət təsirini göstərəcəkdir.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikası Energetika Nazirliyi alternativ və bərpaolunan enerji mənbələrinin dəqiq potensialının hesablanması sahəsində görüləcək işləri özündə ehtiva edən Tədbirlər Planının hazırlanması, bu sahə üzrə aidiyyəti qurumlarla əməkdaşlıq, həmçinin günəş və külək enerjisi potensialının yüksək olduğu ərazilərdə ölçü-müşahidə stansiyalarının quraşdırılması kimi işlərə başlamışdır.

Xüsusilə xarici investorların azad olunmuş ərazilərin bərpası və yenidənqurulması prosesinə cəlb olunması, mövcud potensiallardan səmərəli istifadə və birgə fəaliyyət istiqaməti üzrə mütəmadi tədbirlər görülməkdədir. Belə ki, bu kimi xarici investorlardan biri də Azərbaycanın neft və qaz sahəsində uzunmüddətli strateji tərəfdaşı olan Böyük Britaniyanın BP *(British Petroleum)* şirkətidir. Şirkət ölkəmizdə ənənəvi enerji mənbələrinin istismarı ilə yanaşı alternativ

və bərpaolunan enerji layihələrinin həyata keçirilməsində də maraqlıdır. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə “yaşıl enerji” sahəsi üzrə birgə əməkdaşlığa xüsusi önəm verir. Bu məqsədlə BP şirkət ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi arasında Cəbrayıl rayonu əraizisində ümumi gücü 240 MVt-a malik günəş elektrik stansiyasının tikinti layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsi imzalanmışdır.

Yeni strateji dövrdə qarşımızda duran məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında 02 fevral 2021-ci il tarixli, 2469 nömrəli Sərəncam imzalamışdır. Milli Prioritetlər növbəti 10 il ərzində ölkə qarşısında həlli vacib olan əsas sosial-iqtisadi istiqamətləri özündə əks etdirir.

Sərəncama əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Sərəncamın 5-ci bəndinə əsasən, ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. İstilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması məqsədilə qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq eko-

loji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə təşviq edilməlidir. Bu prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır:

- yüksək keyfiyyətli ekoloji mühit;
- yaşıl enerji məkanı.

Ölkədə yüksək keyfiyyətli ekoloji mühitin yaradılmasında ilkin şərt mövcud resurslardan səmərəli istifadə edilməsi, eyni zamanda iqtisadi və demoqrafik artım səbəbi ilə ətraf mühitə yönəlik risklərin önlənməsidir. Bu məqsədlə yaşıllıqların payı artırılmalı, yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə mövcud resurslar bərpa edilməlidir.

Yaşıl enerji məkanın yaradılması isə bir növ zərurətdən yaranır. Belə ki, müasir dövrdə dünyada iqtisadi və demoqrafiq artım mövcud enerji mənbələrindən səmərəli istifadə edilməsi ilə yanaşı dayanıqlı enerji kimi alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə üstünlük verilməsini tələb edir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri çərçivəsində yaxın gələcəkdə quruculuq konsepsiyası əsasında regionda reallaşdırılması planlaşdırılan bir sıra önəmli layihələrin əsası qoyuldu. Onlardan biri də məhz azad edilmiş ərazilərin ekoloji cəhətdən daha təmiz vasitələr və müasir dövrün tələblərinə cavab verə biləcək yüksək texnologiyalar əsasında yenidən bərpa olunmasıdır. Bu məqsədlə ölkə başçısı azad edilmiş ərazilərdə "Ağıllı kənd", "Ağıllı qəsəbə" və "Yaşıl zona" kimi layihələrin tətbiq edilməsi məqsədilə 19 aprel 2021-ci ildə "Ağıllı şəhər" *(Smart City)* və "Ağıllı kənd" *(Smart Village)* konsepsiyasının hazırlanması haqqında Sərəncam imzalanmışdır.

Beləliklə, bölgədə kommunal xidmətlər şəbəkəsinin yaradılması üçün elektrik enerjisi, təbii qaz, su və istilik təchi-

zatı istiqamətləri üzrə istehlakçıların mövcud tələblərini keyfiyyətli və səmərəli şəkildə qarşılamaq məqsədilə bir sıra kompleks tədbirlərin reallaşdırılması planlaşdırılır.

Bu məqsədlə ən müasir texnologiyalar tətbiq etməklə, elektrik enerjisinə qənaət edən texniki avadanlıqlara, effektiv və keyfiyyətli yaşıl enerji olan alternativ və bərpaolunan enerji növlərinə əsaslanan enerji layihələrinin həyata keçirilməsinə başlanılmışdır.

Plana əsasən, müasir texnologiya və innovasiyaların tətbiqinə əsaslanan sosial-iqtisadi inkişafın təmin olunduğu ilk "Ağıllı kənd" layihəsi Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra ediləcəkdir. Məlumata görə, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Bunlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir. Layihəyə əsasən, iki yüz evdən ibarət inşa ediləcək kəndin enerjiyə olan tələbatı məhz alternativ və bərpaolunan enerji mənbələri hesabına təmin ediləcəkdir.

Sonrakı mərhələdə də regionda sosial infrastruktur və xidmətlərin təşkilinə, dairəvi iqtisadiyyata əsaslanan "ağıllı" biznes modellərinin yaradılması və innovativ idarəetmənin reallaşdırılmasına söykənən "yaşıl enerji zonası" və "ağıllı" konsepsiyalarının bölgənin digər ərazilərində tətbiqi nəzərdə tutulur.

Bu kimi layihələrin icrasında əsas məqsəd regionda münbit şəraitin yaradılması ilə əhalinin gündəlik həyat şəraitinin yaxşılaşdırılması, yarana biləcək problemlərin həllinin asanlaşdırılması, məşğulluğun təmin edilməsi, insanların öz yaşadığı ərazidə yüksək qazanc əldə etməsi ilə gəlir səviyyəsinin artırılması, istehsal olunmuş kənd təsərrüfatı və sənaye məhsullarının ölkə və dünya bazarlarına rahat çıxışının təmin edilməsi, qısacası yüksək qazanc və rahat xidmətlərdən yararlanmaqla kənd və şəhər fərqinin azaldılma-

sıdır.

Xüsusilə regionda bütün yayayış evlərinin, sosial obyektlərin, kənd təsərrüfatı və sənaye məhsullarının emalı və istehsalı prosesinin alternativ və bərpaolunan enerji mənbələri hesabına təmin edilməsi bu layihələrin bir daha nə qədər önəmli, yüksək üstünlüklərə malik olduğunu göstərir. Belə ki, bu kimi mühüm layihələr ənənəvi enerjiyə nisbətdə günəş və külək enerjisi, su elektrik stansiyaları vasitəsi ilə enerjiyə olan tələbatın ödənilməsi, avtomobil yollarının "ağıllı" işıqlandırılması, bioqaz enerjisindən istifadə edilməklə əhalinin təbii qaza olan tələbatının ödənilməsi, geotermal enerji hesabına mənzil və obyektlərin istiliyinin təmin edilməsi kimi müasir yanaşmaları özündə cəmləşdirir.

İstehsal olunmuş elektrik enerjisinin güzəştli şərtlərlə, xüsusi enerji istehlakı normaları çərçivəsində satışı da *(təhcizatı)* bölgənin yenidən tez bir zamanda bərpasına imkan yaradacaqdır. Xüsusilə respublikada regionlar üzrə elektrik enerjisi istehlakının əhali və digər istifadəçilər *(istehsal, ticarət və xidmət müəssisləri)* arasında 60/40 nisbətinə olan bölgünü nəzərə alsaq bu tətbiq azad edilmiş ərazilərə kütləvi qayıdış və daimi məskünlaşmaya da xüsusi stimul verəcəkdir.

Beləliklə, bu ərazilərdə ekoloji təmiz vasitələrdən istifadə edilməsi regionun ümumi ekoloji mühitinə öz müsbət təsirini göstərəcəkdir. Eyni zamanda, Prezident İlham Əliyevin tapşırığı ilə bu layihələrin icrası işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış proqramının sürətlənməsinə də öz töhfəsini verəcəkdir.

*"Elm və həyat" elmi-populyar jurnalı, 2021, № 2 (472)*

# QLOBAL İQLİM DƏYİŞİKLİYİNDƏ ALTERNATİV VƏ BƏRPAOLUNAN ENERJİ MƏNBƏLƏRİNİN ƏHƏMİYYƏTİ

15 MAY BEYNƏLXALQ İQLİM GÜNÜDÜR

Enerji mənbələrinin istismarı qədim və zəngin tarixə malikdir. Belə ki, bəşər tarixinin ilkin inkişaf dövrlərində insanlar təbiətdəki mövcud enerji mənbələrindən yalnız gündəlik tələbatlarının ödənilməsi üçün istifadə edirdilərsə, sivilizasiyanın və mədəniyyətin inkişafı, dünya əhalisinin təbii artımı, həmçinin qlobal iqtisadi aktivlik enerji mənbələrinə olan tələbatın da artmasına səbəb oldu. Beləliklə, bu sahədə tətbiq edilən sadə enerji mexanizmləri təkmilləşərək, daha mükəmməl və müasir mexanizmlərlə əvəz olunmağa başladı. Bunun real nəticəsidir ki, bu gün müasir dövrümüzü enerjisiz təsəvvür etmək qeyri-mümkündür. Belə ki, hazırda enerjidən istifadə, praktiki olaraq bütün fəaliyyət sahələrimizi, çevrəmizi əhatə etmişdir.

Lakin enerji tələbatının ödənilməsi məqsədilə mövcud ənənəvi enerji mənbələrinin cəmiyyətin iqtisadi və sosial rifahının inkişafına göstərdiyi müsbət təsirləri ilə yanaşı, ətraf mühitə vurduğu ciddi mənfi təsirləri də danılmazdır. Eyni zamanda, ənənəvi enerji mənbələrinin məhdudluğunu da nəzərə alsaq, bu enerji mənbələrini heç də etibarlı enerji növü kimi hesab edə bilmərik.

Belə ki, statistik məlumatlara əsasən, hələ 1910-cu ildə dünya yanacaq-enerji balansında daş kömürdən istifadə 65%, biokütlədən istifadə 32% idisə, neftin ümumi balansda payı cəmi 3% təşkil edirdi. Təbii qaz isə demək olar ki, yox səviyyəsində idi. Lakin 1930-cu ildən sonra bu vəziyyət bir qədər dəyişdi. Belə ki, ümumi balansda daş kömürün payı 55%-ə, biokütlənin payı isə 27%-ə endiyi halda, neftin payı 15%-ə, təbii qazın payı isə 3%-ə qədər yüksəldi.

Ancaq 1970-ci ildən başlayaraq neft tədricən daş kömür və biokütləni əvəzləyərək insanların istifadə etdiyi əsas enerji mənbəyinə çevrildi. Belə ki, həmin dövr üçün neftin energetik balansa olan qatqısı öz tarixi maksimumuna – təxminən 47%-ə yüksəldi və beləliklə, daş kömürün nisbi payı 25%-ə, biokütlənin nisbi payı isə 12%-ə qədər azaldı. Balansın yerdə qalan *(təxminən 16%)* hissəsi isə tədricən geniş istifadə olunmağa başlayan təbii qazın və yeni enerji mənbəyi kimi nüvə enerjisinin hesabına təmin edilməyə başladı.

Yalnız bir faktı da nəzərə almaq kifayətdir ki, təkcə XX əsrin əvvəllərindən 1980-ci illərə qədərki dövr ərzində hasil edilən təbii yanacağın miqdarı, bəşəriyyətin bütün tarixi dövr ərzində istehsal etdiyi təbii yanacağın həcmindən yüksək olmuşdur. Xüsusilə, 1960–1980-ci illər ərzində hasil edilən təbii yanacaq, əsrin əvvəlindən hasil edilən kömürün 40%-ni, neftin 75%-ni, təbii qazın isə 80%-ni təşkil etmişdir.

Beləliklə, ənənəvi enerji mənbələri olan karbohidrogen ehtiyatlarının tükənən olduğunu nəzərə alsaq, bu hal enerji təhlükəsizliyinin təmin olunması baxımından da olduqca risklidir.

Digər tərəfdən karbohidrogen ehtiyatlarından plastik məmulatların, sintetik parçaların, yağların, karbon lifi və digər sənaye məhsullarının istehsalında birbaşa və ya dolayı şəkildə xammal kimi istifadə olunması da qlobal enerji defisitliyinə səbəb olur.

Lakin təəsüflər olsun ki, enerjiyə olan tələbatın ödənilməsi məqsədilə ənənəvi enerji mənbələrindən istifadə ətraf mühitlə yanaşı, eyni zamanda atmosferin də çirklənməsinə səbəb olur. Atmosferin çirklənməsi dedikdə isə bura ümumi qaz balansını poza biləcək müxtəlif fikizi, kimyəvi maddə və birləşmələrin atılması başa düşülür. Bu isə ətraf təbii

və texnogen mühitə son dərəcə mənfi təsir göstərir. Bura karbon dioksid *($CO_2$)*, karbon oksid *(CO)*, metan *($CH_4$)*, həmçinin təbiətdə turşu yağışlarının yağmasına səbəb olan kükürd dioksid *($SO_2$)* ilə azot dioksid *($NO_2$)*, eləcə də toz–his və s. bu kimi zərərli maddələr daxildir. Bunların içərisində isə karbon dioksid *($CO_2$)* xüsusi üstünlük təşkil edir. Belə ki, hesablamalara görə, faydalı qazıntı şəklində çıxarılan enerjidaşıyıcılarının yanmasından hər il atmosferə on milyonlarla ton karbon qazı *($CO_2$)* atılır. Nəticədə, atmosferdə "istixana effekti" yaranır ki, bu da ekologiyaya, canlı mühitin məhvinə yönələn və böyük fəlakətlərə yol açan mümkün iqlim dəyişikliklərinə – qlobal istiləşməyə gətirib çıxarır.

Statistik göstəricilərə əsasən, 1965-ci ildə dünya üzrə atmosferə atılan karbon qazı *($CO_2$)* emissiyasının ümumi çəkisi 11 189,7 mln.t idisə, 30 il sonra – 1995-ci ildə bu göstərici təqribən 2 dəfə artaraq, 21 995,1 mln.t-a, 2020-ci ildə isə 3 dəfə artaraq, 31 983,6 mln.t-a yüksəlmişdir.

Atmosferə atılan karbon qazı *($CO_2$)* emissiyasının həcminə görə əsas hissə məhz dünya əhalisinin təqribən 50%-ni təşkil edən sənaye ölkələrinin payına düşür. Bu ölkələr sırasında Çin 9 893,5 mln.t *(ümumi çəkidə payı – 30,9%)* göstərici ilə ilk yeri tutur. Sonrakı yerləri isə 4 432,2 mln.t göstərici ilə ABŞ *(ümumi çəkidə payı – 13,9%)*, 2 298,2 mln.t göstərici ilə Hindistan *(ümumi çəkidə payı – 7,2%)*, 1 431,6 mln.t göstərici ilə Rusiya *(ümumi çəkidə payı – 4,5%)* və 1 026,8 mln.t göstərici ilə Yaponiya *(ümumi çəkidə payı – 3,2%)* bölüşür.

Ümumilikdə isə dünya üzrə atmosferə atılan Karbon qazı *($CO_2$)* emissiyasının bölgüsünə görə, Şərqi Asiya *(Avstraliya daxil olmaqla)* ölkələrinin payı ümumi həcmin yarıdan çoxunu – 52,4%-ni təşkil edir. Həmçinin Şimali Amerika ölkələri – 16,6%, Avropa ölkələri – 11,2%, Orta

Şərq ölkələri – 6,3%, Qərbi və Mərkəzi Asiya ölkələri *(MDB ölkələri daxil)* – 6,2%, Afrika ölkələri – 3,7% və Cənubi və Mərkəzi Amerika ölkələri isə 3,6% təşkil edir.

Daş kömürün açıq üsul ilə çıxarılması və torfun işlənməsi isə landşaftların dəyişilməsinə, hətta onun dağılması hallarına, həmçinin neftin çıxarılması və daşınmasında yarana biləcək hər hansı qəza zamanı neft və neft məhsullarının geniş ərazilərə yayılması ekoloji mühitin çirklənməsinə və beləliklə, ətrafda yaşayan mövcud canlıların məhvinə səbəb olur.

Neft-qaz sənayesi obyektlərinin torpaq ehtiyatlarına təsir edən əsas neqativ nəticələri isə aşağıdakılardan ibarətdir:

- ətraf mühitin çirklənməsi nəticəsində torpaqların şərti sıradan çıxması;
- kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının azalması;
- canlı heyvan və bitki aləminin məhvi;
- əhalinin sağlamlıq vəziyyətinin pisləşməsi.

Beləliklə, qlobal dünyada baş verən bütün bu kimi mənfi hallar dünya ölkələrinin və onların təmsil olunduğu beynəlxalq təşkilatların bu sahəyə mütləq və təxirəsalınmaz müdaxiləsini zəruri etdi. Belə ki, insan sağlamlığını təhdid edən bu cür ekoloji problemlərin aradan qaldırılması, eyni zamanda alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin zəruriliyi ilk dəfə olaraq, 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının *(BMT)* Ətraf Mühit Proqramı *(UNEP)* çərçivəsində beynəlxalq səviyyədə qeyd edildi. Xüsusilə, 1985-ci ildə Antarktida bölgəsində – atmosferdə Ozon təbəqəsinin dəlinməsi hadisəsi iqlim dəyişikliyi ilə mübarizəni daha da aktuallaşdırdı. Belə ki, 1985-ci ildə Ozon təbəqəsini məhv edən maddələrin azaldılmasına dair "Ozon qatının mühafizəsi haqqında Vyana Konvensiyası"

qəbul edildi. Konvensiyadan sonra 1987-ci ilin sentyabr ayında Ozon təbəqəsi üçün zərərli olan maddələrin emissiyalarının azaldılması öhdəliklərini nəzərdə tutan "Ozon qatını məhv edən maddələr üzrə Montreal Protokolu" qəbul edildi.

Daha sonra 1992-ci ildə Brazilyanın Rio-de-Jeneyro şəhərində BMT-nin "Ətraf mühit və inkişaf" mövzusunda keçirilən konfransında "İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyası" *(UNFCCC)* qəbul edildi. Konvensiyaya əsasən, tərəflər 10 il müddətində Karbon qazı *($CO_2$)* emissiyalarını azaldaraq, 1990-cı il səviyyəsinə uyğunlaşdırmağı qərara aldılar.

1997-ci ilin dekabr ayında isə Yaponiyanın Kioto şəhərində dünyanın 159 ölkəsindən *(Azərbaycan da daxil olmaqla)* 2 000 nümayəndənin qatıldığı müşavirədə tərəflərin iştirakı ilə "Kioto Protokolu" tərtib olundu. Protokolun ikinci maddəsi məhz Karbon qazı *($CO_2$)* emissiyalarının azaldılması üçün alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin təşviq edilməsini və ənənəvi enerjinin inkişafı üçün tətbiq edilən subsidiyaların yenidən nəzərdən keçirilməsinin zəruriliyini ehtiva edir. "Kioto Protokolu" çərçivəsində "20-20-20" direktivi də tərtib olundu. Direktivin tələblərinə əsasən, 2020-ci ilə qədər Avropa İttifaqı ölkələrində alternativ və bərpaolunan enerji mənbələrindən istifadə etməklə, enerji istehlakının payının 20%-ə çatdırılması, enerji səmərəliliyinin 20% artırılması və istixana qazlarının emissiyasının 1990-cı il səviyyəsindən 20% azaldılması öhdəlikləri müəyyən olunmuşdur.

Həmçinin 2009-cu ildə keçirilmiş Kopenhagen İqlim Sammitində iştirak edən ölkələr tərəfindən də hədəf olaraq 2050-ci il üzrə ümumi enerjiyə olan tələbatın 100%-nin alternativ və bərpaolunan enerji mənbələri hesabına təmin

ediləcəyinin bəyan edilməsi bu sahənin inkişafına daha böyük inamlı təsir göstərmişdir.

Sonuncu razılıq isə 2015-ci il dekabrın 12-də imzalanmış Paris müqaviləsidir. Müqavilə 2016-ci il noyabrın 4-dən qüvvəyə minmişdir. Müqaviləyə əsasən, tərəflər ümumdünya üzrə orta temperaturun artımının 1,5°C ilə 2°C arasında məhdudlaşdırılmalı olduğuna dair razılığa gəlmişlər.

Eyni zamanda, razılığa əsasən 2020-ci ildən başlayaraq, sənaye baxımından güclü inkişaf etmiş dünya ölkələri qlobal iqlim dəyişikliyinin mənfi nəticələri ilə mübarizədə çətinlik çəkən iqtisadi cəhətdən nisbətən zəif olan ölkələrə dəstək məqsədi ilə hər il ümumilikdə 100 milyard ABŞ dolları həcmində vəsait ayırmalıdırlar. Əks təqdirdə proqnozlara əsasən 2050-ci ilədək olan dövr ərzində iqlim dəyişiklikləri səbəbi ilə insanların daimi yaşayış yerlərindən köçətmə prosesi intensiv hal alacaqdır. Belə ki, ekoloji problemlərin yaratdığı fəsadlar nəticəsində 200 milyona yaxın insanın öz doğma yurdlarından “Ekoloji qaçqın” statusu ilə digər yaşayış yerlərinə məcburi köç etməsi proqnozlaşdırılır.

Həmçinin Dünya Sağlamlıq Təşkilatının məlumatına əsasən dünyada baş verən iqlim dəyişikliyi səbəbindən təbii fəlakətlərin sayı 1960-cı ildən bəri təqribən üç dəfə artmışdır. Belə ki, hər il bu fəlakətlərin nəticəsində, əsasən inkişaf etməkdə olan ölkələrdə 60 000-dən çox insan həyatını itirməkdədir. Xüsusilə yaranmış yüksək temperatur səbəbindən yaxın gələcəkdə dünya əhalisinin təqribən 300 milyon nəfərinin ağciyər tənəffüs yollarının iltihabi-allergik xəstəliyi olan Bronxial astmaya tutulma riski artır.

Təşkilatın hesabatına əsasən təkcə 2003-cü ilin yayında qlobal istiləşmə nəticəsində Avropada 70 000-dən çox ölüm faktı qeydə alınmışdır.

Həmçinin təşkilatın proqnozlarına görə, bu cür davam edəcəyi təqdirdə iqlim dəyişikliklərinin 2030-2050-ci illər

ərzində təqribən 250 000 insanın ölümünə səbəb olacağı gözlənilir. Bura uşaqlıqdan az qidalanma səbəbi ilə 95 000, malyariya səbəbi ilə 60 000, bağırsaq pozğunluğu *(ishal)* səbəbi ilə 48 000 və yaşlı, eyni zamanda ürək-damar xəstəlikləri olan insanların istiliyə dözümsüzlüyü səbəbi ilə 38 000 ölüm halı daxildir.

Maliyyə xərclərinə gəldikdə isə sağlamlığa dəyən birbaşa zərərin 2030-cu ilədək 2-4 milyard ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır.

Eyni zamanda, buzlaqların əriməsi, eləcədə normadan artıq intensiv yağıntıların baş verməsi böyük daşqınların yaranmasına səbəb olur. Nəticədə bu daşqınlar şirin su hövzələrini çirkləndirir və beləliklə, xeyli xəstəlikdaşıyıcı həşəratlar yaranır ki, bu da əhali arasında qorxunc infeksion xəstəliklərin yayılma riskini artırmış olur. Digər tərəfdən baş verən daşqınlar əsasən kənd təsərrüfatı sisteminə də ciddi ziyanlar vurur. Bu isə məhsul istehsalına mənfi təsir göstərir, xüsusilə dünyada yoxsul əhalinin yaşadığı bölgələrdə ərzaq çatışmazlığı hallarına gətirib çıxarır.

Bununla yanaşı, qlobal iqlim dəyişikliyi səbəbindən dünyanın bəzi bölgələrində quraqlıq, su çatışmazlığı halları baş verir ki, bu da özlüyündə kütləvi aclıq hallarının yaranmasına səbəb olur. Belə ki, Dünya Sağlamlıq Təşkilatının hesablamalarına görə, son 130 il ərzində dünyada temperatur təxminən 0,85$^{o}$C artmışdır.

Asiya İnkişaf Bankı *(AİB)* və Potsdam İqlim Araşdırmaları İnstitutu tərəfindən birgə işlənərək hazırlanmış “Risk altında olan Region: Asiya və Sakit okean regionu ölkələrində iqlim dəyişikliyinin insan faktorları” başlıqlı hesabatına əsasən, Asiya qitəsi üzrə əsrin sonunadək 6$^{o}$C temperatur artımı gözlənilir. Hətta region üzrə bəzi ölkələr daha isti iqlim şəraiti ilə üzləşə bilər. Belə ki, Tacikistan, Əfqanıstan, Pakistan və Çin Xalq Respublikasının şimal-

qərb hissəsində hətta 8°C-yə qədər temperatur artımı gözlənilir. Nəticədə qarşısı alınmayan iqlim dəyişiklikləri Asiya və Sakit okean regionu ölkələrinin iqlim sisteminə, kənd təsərrüfatı və balıqçılıq sektoruna, torpaq və dəniz mühitinə, bioloji qaynaqlara və digər bu kimi sahələrə dağıdıcı, mənfi təsir göstərməklə onların gələcək inkişafına maneələr yaratmış olacaqdır.

Hesabata əsasən, illik yağıntı miqdarının regionun əksər əraziləri üzrə 50%-dək artacağı halda, Pakistan və Əfqanıstan kimi ölkələrdə isə əksinə, yağıntı miqdarının 20-50%-dək azalacağı gözlənilir. Bundan əlavə, 2005-2050-ci illərdə illik daşqınlar nəticəsində ən çox itki ilə üzləşən 20 şəhərdən 13-ü məhz Asiya və Sakit okean regionu ölkələrinin payına düşəcəkdir.

Daşqınlar, quraqlıqlar və bu səbəbdən yarana biləcək müxtəlif xəstəliklərə qarşı artan həssaslıq regiona və bütün dünyaya iqtisadi cəhətdən ciddi maliyyə təsiri də göstərəcəkdir. Belə ki, qlobal daşqınlar nəticəsində dəyən ziyanın ümumi həcminin 2005-ci ildən 2050-ci ilədək olan müddət ərzində 6 milyard dollardan 52 milyard dolların artacağı gözlənilir.

Hesabatda o da qeyd edilir ki, dünyanın yoxsul təbəqəsinin 2/3 hissəsini təşkil edən və iqlim dəyişikliklərinə qarşı ən həssas regionlardan biri kimi Asiya və Sakit okean regionu ölkələri sürətli və ciddi şəkildə qabaqlayıcı tədbirlər həyata keçirməyəcəkləri təqdirdə, daha yoxsul səviyyəyə enmə və müxtəlif xəstəliklərlə üzləşmə riski yaşaya bilərlər.

Eyni zamanda, Dünya Bankının "İfrat yoxsulluğun sonu – Rifahın yüksəldilməsi *(End Extreme Poverty – Boost Shared Prosperity)*" adlı hesabatında da qeyd edilir ki, Şərqi Asiya və Sakit okean regionu qlobal iqlim dəyişikliklərinin tam mərkəzində yerləşir. Belə ki, qlobal istixana emis-

siyalarının təxminən 1/3 hissəsi məhz bu region ölkələrinin payına düşür. Nəticədə region ölkələri tez-tez daşqınlar, fırtınalar və dəniz səviyyəsinin yüksəlməsi kimi iqlim dəyişikliklərinin təsirlərindən yaranan fəlakətlərdən əziyyət çəkirlər.

Hesabata əsasən, bu məqsədlə son üç maliyyə ili ərzində Dünya Bankının regional cari kredit portfelinin 27%-i məhz iqlim dəyişikliyinə qarşı mübarizə tədbirləri çərçivəsində müxtəlif layihələr və ya proqramların maliyyələşməsinə yönəldilmişdir. Xüsusilə Çin Xalq Respublikası ətraf mühitin mühafizəsi çərçivəsində Dünya Bankının kredit portfelinin 70%-ni əhatə edən ən böyük iqlim dəyişikliyi üzrə investisiya proqramlarının sahibidir.

Məsələn, Çinin Enerji Səmərəliliyinin Maliyyələşdirilməsi Proqramı çərçivəsində Dünya Bankının ayırdığı 350 milyon dollar Çin bankları üçün stimul mənbəyi olmuş və nəticədə bu sahəyə yerli banklar hesabına alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə edilməsi üçün əlavə olaraq 2,6 milyard dollar həcmində kredit vəsaiti də cəlb olunmuşdur. Beləliklə, proqram çərçivəsində həyata keçirilmiş bu kimi tədbirlərin nəticəsində karbon qazı *($CO_2$)* emissiyalarının illik həcmində 10 mln.t azalma müşahidə edilmişdir. Bu isə daş kömürdən istifadəyə əsaslanan elektrik enerjisi istehsalı zamanı 3 GW-lıq gücə malik elektrik stansiyasından atmosferə atılan karbon qazının *($CO_2$)* həcminə bərabərdir.

Əlbətdə, Çin kimi nəhəng bir ölkədə ekoloji tarazlığın təmin olunması aktual bir problem olaraq qalmaqdadır. Belə ki, BMT-nin məlumatına görə, dünyanın 20 ən çirkli şəhərlərindən 16-sı məhz Çinin payına düşür. Lakin buna baxmayaraq, Çin hökuməti tərəfindən ölkənin ekoloji təhlükəsizliyinin təmin edilməsi məqsədilə irimiqyaslı proqramlar həyata keçirilir, müəssisələrin, icra strukturlarının

ətraf mühitin qorunması üçün maddi məsuliyyətinin artırılması ilə bağlı konkret mexanizmlər müəyyən edilir. Onu da qeyd etmək lazımdır ki, ölkənin bank sektoru da enerji tutumu yüksək, ətraf mühiti çirkləndirən layihələrə bir qayda olaraq, kredit ayırmaqdan imtina edir.

Çin hökümətinə görə, ətraf mühitin çirklənməsi problemi yalnız alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli şəkildə istifadə ilə enerji istehsalında artıma nail olunmaqla aradan qaldırıla bilər.

Çinin bərpaolunan enerji siyasəti isə beş əsas şərtə söykənir:

- enerji təhlükəsizliyinin təmin edilməsi;
- iqlim dəyişikliyinin önlənməsi;
- iqtisadi rəqabətə nail olunması;
- ətraf mühitin çirklənməsinin qarşısının alınması;
- yaşayış səviyyəsinin yüksəldilməsi.

Bu məqsədlə Çində "Bərpaolunan Enerji Qanunu" 2005-ci ildə qəbul edilmiş, 1 yanvar 2006-cı il tarixdən isə qüvvəyə minmişdir. Qanunda alternativ və bərpaolunan enerjinin ölkə üzrə ümumi enerjinin inkişafında prioritet bir sahə olduğu açıq şəkildə qeyd edilmişdir.

İqlim dəyişikliyinin qarşısının alınması və gələcək ekoiqtisadi layihələrin uğurla icra edilməsi məqsədilə müxtəlif iqtisadi tədbirlərdən *(kvotalar, standartlar, cəzalar və s.)* istifadə edilir. Belə ki, məhz bu tədbirlər vasitəsilə hər bir dövlət iqlim dəyişikliklərinə səbəb olan hallara ciddi nəzarəti həyata keçirmək imkanlarına malik olur. Bu tədbirlərdən ən başlıcası isə Karbon vergisinin tətbiqidir. Belə ki, Karbon vergisinin tətbiqi enerji siyasətinin icra edilməsində mühüm rol oynayaraq, atmosferin çirklənməsinin qarşısının alınması, eyni zamanda alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi baxımından da olduqca zəruridir.

Hesablamalara görə, təkcə son on il ərzində alternativ və bərpaolunan enerji mənbələrindən istifadə nəticəsində ümümulikdə təqribən 8 mlrd.t-na yaxın karbon qazı *($CO_2$)* emissiyasının atmosferə atılmasının qarşısı alınmışdır. Bunun əsas hissəsi – 6,1 mlrd.t-u külək enerjisi, 1,8 mlrd.t-u isə günəş enerjisi istehsalı hesabına əldə edilmişdir.

Digər tərəfdən, Karbon vergisinin tətbiqi ənənəvi enerji mənbələri hesabına istehsal edilən məhsul və ya xidmətlərin qiymətində də ciddi artımlara səbəb olur. Məsələn, bir ton karbon qazı *($CO_2$)* emissiyasına tətbiq edilən 40 ABŞ dolları məbləğində cərimə orta hesabla 1 qallon benzinin qiymətini 36 sent və ya 1 kVt.s elektrik enerjisinin qiymətini təxminən 2 sent artırmış olur. Bu isə ilk növbədə nəqliyyat xərclərinə, eyni zamanda sənaye və kənd təsərrüfatı kimi sahələrə mənfi təsirlər göstərir. Bu məqsədlə Karbon vergisinin tətbiqi, alternativ və bərpaolunan enerji mənbələrindən geniş istifadə edilməsinin zəruriliyi baxımından təşviqedici mexanizmin bir parçası kimi də qəbul edilə bilər.

Tarixə nəzər salqdıqda isə görərik ki, Karbon vergisinin təxminən 50 il bundan əvvəl İngiltərədə müzakirəyə çıxarılmasına baxmayaraq, dünyada ilk dəfə olaraq 1990-cı ildə Skandinaviya ölkəsi olan Finlandiyada, daha sonra isə 1991-ci ildə digər qonşu ölkələr olan İsveç və Norveçdə tətbiq edilmişdir. Növbəti dövrlərdə isə Hollandiya və Danimarkada da Karbon vergisi tətbiq olunmağa başlanılmışdır. Beləliklə, uzunmüddətli, davamlı şəkildə Karbon vergisinin tətbiq olunduğu bu beş Avropa ölkəsində ümumilikdə Karbon vergisindən əldə olunan orta illik gəlir təqribən 202 milyard avro təşkil etmişdir. Ən yüksək gəlir isə Hollandiyaya məxsusdur. Lakin Karbon vergisindən əldə edilən gəlirlərin Ümumi Daxili Məhsulda *(ÜMD)* payına görə, Hollandiyada orta hesabla 1,9% olduğu halda, Finlandiyada bu göstərici 2,1% *(ümumi vergi gəlirlərində təqribən 4,5%)*,

Danimarka və İsveçdə isə 2,5% *(ümumi vergi gəlirlərində təqribən 5%)* təşkil etmişdir.

Onu da qeyd edək ki, Karbon vergisinin tətbiqinə başlanıldığı ilk dövrlərdə iqtisadçılar tərəfindən bu vergi növünün ölkə iqtisadiyyatının inkişafına mənfi təsirlərinin olacağı da iddia edilirdi. Lakin iddialara rəğmən İsveçin timsalında bunun əksi müşahidə olundu. Belə ki, Karbon vergisinin tətbiq edildiyi digər ölkələrlə müqayisədə İsveçdə ən yüksək vergi miqdarının olmasına rəğmən Karbon vergisinin tətbiqinə başlanıldığı dövrdən bəri ölkə iqtisadiyyatı 100%-dən artıq böyümüş və rəqabət qabiliyyətliliyinə görə dünyada dördüncü sırada yer almışdır.

Həmçinin hesablamalara görə, Norveçdə Karbon vergisinin tətbiq edildiyi ildən *(1991)* bəri atmosferdə Karbon qazı *($CO_2$)* emissiyalarının ümumi həcmində 1,5% nisbətində azalma müşahidə edilmişdir.

Onu da nəzərə almaq lazımdır ki, Karbon vergisinin tətbiqi atmosferdə zərərli maddələrin səviyyəsinin aşağı salınması məqsədi daşısa da, digər tərəfdən büdcə gəlirlərinin də xeyli artımına səbəb olur. Əldə edilmiş bu gəlirlər isə dövlət tərəfindən gələcəkdə birbaşa və ya dolayı yolla sosial-iqtisadi layihələrin maliyyələşdirilməsinə yönəldilir.

Dünya ölkələri üzrə Karbon vergisinin miqdarı və onlardan istifadə isə müxtəlifdir. Belə ki, 1 ton Karbon emissiyası, midarına görə ən yüksək vergi göstəricisi İsveçdə 132 dollar, İsveçrədə 87 dollar, Finlandiyada 83 dollar, Norveçdə 59 dollar, İrlandiyada 26 dollar və s. olaraq qiymətləndirilmişdir.

Karbon vergisindən əldə olunan gəlirlərin ölkələr üzrə tətbiq sahəsi də fərqlidir. Belə ki, Finlandiya hökuməti bu vəsaiti gəlir vergisinin, pensiya və sosial sığorta xərclərinin azaldılmasına, Çili hökuməti təhsil və səhiyyə xərclərinə,

İrlandiya höküməti isə büdcə kəsirinin azaldılması və borc ödənişlərinə sərf edir.

Lakin Hindistan, Yaponiya və Cənubi Afrika kimi ölkələr isə iqlim dəyişikliklərini önləmək məqsədilə Karbon vergisindən əldə edilən gəlirləri bilavasitə ekoloji mühitin qorunması və təmiz enerji mənbələri olaraq qəbul edilən alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin inkişafına yönəldirlər.

Beləliklə, ənənəvi enerji mənbələrinin məhdudluğunu və eyni zamanda ətraf mühitə qarşı zərərli təsirlərini nəzərə alsaq, mövcud problemlərin həlli yalnız iki yol ilə mümkün ola bilər:

- mövcud ənənəvi enerji mənbələrindən qənaətli və səmərəli şəkildə istifadə etməklə enerji sərfiyatının aşağı salınması;

- ənənəvi enerji mənbələrindən asılılığın minimuma endirilməsi və hətta gələcəkdə bu asılılığın tamamilə aradan qaldırılması.

Bu isə milli enerji təhlükəsizliyinin təminatı baxımından daha etibarlı və daha təmiz enerji mənbəyi kimi altenativ və bərpaolunan enerji mənbələrindən geniş və səmərəli şəkildə istifadə ilə mümkündür. Yalnız onu da nəzərə almaq lazımdır ki, hazırda bu enerji mənbələrindən əldə edilmiş enerji kifayət qədər yüksək deyil və bu da mövcud ənənəvi enerji mənbələrindən tam şəkildə imtina edilməsinə imkan vermir.

Bu səbəbdən alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin inkişafına nail olunması üçün xüsusi əhəmiyyətə malik stimullaşdırıcı tədbir kimi vergi siyasətinin tətbiqi olduqca zəruridir. Belə ki, bu tədbirlər alternativ və bərpaolunan enerji istehsalında müasir avadanlıq və yeni texnologiyaların tətbiqinə, investisiyaların cəlb edilməsinin

intensivləşdirilməsinə, ən başlıcası isə ölkənin keyfiyyətli və davamlı enerji ilə təminatına şərait yaratmış olacaqdır.

Xüsusilə, yaxın gələcəkdə ölkəmizin də tərəfdar çıxdığı beynəlxalq öhdəliklərə uyğun olaraq, respublikamızda da Karbon vergisinin tətbiqi və əldə olunan gəlirlərin bilavasitə alternativ və bərpaolunan enerji istehsalının inkişafına yönləndirilməsi müsbət addım ola bilər. Belə ki, ənənəvi enerji mənbələrinin tükənən olduğunu və ətraf mühitə vurduğu ziyanı da nəzərə alsaq, ölkəmizdə bu vergi növünün tətbiqi mövcud ənənəvi enerji mənbələrindən səmərəli şəkildə istifadə olunmaqla yanaşı, ekoloji mühitin qorunması baxımından da faydalı olacaqdır.

*"Elm və həyat" elmi-populyar jurnalı, 2022, № 2 (476)*

# ERMƏNİ VANDALİZMİ

# ERMƏNİ VANDALİZMİ: TARİXİ-MƏDƏNİ İRSİMİZƏ QƏSD

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan qədim yurd yerimiz Qarabağ əsassız ərazi iddiaları ilə çıxış edən Ermənistan tərəfindən otuz ilə yaxındır ki, işğal altındadır. Bu işğal nəticəsində iyirmi mindən artıq vətəndaşımız qətlə yetirilmiş, bir milyondan artıq vətəndaşımız isə öz doğma yurd-yuvalarından didərgin salınmışdır. Dörd mindən artıq insan isə itkin düşmüşdür.

Birləşmiş Millətlər Təşkilatının *(BMT)* Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını qınayan və bu münaqişənin ədalətli həlli ilə bağlı 1993-cü ilin 30 aprel, 29 iyul, 14 oktyabr və 11 noyabr tarixli 822, 853, 874 və 884 saylı mühüm qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq sərhədlərinin toxunulmazlığını təsdiqləmiş, erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Həmçinin qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə, regionda sülh və əminamanlıq şəraitində qarşılıqlı əlaqələrin bərpasına çağırmışdır.

Eyni zamanda, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Birliyi, NATO və digər nüfuzlu beynəlxalq təşkilatlar da öz ədalətli mövqelərini sərgiləyərək, mövcud münaqişə ilə bağlı beynəlxalq hüquq prinsiplərinə əsaslanan çoxsaylı qətnamələr qəbul etmişlər.

Lakin təəssüflər olsun ki, işğalçı tərəf – Ermənistan bu kimi nüfuzlu, beynəlxalq təşkilatların məlum tələblərinə etinasız və saymazyana yanaşaraq, Azərbaycanın tarixi torpaqlarını hələ də işğal altında saxlamaqda davam edir.

Münaqişə zamanı zəngin keçmişimizdən, ulu əcdadlarımızdan bizə miras qalan tarixi-mədəni, memarlıq abidələrimiz və müqəddəs dini inanc yerlərimiz – məscidlər, türbələr, qəbiristanlıqlar, dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarası, Tağlar mağarası və digər bu kimi nadir maddi-mənəvi mədəniyyət nümunələri erməni vandalizminin qurbanına çevrilmişdir. Bu isə təkcə xalqımızın deyil, ümumilikdə bəşəriyyətin mənəvi irsinə qarşı törədilmiş qəsd, dünya mədəni sivilizasiyasına vurulan ağır zərbələr kimi beynəlxalq Haaqa Konvensiyasının, həmçinin YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" konvensiyasının tələblərinin kobud şəkildə pozulmasıdır.

Beləliklə, beynəlxalq hüquq normalarını tapdalayan Ermənistan otuz ilə yaxındır ki, zəngin tarixi-mədəni irsimizə məxsus memarlıq və arxeoloji abidələrimizi işğal altında saxlamaqla, onları kütləvi şəkildə məhv edir və ya "Böyük Ermənistan" tarixini yaratmaq xülyası ilə öz adlarına saxtalaşdırır. Xüsusilə dünyanın ən qədim insan məskənlərindən biri olan Azıx mağarasında son zamanlar aparılan qanunsuz arxeoloji qazıntılar qeyd olunan bu cür faktlara bariz nümunədir.

Təbii ki, müasir dövrdə törədilən bu kimi vandalizm aktları dünya ictimaiyyətinin də diqqət və nəzərindən yayına bilməzdi. Belə ki, isveçrəli jurnalist, "Wochenzeitung" və "Neues Deutschland" nəşrlərinin əməkdaşı Andre Vedmer işğal altındakı ərazilərdə tarixi abidə və qəbiristanlıqların acınacaqlı vəziyyətinin şahidi olaraq Şuşa və Ağdamdakı bir çox mədəniyyət abidələrinin məhv edildiyini və ya ciddi zərər gördüyünü təsdiqləmişdir.

Ağdamın xarabalıqlarını görən digər bir jurnalist – Qafqaz üzrə tanınmış mütəxəssis, britaniyalı Tomas de Vaal Ağdamda ermənilər tərəfindən törədilmiş dağıntıları

İkinci Dünya müharibəsində amerikalıların darmadağın etdikləri yapon şəhərləri Xirosima və Naqasaki ilə müqayisə edərək, Ağdamı "kiçik Xirosima" adlandırmışdı.

Amerika Birləşmiş Ştatlarında çıxan nüfuzlu "Times of İsrael" qəzetində dərc olunmuş və regionda baş verən hadisələrin real mənzərəsini əks etdirən məqalənin müəllifi İsrael Baruk isə məqsədli şəkildə tarixi-mədəniyyət abidələrimizə qarşı vandalizm aktlarını törədən Ermənistanı, "İraq-Şam İslam Dövləti" *(İŞİD)* terrorçu qruplaşması ilə müqayisə edərək yazır: "Ermənistan işğal edilmiş torpaqlarda azərbaycanlılara aid bütün izləri silməyə çalışaraq həmin rayonlarda bütün Azərbaycan toponimlərini, şəhərlərin və kəndlərin adlarını "erməniləşdirmək" siyasətini səylə tətbiq edir. İŞİD terrorçuları kimi, Ermənistan da tarixi faktları saxtalaşdırıb və ya məhv edərək yeni tarix yaratmağa çalışır. İŞİD tarixi yenidən yazmaq istədiyi kimi, erməni işğalçıları da bütün tarixi faktları təhrif etmək istəyirlər".

Ən acınacaqlı və ağrılı mənzərələrdən biri də budur ki, mənfur düşmən azərbaycanlıların zorla tərk etdiyi dədə-baba yurdlarında onlara məxsus bütün tarixi izləri silməklə yanaşı, xalqımızın, ümumilikdə isə bütün dünya müsəlmanlarının heysiyyatını heçə sayaraq məscidləri dağıdır, bəzilərini hətta donuz və mal-qara üçün saxlanc yeri kimi də istifadə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin sentyabrın 7-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvinin etimadnaməsini qəbul edərkən söylədiyi bu fikirlər də bir daha dünya ictimaiyyətinin xüsusilə İslam dünyasının bu ağrılı mövzuya obyektiv yanaşmasını tələb edir: ***"Bizim tarixi-dini abidələrimiz Ermənistan tərəfindən dağıdılıb. Dini abidələrimiz təhqir edilib. İşğal edilmiş ərazilərdə məscidlərimiz ermənilər tərəfin-***

***dən dağıdılıb və bəzi məscidlərdə hətta onlar heyvan saxlayırlar. Bu çirkin əməlləri əks etdirən bir çox video və foto sənədlər, sübutlar vardır. Onları internetdə tapmaq olar. Bu, təkcə bizə qarşı yox, bütün müsəlman dünyasına qarşı edilən cinayətdir”.***

Bir faktı da qeyd edək ki, tarixi-mədəni abidələrimizə qarşı törədilən bu kimi dünyada misli görünməmiş mənəvi soyqırımı, cinayəti təkcə işğal edilmiş ərazilərimizdə deyil, etnik təmizləmə siyasəti nəticəsində iki yüz əlli mindən artıq azərbaycanlının öz doğma dədə-baba yurd-yuvalarından didərgin salındığı, minlərlə insanımızın qətlə yetirildiyi digər tarixi torpaqlarımız olan İrəvan, Göyçə, Zəngəzur, Dərələyəz mahallarında da törədilmişdir. Bu ərazilərdə də xalqımıza məxsus maddi-mədəni irsə qarşı vandalcasına dağıdıcı münasibət sərgilənmiş, onları yer üzündən tamamilə silmək üçün məqsədli şəkildə çirkin siyasət həyata keçirilmişdir.

Rəsmi və tarixi məlumatlara əsasən xalqımıza məxsus bu ərazilərdə çoxlu sayda dini, mədəni, tarixi-memarlıq abidələri – məscidlər, məqbərələr, muzeylər, karvansaralar, qəbiristanlıqlar və s. mövcud olmuşdur. Təkcə XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində hər biri bir memarlıq əsəri olan üç yüz on məscid mövcud olmuşdur. Lakin hal-hazırda Ermənistan ərazisində azərbaycanlılara məxsus bu kimi tarixi-memarlıq abidələrindən yalnız ikisi saxlanılmışdır. Onlardan biri – İrəvan şəhərindəki Göy məsciddir ki, onu da mənfur düşmən təmir və rekonstruksiya adı altında dəyişdirərək “Fars məscidi”, digəri isə – İrəvan yaxınlığındakı Əmir Səəd məqbərəsidir ki, onu da dünyaya “Türkmən abidəsi” kimi tanıtmağa çalışır. Eyni zamanda, qədim İrəvan xanlığına məxsus İrəvan qalasındakı bütün tarixi abidələr, o cümlədən Xan sarayı və möhtəşəm

Sərdar məscidi də tamamilə dağıdılaraq, yer üzündən silinmişdir.

Erməni vandalları təkcə xalqımıza məxsus tarixi-etnik torpaqlardakı izləri silməklə kifayətlənməmiş, eyni zamanda qədim Azərbaycan-türk mənşəli toponimlərə qarşı da barbarcasına mənəvi soyqırımı cinayəti həyata keçirmişlər. Belə ki, istər indiki Ermənistan ərazisində, istərsə də işğal olunmuş ərazilərimizdə azərbaycanlıların yaşadıqları yüzlərlə yaşayış məntəqəsi, coğrafi ərazi adları kütləvi şəkildə dəyişdirilərək erməniləşdirilmişdir.

Lakin erməni yalanlarını, saxtakarlıqlarını ifşa edən, tarixin zülmət dərinliklərinə ədalət nurunu çiləyən xeyli sayda qiymətli, mühüm arxiv sənədləri mövcuddur. Bunlardan biri də 1903-cü ilə məxsus Cənubi Qafqazın coğrafi xəritəsidir ki, bu xəritədə xalqımıza məxsus qədim yurd yerlərimiz – şəhərlər, kəndlər, göllər, çaylar, dağlar, düzənliklər və digər ərazilər həqiqi coğrafi adları ilə qeyd olunmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, tarixi və coğrafi adlarının təhrif olunması istiqamətində təxribat xarakterli materialların, xəritə və atlasların kütləvi informasiya vasitələrində yayılması hallarının artması səbəbindən bu cür təxribatların qarşısını almaq və ölkəmiz haqqında düzgün məlumatları tarixi gerçəklikləri və erməni barbarlığını dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1903-cü ildə Rusiyada tərtib edilmiş "Карта Кавказского Военного Округа 1903-го года" xəritəsi əsasında Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən hazırlanmış "Cənubi Qafqaz. 1903-cü il" xəritəsinin nəşr olunması ilə bağlı 18 aprel 2012-ci il tarixli 2188 nömrəli Sərəncam imzalamışdır. Xəritə hər biri iyirmi beş min nüsxə olmaqla üç dildə - ingilis, rus, və Azərbaycan dillərində

nəşr olunaraq, ölkə və dünya ictimaiyyətinin geniş müzakirəsinə təqdim edilmişdir.

Qafqaz Hərbi Dairəsinin litoqrafiya və hərbi topoqrafiya şöbəsində tərtib olunmuş və ümumilikdə bütün Qafqazı əhatə edən məlum tarixi xəritə XX əsrin başlanğıcında nəşr edildiyindən, xalqımıza qarşı hər zaman əsassız ərazi iddiaları ilə çıxış edən ermənilər və onların havadarları üçün real əyani sübut olaraq mühüm tarixi əhəmiyyət daşıyır. Xəritədən də göründüyü kimi, indiki Ermənistan ərazisinin demək olar ki, bütün toponimləri Azərbaycan-türk mənşəli olmuşdur. Belə ki, tarixi mənbələrə əsasən XX əsrin əvvəllərində Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində 2310 coğrafi addan 2000-i sırf Azərbaycan-türk mənşəli toponimlər olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Tərtərdə Dövlət Rəmzləri Muzeyinin açılışında vurğuladığı kimi: ***“Bizim tarixi adlarımız burada gərək öz tarixi adları ilə əks olunsun. Sisyanın əsl adı Qarakilsədir. Sonradan ermənilər buna Sisyan adı veriblər. Ona görə bunu pozun və Qarakilsə yazın. …İndiki Ermənistan Respublikasının toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Onlar müxtəlif vaxtlarda bu toponimləri dəyişdiriblər”.***

Ölkə başçısının toponimlər mövzusunda bu qədər həssas mövqe sərgiləməsi hər bir azərbaycanlı üçün bu kimi mühüm taleyüklü mövzuya çox ciddi və məsuliyyətli yanaşmağı, daim diqqət mərkəzində saxlamağı tələb edir, önümüzdə yeni vəzifələr qoyur.

Tarixi mənbələrə əsasən 1828-ci ilə qədər Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində bütün toponimlər Azərbaycan-türk mənşəli olmuşdur. Lakin hər zaman ağır və böhranlı zamanlardan yararlanan mənfur düşmən öz havadarlarının da göstərdiyi hərtərəfli dəstək sayəsində müx-

təlif bəhanələrə əl ataraq yerli, aborigen əhali olan azərbaycanlıları sıxışdırır, öz doğma yurd-yuvalarından kütləvi şəkildə deportasiya edirdilər. Nəticədə isə azərbaycansızlaşdırılmış, boş qalmış ərazilərə erməni əhalisini xaricdən kütləvi şəkildə köçürürdülər. Belə ki, 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 000, Türkiyədən 84 000 erməni əhalisi köçürülmüşdür. 1893-1895-ci illərdə isə indiki Ermənistan ərazisinə köçürülən erməni əhalisinin ümumi sayı 900 000 nəfərdən çox olmuşdur.

Eyni zamanda SSRİ Nazirlər Şurasının 10 mart 1948-ci ildə təsdiq etdiyi 745 nömrəli qərarı ilə azərbaycanlıların Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ərazisinə köçürülməsi həyata keçirilmişdi. Bu qərara əsasən 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə isə 50 000 azərbaycanlı öz doğma dədə-baba yurdlarından deportasiya edilmişdi.

Beləliklə, bu cür çirkin siyasət sayəsində İrəvan quberniyasında etnomədəni köklərə sahib olmayan, gəlmə ermənilərin sayı yerli, aborigen xalq olan azərbaycanlıların sayını üstələdi. Yalnız bundan sonra düşmən öz məkrli siyasətinə rəsmi qərarlarla don geyindirməklə coğrafi toponimlərə qarşı kütləvi şəkildə mədəni soyqırım həyata keçirməyə başladı.

Xalqımıza məxsus coğrafi yer adlarına qarşı həyata keçirilən bu kimi cinayət əməlləri Sovet İmperiyası *(SSRİ)* dövründə də davam etdirilmişdir. Belə ki, sovet hakimiyyətinin yenicə qurulduğu dövrlərdə – 1924-1930 illər ərzində Ermənistanda 80 coğrafi yer adı dəyişdirilmişdir.

1935-ci ildə isə 29 rayonda 72 coğrafi toponim dəyişdirilməklə, 1930-1939-cu illər arası 100-ə, 1940-cı ildə isə 30-a yaxın yaşayış yerinin adı Ermənistan SSR qanunverici orqanının qərarları ilə dəyişdirilərək ermənniləşdirilmişdir. Toponimlərin dəyişdirilməsinə əsas səbəb kimi Ermənistan

SSRİ Ali Soveti Rəyasət Heyətinin 3 yanvar 1935-ci il tarixli Fərmanı göstərilirdi. Rəsmi qərarda isə deyilirdi: "Ermənistandakı yer adları dini məna daşıdığı, keçmişin feodal ünsürlərini özündə əks etdirdiyinə görə dəyişdirilməlidir". Əsl səbəb isə əlbəttə ki, gizlədilirdi.

Toponimlərin saxtalaşdırılması prosesi İkinci Dünya müharibəsindən sonra daha da intensiv hal aldı. Buna səbəb isə 1946–1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçürülən ermənilərin sayının kütləvi şəkildə artması idi. Belə ki, bu illər ərzində xarici ölkələrdən Ermənistana təqribən 90 000 erməni əhalisi köçürülmüşdü.

Həmçinin 1960-1969-cu illərdə azərbaycanlılara məxsus 70-dək yaşayış yerinin adı dəyişdirilmişdir. Sonuncu bu cür qərar isə keçən əsrin 90-cı illərində, Sovet hakimiyyətinin süquta yetdiyi dövrdə qəbul edilmişdir. Belə ki, 1991-ci il aprelin 9-da Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən azərbaycanlılara məxsus sonuncu 94 kəndin adı da dəyişdirilərək erməniləşdirilmişdir.

Bu vandalizm aktı hazırda işğal edilmiş Qarabağ bölgəsində də davam etdirilməkdədir. Belə ki, bu ərazilərdə xalqımıza məxsus 300-dək coğrafi yer adlarımız saxtalaşdırılaraq uydurma erməni adları ilə əvəz olunmuşdur.

Çox təəssüflər olsun ki, tarixi irsimizə vurulan bu kimi zərbələri dünya birliyi hələ də ağır sükut və susqunluqla seyr etməkdədir.

Lakin bütün bu çətinliklərə və ədalətsizliklərə rəğmən Azərbaycan xalqı əminliklə inanır ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış, bu gün də onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən starateji yol xalqımızın yeganə nicat yolu, qurtuluş səbəbidir. Yalnız bu yol ilə işğal altında inildəyən vətən torpaqları azad edilərək öz həqiqi sahiblərinə qucaq

açacaqdır. Vaxtıilə saxtalaşdırılaraq dəyişdirilmiş bütün coğrafi yer adlarımız öz həqiqi, doğma adlarına qovuşacaqdır. Dağıdılmış bütün tarixi-mədəni abidələrimiz bərpa ediləcək, viran qoyulmuş şəhər və kəndlərimiz öz əvvəlki görkəminə qayıdacaqdır. Yeni və müasir şəhər və qəsəbələr salınacaqdır. Bir zamanlar Qara buludlar çökmüş, vətən səmasını əlvan günəş, açıq səma əvəzləyəcəkdir. Xarabalığa çevrilmiş yurd yerlərimiz körpələrin qığıltısı, uşaqların gülüş sədası ilə bəzənəcəkdir. Azad vətən torpaqlarında – Şuşada, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xankəndində üçrəngli Azərbaycan bayrağı qürurla dalğalancaqdır.

*"Elm" qəzeti, 2 oktyabr 2020-ci il, № 15 (1250)*

# BƏŞƏRİYYƏTƏ QARŞI TÖRƏDİLƏN EKOLOJİ TERROR – OXÇUÇAY

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının böyük hərbi-siyasi qələbəsi ilə yekunlaşdı. Xalqımız tarixə qanla yazılmış haqlı mübarizəsində əldə etdiyi şanlı qələbə ilə işğalla barışmadığını, ədalətsizliyə, haqsızlığa baş əyməyən məğrur və böyük xalq olduğunu bir daha dünyaya nümayiş etdirdi. Qələbəmizin memarı, Qalib Ali Baş Komandan İlham Əliyevin öndərliyi ilə müzəffər Azərbaycan ordusu beynəlxalq hüququn aciz qalıb həll edə bilmədiyi münaqişəyə son qoydu. Otuz ilə yaxın düşmən tapdağında inildəyən vətən torpaqlarını işğaldan azad edərək, şanlı Azərbaycan bayrağını şərəf və qürur hissi ilə qədim yurd yerlərimizdə dalğalandırdı.

Tarixi torpaqlarımızı işğal edən, doğma el-obalarımızı tarmar edib dağıdan, dini inanc yerlərimizi viran qoyub donuz tövlələrinə çevirən, min illərə söykənən xalqımıza məxsus mədəni-mənəvi irsi məhv etməyə çalışan erməni barbarları öz layiq olduqları cavabı aldılar. Dəmir yumruq azğınlaşmış qarı düşmənin başını əzməklə, təkcə ölkəmizi deyil, bütövlükdə regionumuzu erməni faşizmindən xilas etdi. Xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı bu qələbə milli qürurumuzun xilası, milli iradəmizin və milli birliyimizin nümayişi idi.

Əfsuslar olsun ki, Qarabağ münaqişəsinin artıq geridə qalmasına baxmayaraq, tarix boyu xalqımıza qarşı sərgilənən düşmənçilik siyasəti bu gün də davam etdirilməkdədir. Qalib Azərbaycan ordusunun önündən qaçan, lakin onun qalibiyyətini həzm edə bilməyən Azərbaycanofob, türkofob hissləri ilə boğulan, revanşist xülyası ilə yaşayan mənfur düşmən öz məkrli niyyətindən əl çəkməyərək, digər çirkin

yollara əl atmaqdadır. Bunlardan biri də məhz Oxçuçay ekoloji terrorudur.

Başlanğıcını qədim yurd yerimiz Zəngəzur silsiləsinin Qapıcıq dağından *(3285 m)* götürüb, indiki Ermənistan Respublikasının ərazisində olan Qafan rayonu və Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonu ərazisindən keçən, ümumi uzunluğu 85 km *(40 km-ə qədəri Azərbaycan ərazisinə düşən)* və hövzəsinin sahəsi 1140 $km^2$ olan Oxçuçay bu gün ekoloji terrorla üz-üzədir.

Ekoloqlar tərəfindən ölkəmizin sərhəd çaylarının ekoloji vəziyyətinin öyrənilməsi məqsədilə 2021-ci ilin yanvar-iyun aylarında aparılan monitorinqlər zamanı Oxçuçaydan götürülən su nümunələrinin yerli və beynəlxalq laboratoriyalarda, o cümlədən Almaniyanın beynəlxalq səviyyədə akkreditə olunmuş və sertifikatlaşdırılmış SGS laboratoriyasında müayinə analizi zamanı yüksək miqdarda mis, molibden, manqan, dəmir, sink və xrom kimi ağır-toksik maddələr aşkar edilmişdir. Belə ki, monitorinq hesabatlarına əsasən, çirklənmə səviyyəsi normadan dəfələrlə artıq olan çayda mis-molibden birləşməsinin miqdarı 2, dəmir 4 və nikel 7 dəfə mövcud göstəricilərdən yüksək olmuş, çayın rəngi isə çirklənmə səbəbindən vizual olaraq dəyişikliyə məruz qalmışdır.

Araşdırmalar zamanı o da müəyyən olunmuşdur ki, çayın bu qədər zərərli tullantılar ilə çirklənməsində başlıca səbəb çayın Ermənistan Respublikası ərazisindən keçən hissəsində - Qafan rayonunda fəaliyyət göstərən, Respublikanın ən böyük vergi ödəyicisi, yüzdə 60% paya sahib Almaniya Federativ Respublikasına məxsus "Cronimet Holdinq" sənaye müəssisəsinin mis-filiz emalı zavodu, həmçinin Qacaran şəhərinin inzibati ərazisində yerləşən, ölkənin ən iri həcmli dağ-mədən resursu hesab edilən mis-molibden yata-

ğının istismarçısı "Zangezur Copper-Molybdenum Combine *(ZCMC)*" şirkəti tərəfindən dağ-mədən sənayesinin ağır kimyəvi tullantılarının təmizlənmədən çaya axıdılmasıdır.

Beləliklə, bu gün Oxçuçay sənaye tullantılarının zərərsizləşdirilməsində sanki kollektor rolunu oynamaqla hədsiz dərəcədə çirklənməyə məruz qalmaqdadır. Bunun acı nəticəsidir ki, Oxçuçayın mövcud fauna və ekosisteminin pisləşməsi səbəbindən çayda balıqların kütləvi şəkildə məhvolma faktları aşkarlanmışdır. Belə ki, aparılan vizual monitorinq zamanı Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmiş qızılxallı balığının *("small trout" (en.), "форел" (ru))*, şirbit və digər növ balıqların kütləvi şəkildə məhvi müşahidə edilmişdir. Bu acınacaqlı mənzərə çayda çırklənmə səviyyəsinin nə qədər kritik vəziyyətdə olduğunu bir daha gözlər önünə sərir.

Eyni zamanda, təkzibolunmaz faktlara əsasən, mədənlərdə istehsal həcminin artırılması ilə əlaqədar olaraq, daha iri həcmdə su resursundan istifadə olunur ki, bu da Oxçuçayı yaxın gələcəkdə tamamilə quruyaraq yoxolma təhlükəsi ilə üz-üzə qoyur.

Mədənlərdə istehsal həcminin artırılmasında başlıca səbəb isə son illər ərzində dünya bazarında mis, qızıl və digər qiymətli metallara olan tələbatın kəskin şəkildə artmasıdır. Bu isə onsuz da iqtisadi tənəzzül dövrünü yaşayan, məhdud maliyyə resurslarına malik olan və maliyyə ehtiyatlarının artımını ölkənin və regionun ekoloji təhlükəsizliyindən qat-qat üstün tutan Ermənistan hökuməti üçün əlavə gəlir mənbəyi olaraq bir şans oldu. Xüsusilə, 2009-cu ildə dünya bazarında baş vermiş qlobal maliyyə böhranı səbəbi ilə ölkə iqtisadiyyatının geriləməsindən sonra dünya bazarında bu cür qiymətli metalların qiymət artımı Ermənistan Respublikasında yeni iş yerlərinin yaradılması və əlavə maliyyə resurslarının əldə olunması ilə yanaşı, mədən sənayesinin

ümumi iqtisadiyyatda rolunun əhəmiyyətli dərəcədə artmasına da səbəb oldu.

Belə ki, statistik göstəricilərə əsasən, son dövrlər ərzində ixrac əməliyyatlarının həcmində ümumi ixrac məhsullarının yarıdan çoxu *(51%)* dağ-mədən sənayesinin payına düşür. Ölkədaxili istehsal sahələri üzrə sənaye məhsullarının bölgüsündə isə dağ-mədən sənayesi təqribən 20%-ə yaxın olmaqla ikinci yeri tutur.

Ermənistan Respublikasının Gömrük Xidmətinin statistik məlumatlarına əsasən, 2019-cu ildə ixrac edilən məhsullar arasında ilk yeri 627 milyon ABŞ dolları dəyərində mis kondensatı yer alır. Əvvəlki il ilə müqayisədə ixrac edilən mis kondensatında 32% artım qeydə alınmışdır ki, bunun da əsas səbəbi 2019-cu ilin iyul ayından etibarən qonşu Gürcüstan Respublikası ilə mübahisəli Teğut yatağının yenidən istismara verilməsidir.

Ümumilikdə isə bu gün Ermənistanın əsas filiz ixracatçıları Azərbaycan Respublikası və İran İslam Respublikasının ekoloji vəziyyətinə təhlükə yaradan "Zangezur Copper-Molybdenum Combine CJSC" ilə yanaşı, "Agarak Copper Molybdenum Combine" CJSC, "Akhtala Mining and Processing Enterprise" CJSC və Gürcüstan Respublikası üçün ekoloji təhlükə mənbəyi hesab olunan və mübahisəli ərazidə fəaliyyət göstərən "Teghout Armenia" şirkətləridir.

Ermənistanda ölkə üzrə dağ-mədən sənaye məmulatlarının böyük hissəsi – 87%-i məhz Qərbi Zəngəzur bölgəsində istehsal olunur. Bu mənada Ermənistanın dövlət səviyyəsində ekoloji terrora məruz qoyduğu Oxçuçay kimi su mənbələrinin aşağı axarlarının qonşu ölkələrin *(Azərbycan Respublikası, İran İslam Respublikası)* ərazisində olması bu ölkələrin, xüsusilə ölkəmizin ətraf mühitinə və ekologiyasına böyük təhlükə yaratmaqdadır.

Hətta 2017-ci ildə Ermənistanın Ətraf Mühitin Monitorinqi və İnformasiya Mərkəzinin məlumatlarına əsasən, aparılan araşdırmalar nəticəsində, Oxçuçayın suyunun 5-ci kateqoriyaya, yəni ən aşağı keyfiyyətə malik olması müəyyən edilmişdir. Bu səbəbdən çay ölkə ərazisində ən çox çirklənmiş çay hesab olunduğundan, hətta irriqasiya məqsədləri üçün istifadəsi qadağan edilmişdir.

Transsərhəd çay olan Oxçuçayın Ermənistan Respublikası ərazisində daim kəskin çirklənməyə məruz qalması regionda əkin sahələrinin suvarılmasına və içməli su təminatına da olduqca mənfi təsir göstərir. Ümumilikdə isə istər suvarma sahələrində, istərsə də su təminatı zamanı istifadə olunan çay əhalinin sağlamlığı üçün real təhlükə mənbəyidir. Belə ki, çirkləndirilmiş suyun istifadəsi insanlarda – mədə-bağırsaq traktının pozğunluqları, böyrəklərdə və sümük toxumasında dağıdıcı proseslər, ürək-damar, sinir sistemlərinin pozulması kimi son dərəcə ciddi fəsadlara yol aça bilər.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, Oxçuçayın zərərli suları öncə Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına *(Xudafərin su anbarına)*, sonda isə Xəzər dənizi hövzəsinə tökülməkdədir. Bu isə mövcud ekoloji faciənin miqyasını xeyli dərəcədə artırmaqla regionu daha böyük ekoloji böhrana sürükləməkdədir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 16 avqust 2021-ci il tarixdə Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaltdıqdan sonra etdiyi çıxışında Oxçuçayın mövcud ekoloji vəziyyətinə də toxunaraq demişdir: ***“...Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş***

***bütün torpaqlarda, şəhərlərlə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik....”.***

Ölkəmizin yerüstü su ehtiyatlarının təxminən 70%-nin qonşu ölkələrdə və transsərhəd su axınları hesabına formalaşdığını, eyni zamanda transsərhəd çayların böyük bir hissəsinin Ermənistandan Azərbaycan ərazisinə axdığını nəzərə alsaq, Ermənistanın hələ də beynəlxalq Helsinki Konvensiyasına qoşulmaması böyük təəssüf hissi doğurur.

Belə ki, Ermənistan bügünədək mövcud razılaşmaya əməl etməyərək, Konvensiyanı ratifikasiya etməkdən boyun qaçırır və onun bütün prinsiplərini kobud şəkildə pozmaqda davam edir. Eyni zamanda, Helsinki Konvensiyasının əhalinin sağlamlığının qorunması, su ehtiyatlarının daha yaxşı idarə edilməsi və çirkləndirilməsinin azaldılması prinsiplərini özündə əks etdirən “Su və sağlamlıq haqqında” Protokolu Ermənistan hökuməti tərəfindən 1999-cu ildə imzalansa da bu günədək hələ də qüvvəyə minməmişdir. Bunun başlıca səbəbi isə Konvensiyada “çirkləndirən ödəyir” prinsipinin Ermənistan hökuməti tərəfindən qəbul edilməməsidir. Belə ki, rəsmi İrəvan bu prinsipin yalnız ölkə daxilində tətbiq edilməsini uyğun görür və aşağı axarda yerləşən dövlətlərin *(Azərbycan Respublikası, İran İslam Respublikası)* hər hansı birinin kompensasiya tələbinə xidmət etməməli olduğunu israr edir.

Lakin Ermənistandan fərqli olaraq Azərbaycan Respublikası BMT-nin Avropa İqtisadi Komissiyasının “Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında” 1992-ci il tarixli Helsinki Konvensiyasının “Su və sağlamlıq haqqında” 1999-cu il 17 iyun tarixli Protokoluna qoşulmaq barədə 2002-ci ildə Ulu Öndər

Heydər Əliyevin imzaladığı 372-IIQ nömrəli, 22 oktyabr 2002-ci il tarixli Qanunu ratifikasiya etmiş, həmçinin üç hesabatlılıq dövründə iştirak etmişdir.

Ölkəmiz tərəfindən Oxçuçayın ekoloji böhranı, kritik vəziyyəti və çayın Ermənistan tərəfindən davamlı şəkildə çirkləndirilməsinin qarşısının alınmasının zəruriliyi və təxirəsalınmaz tədbirlərin görülməsi barədə beynəlxalq təşkilatlara – UNEP-in Avropa ofisinə, UNECE-nin icraçı katibi və Konvensiya katiblərinə, o cümlədən Alman Bundestaqına, xüsusən Bundestaqın Ətraf Mühit, Təbiəti Mühafizə və Nüvə Təhlükəsizliyi Komitəsinə, həmçinin Yaşıllar fraksiyası nümayəndələrinə çoxsaylı müraciətlər ünvanlanmışdır. Eyni zamanda, İran İslam Respublikası Ətraf Mühit İdarəsinə hər iki ölkənin ətraf mühitinə bu cür mənfi transsərhəd təsirin önlənməsi üçün ortaq iş birliyinin zəruriliyini əks etdirən müraciət ünvanlanmış və bu problemin birlikdə həll olunmasına xidmət edəcək ortaq işçi qrupun yaradılması da təklif edilmişdir.

Lakin çox təəssüflər olsun ki, bütün bu kimi rəsmi müraciətlərə və haqlı tələblərə rəğmən Ermənistan tərəfi hələ də qlobal miqyas almış mövcud problemin aradan qaldırılması istiqamətində açıq şəkildə laqeydlik nümayiş etdirərək, heç bir əməli tədbir görmür.

*“525-ci qəzet”, 5 oktyabr 2021-ci il, № 180 (5746)*

*“Elm” qəzeti, 8 oktyabr 2021-ci il, № 34 (1296)*

# TARİXİMİZİN QAN YADDAŞI

## 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

"Böyük Ermənistan" xülyası ilə yaşayan, uydurduqları bu mifə inanaraq, onun gerçəkləşməsi üçün hər cür vasitəyə əl atmaqdan çəkinməyən erməni şovinistləri öz havadarlarının da böyük qayğı və dəstəyi ilə xalqımıza qarşı daim terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi çirkin siyasət həyata keçirmişlər.

31 Mart Soyqırımı məhz bu çirkin siyasətin davamı, xalqımıza qarşı törədilən növbəti qəddarlığın bariz nümunəsidir. Bəşər tarixinin ən qanlı səhifələrindən biri olan Mart Soyqırımı təkcə paytaxt Bakıda deyil, Şamaxıda, Qubada, Xaçmazda, Lənkəranda, Qarabağda, Naxçıvanda və digər bu kimi bölgələrimizdə də törədilmişdir. Qoca, qadın, uşaq demədən on minlərlə günahsız soydaşımızın kütləvi qətli xalqımızın qan yaddaşında silinməz izlər buraxmışdır.

Tarixi faktlara əsasən, 1918-ci ilin mart-aprel aylarında Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən erməni daşnak-rus bolşevik silahlı dəstələri tərəfindən Azərbaycan xalqı xüsusi qəddarlığı ilə seçilən kütləvi qırğınlara məruz qaldı.

Silahlı quldur dəstələri öncədən planlaşdırılmış şəkildə ilk addım olaraq, azərbaycanlılara məxsus mülklərə, mağazalara hücumlar təşkil edir, soyğunçuluqla məşğul olur, əhalinin heysiyyatına toxunacaq, onlarda haqlı narazılıq və qəzəb doğuracaq bir sıra çirkin əməllər törədirdilər. Əsas məqsəd isə talançılıq və soyğunçuluq edən quldur dəstələrinin cəzasızlığını görən yerli əhalini etirazlara, özünümüdafiəyə məcbur etmək və beləliklə, yaxın gələcəkdə baş verəcək qətliamlara "Vətəndaş müharibəsi" siyasi donu geyindirmək idi. Beləliklə, istəklərinə nail olacaqları təqdirdə, Azərbaycanda sovet hakimiyyətinin qurulması bəhanəsi ilə

əldə edəcəkləri böyük dəstək sayəsində ilk növbədə Bakıda, sonrakı mərhələdə isə regionlarda yerli əhaliyə qarşı kütləvi qırğınlar törətməklə qərbdən Aralıq dənizi, şərqdə isə Xəzər dənizinə qədər uzanan "Böyük Ermənistan" dövlətini qurmaq idi. Belə ki, hələ kütləvi qətliamlardan öncə Stepan Şaumyan 1918-ci il martın 15-də çıxış edərkən demişdir: *"Bakı Soveti Zaqafqaziya vətəndaş müharibəsinin mərkəzinə və istehkamına çevrilməlidir. …Bizim siyasətimiz – vətəndaş müharibəsidir. Kim bu siyasətin əleyhinə gedir, həmin adamlar düşmənlərimizdir".*

Martın 31-də səhərə yaxın bütün erməni hərbi dəstələrinin başçıları qətliamdan öncə yaratdıqları daşnak-bolşevik hərbi-siyasi orqanı olan İnqilabi Müdafiə Komitəsinin qərargahına yığılaraq, təlimatlandırıldıqdan sonra müsəlman məhəllələrinə göndərilirdilər. Beləliklə, plana uyğun olaraq, yüksək hazırlıqlı silahlı erməni yaraqlıları məhəllələrə qəfil basqınlar etməklə insanların evlərinə soxulur, sakinləri xəncər və süngü ilə doğrayır, evləri talan edərək yandırır, uşaqları yandırdıqları evlərin içinə atır, südəmər çağaları isə süngülərə keçirirdilər. Hər cür insanlıqdan kənar vəhşiliyə əl atan erməni daşnak-rus bolşevik cəlladları müsəlman qadınlara qarşı da xüsusi amansızlıqla davranırdılar. Belə ki, qətliamdan sonra arşadırmalar nəticəsində şəhərin təkcə bir yerində torpağın altından qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 qadının cəsədi tapılmışdı. Çoxlu gənc qadınlar isə diri-diri divara mıxlanmışdılar.

Rəsmi mənbələrə əsasən, 1918-ci ilin 30 mart – 3 aprel tarixləri ərzində davam edən qırğınlar zamanı on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmişdi. Dənizdən və qurudan atılan top atəşləri nəticəsində xalqımızın milli-mədəni irsinə məxsus tarixi abidələr, dini inanc yerləri dağıdılmış və ya ciddi ziyan görmüşdü.

İctimai və şəxsi binalar talan edilmiş, od vurularaq yandırılmışdı.

Erməni vandallığının qurbanına çevrilmiş obyektlərə Müsəlman Xeyriyyə Cəmiyyətinin "İsmailliyyə" binasını, "Açıq söz" və "Kaspi" qəzetinin redaksiya binalarını, "İsgəndəriyyə" və "İslamiyyə" mehmanxanalarını, Şah, Keyqubad və Təzəpir məscidlərini misal göstərmək olar.

Dinc əhalinin qırğınına rəhbərlik edən Stepan Şaumyan 1918-ci il aprelin 13-də RSFSR Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda qeyd edirdi: *"Martın 30-31-də və aprelin 1-də Bakı şəhərində baş vermiş vuruşmada bizim tərəfdən Sovet qırmızı qvardiyası, təşkil etdiyimiz beynəlmiləl qırmızı ordu, qırmızı donanma və erməni milli hissələri vuruşurdular."*

Daha sonra o, yazırdı: "*Həm yerli Sovetin, həm də buraya gəlmiş Qafqaz ordusunun qüvvələrini hərbi-inqilabi komitənin səylərini birləşdirərək, 6000 nəfər yaxşı silahlı qüvvə təşkil edə bildik. "Daşnaksütyun"un da 3-4 min nəfərlik milli hissələri var idi, onlar da bizim ixtiyarımızda idi. Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik. Müsəlman yoxsulları böyük zərər görmüşlər".*

O zaman yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərinə əsasən, hadisə şahidlərinin ifadələrinə görə, üç gün davam edən kütləvi qırğın nəticəsində təkcə Bakı şəhərində erməni silahlıları tərəfindən təxmini hesablamalara görə 15-20 min arası dinc sakin vəhşicəsinə qətlə yetirilmişdi. Tarixi statistik göstəricilərə əsasən, Birinci Dünya Müharibəsindən *(1914–1918)* əvvəl təqribi hesablamalara görə, Bakı şəhəri əhalisinin ümumi sayının 200 000 nəfər olduğunu nəzərə alsaq, Mart Soyqırımı zamanı şəhər əhali-

sinin təqribən onda birinin qətlə yetirildiyini qeyd edə bilərik.

Bakı qırğınından sonra erməni quldurları bu çirkin əməllərini bölgələrdə də həyata keçirməyə başladılar. Bu barədə görkəmli ictimai-siyasi xadim, o zamanlar Bakı Sovetində şəhər təsərrüfatı üzrə xalq komissarı vəzifəsində çalışan Nəriman Nərimanov yazırdı: *"Lakin belə bir dəhşətli hadisədən sonra, onun qəzalar üzrə həyata keçirilməsini davam etdirmək nəyə lazım idi. Bax, suala 1918-ci ildə Bakıdakı Sovet hakimiyyəti cavab verməlidir."*

Fövqəladə İstintaq Komissiyasının materiallarına əsasən, azərbaycanlılara qarşı soyqırımı cinayəti törədən 2 000 nəfərdən ibarət yaxşı silahlandırılmış erməni quldur ordusu Şamaxıda sovet hakimiyyəti qurmaq adı altında, 58 kənddə 1 653-ü qadın və 965-i uşaq olmaqla, ümumilikdə 7 000-dən çox dinc sakini qətlə yetirmiş, Şamaxı şəhərini isə yandıraraq yerləyeksan etmişdi.

1918-ci il may ayının 1-də isə Qubada sovet hakimiyyətinin qurulması adı altında daşnak Hamazaspın komandanlığı ilə 3 000 nəfərlik erməni quldur ordusu üç istiqamətdən şəhərə hücuma keçmişdi. Toplardan, pulemyotlardan və tüfənglərdən atəş açaraq Quba əhalisini, o cümlədən burada əsrlərdir yanaşı, mehriban yaşayan etnik qrupların nümayəndələrini də vəhşicəsinə qətlə yetirmişdilər.

Daşnak Hamazasp şəxsən özü qubalıları Cümə məscidinin qarşısındakı meydana toplayaraq onlara təxminən aşağıdakı məzmunda nitqlə müraciət etmişdir: *"Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni xalqının qəhrəmanıyam və onun mənafelərinin müdafiəçisiyəm... Mən buraya qayda-qanun yaratmağa və sovet hakimiyyəti qurmağa yox, sizdən qisas almağa göndərilmişəm".*

Beləliklə, həmin dövrdə erməni daşnak-rus bolşevik quldurları tərəfindən Quba qəzasında 167 kənd talan edilərək yandırılmış, 16 000 nəfərə yaxın sakin isə xüsusi qəddarlıqla, kütləvi şəkildə qətlə yetirilmişdir.

Həmçinin erməni daşnak-rus bolşevik silahlı dəstələri tərəfindən Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi əhalisi ilə birgə tamamilə məhv edilərək, yer üzündən silinmişdir. Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və qocalardan ibarət 3000 nəfərlik azərbaycanlı köçü pusquya salınaraq, son nəfərədək qətlə yetirilmişdi. Erməni silahlı dəstələri Naxçıvan qəzasında bir neçə kəndi, Zəngəzur qəzasında isə 115 kəndi yandıraraq, 3257 kişi, 2276 qadın və 2196 uşaq olmaqla əliyalın, günahsız dinc əhalini qətlə yetirmişdilər. Ümumilikdə isə Zəngəzur qəzası üzrə 10 068 azərbaycanlı öldürülmüş və ya ömürlük şikəst edilmiş, 50 000-dən çox azərbaycanlı isə öz ata-baba yurd-yuvalarından didərgin salınmışdı.

Erməni daşnak-rus bolşevik silahlı dəstələri daha sonra Qarabağa yürüş etmiş, Qarabağın dağlıq hissəsində yerləşən 150 kəndi yağmalayaraq dağıtmış, əliyalın, dinc sakinlərini isə qətlə yetirmişdilər.

Mart Soyqırımından bir il sonra tarixi hadisələri gizlətməkdə və ya saxtalaşdırmaqda hər zaman "mahir" olan ermənilər baş vermiş bu qanlı hadisələri bolşeviklərlə müsəlmanlar arasında cərəyan edən hakimiyyət mübarizəsi kimi dünyaya təqdim etməyə çalışırdılar. Belə ki, 1919-cu ilin yayında ABŞ tərəfindən Bakıya göndərilən general Harborda təqdim edilən sənəddə erməni yepiskopu Baqrat ermənilərin mart hadisələrində iştirakını həyasızcasına inkar edir, həmin hadisələr zamanı guya öldürülən cəmi 1 000 nəfərdən 300-nün erməni və rus, 700-nün isə müsəlman olduğunu iddia edirdi.

Tarixi təhrif etmək mümkündür, lakin tarixi həqiqətləri, yaşanmış gerçəklikləri gizlətmək, onları silmək əsla. Belə ki, hələ 1918-ci ildən öncə 1905–1906-cı illərdə Naxçıvan, Qarabağ, Şirvan, Borçalı, İrəvan və digər ərazilərdə də xalqımıza qarşı qanlı qırğınlar, deportasiyalar törədilmişdi. Belə ki, həmin vaxtlar təkcə İrəvan quberniyasının 199 kəndində yaşayan 135 000 azərbaycanlı qətlə yetirilmiş, evləri yağmalanaraq yandırılmışdı. Azərbaycanın tanınmış yazıçısı, ədəbiyyatımızda tarixi roman janrının banisi Məmməd Səid Ordubadi 1905-ci ildə indiki Ermənistan ərazisində ermənilərin törətdiyi qanlı qırğınları, soyqırımlarını qələmə alarkən yazırdı: *"İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda, boğmaqda idi".*

Təəssüflər olsun ki, sovet hakimiyyəti dövründə də xalqımıza qarşı etnik təmizləmə siyasəti davam etdirilmişdir. Belə ki, 1947–1953-cü illərdə yüzminlərlə soyadışımız öz tarixi yurd-yuvalarından – Qərbi Azərbaycandan zorla didərgin salınmışlar. Tarixi torparlarımızdan olan Zəngəzur mahalı isə 1923-cü ildə Azərbaycandan qopardılaraq, Ermənistana birləşdirilmişdir.

Tarixin sonrakı mərhələlərində isə xalqımızın qan yaddaşını silmək, acı keçmişini unutdurmaq və fürsət yarandığı təqdirdə öz çirkin planlarını yenidən gerçəkləşdirmək niyyətilə "Böyük Sovet ailəsi", "Mehriban qardaş xalqlar" kimi siyasi oyunlar oynalındı, məkrli planlar cizildi.

Nəhayət 1988-ci ildən başlayaraq yeni ərazi iddiaları ilə Qarabağda vaxtilə köçürülmüş ermənilər tərəfindən separatizm meylləri yenidən alovlanmağa başladı. Yırtıcı düşmənin illərdir geyinmiş olduğu "mehriban qonşuşluq, qardaşlıq" maskası yırtıldı. Ölkədə tüğyan edən siyasi gərginlik və hərcimərclikdən məharətlə yararlanan məkrli düşmən torpaqlarımızı ard-arda işğal etməyə başladı.

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu tərəfindən istiqlaliyyəti uğrunda çarpışan, mübarizəyə qalxan əliyalın, dinc əhaliyə qarşı bəşəri cinayət törədildi. Amansızcasına törədilən bu qətliam xalqımızın qan yaddaşını da yenilədi. İllərdir qaysaq bağlamış, sağalmaz yaralar bir daha sızlamağa başladı. Tarix sanki yenidən təkrarlandı, Mart Soyqırımı yenidən təzələndi. Belə ki, hadisələr təkcə paytaxt Bakı ilə yekunlaşmırdı. Qırğınlar Sumqayıt, Neftçala, Lənkəran və digər bölgələrdə də həyata keçirilirdi. Tarixə Qanlı Yanvar kimi düşən həmin hadisələr zamanı Bakıda və bölgələrdə ümumilikdə 131 nəfər qətlə yetirilmiş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbiçilər tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili tibbi yardım maşınları, dövlət əmlakları və şəxsi əmlaklar məhv edilmişdir. Qətlə yetirilənlər arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər *(polis)* də olmuşdur.

1992-ci il fevralın 25-dən 26-sına gecə isə Xocalı şəhərinin sakinlərinə qarşı tarixdə misli görünməmiş kütləvi qırğın – Xocalı Soyqırımı törədildi. Yüzlərlə günahsız soydaşımız qanına qəltan edildi, meyitləri qanasusamış erməni cəlladları tərəfindən müxtəlif təhqirlərə məruz qaldı. Kütləvi qırğın zamanı aralarında 63 nəfər uşaq, 106 nəfər qadın, 70 nəfər ahıl, qoca olmaqla, ümumilikdə 613 nəfər vətəndaşımız qətlə yetirildi, 487 nəfər isə aldığı güllə yaralarından əlil oldu. Faciə zamanı Xocalının 1275 dinc sakini girov götürüldü ki, onlardan 197 nəfərinin sonrakı taleyi bu günədək hələ də məlum deyildir.

Xalqımızın başına gətirilmiş bu kimi cinayətlər, məkrli oyunlar bəlkə də unutqanlığımızdan, keçmişimizi düzgün şəkildə arşadırıb, təbliğ edə bilməməyimizdən irəli gəlirdi. Belə ki, hələ 1919-cu ildə Mart Soyqırımının ildönümü ilə əlaqədar böyük Azərbaycan bəstəkarı, Azərbaycan profes-

sional musiqisinin banisi Üzeyir bəy Hacıbəyli özünün "31 mart" adlı məqaləsində yazırdı: *"Bugünkü vəzifəmiz o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hər şeyə hazır olmalıyıq. Borcumuz bu vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır".*

Beynəlxalq hüquqa görə, soyqırım sülh və insanlıq əleyhinə yönələn əməldir və ən ağır cinayət hesab olunur. Bu barədə Birləşmiş Millətər Təşkilatının *(BMT)* Baş Məclisinin 1948-ci il dekabrın 9-da 260 (III) saylı qətnaməsi qəbul edilmiş və 1951-ci il yanvarın 12-dən qüvvəyə minmiş "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması" Konvensiyasında soyqırım cinayətinin hüquqi əsası təsbit olunmuşdur. Bu mənada məlum Konvensiyada təsbit edilmiş soyqırım cinayətini əks etdirən bütün əməllər istər 31 mart 1918-ci il tarixdə törədilmiş Mart Soyqırımı, istərsə də 1992-ci il 26 fevralda törədilmiş Xocalı Soyqırımı zamanı ermənilər tərəfindən azərbaycanlılara qarşı tətbiq olunmuşdur.

Mart Soyqırımına ən layiqli qiymət isə xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən verilmişdir. Belə ki, Ulu Öndər tərəfindən imzalanan 26 mart 1998-ci il tarixli Fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilməyə başlanılmışdır. Beləliklə, o gündən başlayaraq xalqımızın erməni cəlladları tərəfindən soyqırıma məruz qalması təkzibolunmaz faktlarla bütün dünyaya bəyan edilməyə başlanıldı. Bu isə özünü dünyaya daim məzlum, "soyqırım"lara məruz qalmış xalq kimi təqdim edən, tarixi faktları özünəməxsus şəkildə təhrif edərək saxtalaşdıran, dünya ictimaiyyətini çaşdıran, yanlış istiqamətə yönəldən ermənilər üçün əsl şok effekti yaratmışdı.

Beləliklə, bu gün biz azərbaycanlılar böyük inam və əminliklə söyləyə bilərik ki, öz haqlı mövqeyini qoruyan,

müdafiə edən, tarixi həqiqətləri dünyaya bəyan edən, düşmən üzərində siyasi, iqtisadi və hərbi cəhətdən üstün, əzici mövqeyə malik müstəqil və azad ölkənin vətəndaşlarıyıq.

Bu dövlət layiqli davamçı, müdrik rəhbər, öz xalqına, vətəninə, adət və ənənələrinə, milli kimliyinə canı və qanı ilə bağlı olan, onu daim sevən, yaşadan İlham Əliyev tərəfindən gün-gündən inkişaf edir, möhkəmlənir və öz hərbi qüdrətini artırır. Bu isə gələcəkdə 31 Mart Soyqırımı kimi qanlı faciələrin bir daha təkrarlanmayacağının ən etibarlı təminatıdır.

Bu gün xalqımız işğal edilmiş bütün tarixi torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə geri qaytarılacağına, öz hərbi-siyasi tarixinə yeni və parlaq zəfərlərlə imza atacağına əminliklə inanır.

*"Atribut" qəzeti, 20-26 aprel 2019-cu il, № 11 (322)*

# 20 YANVAR FACİƏSİ – TARİXİMİZİN QANLI VƏ ŞANLI SƏHİFƏSİ

Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizə salnaməsinə Qanlı Yanvar kimi daxil olmuş, faciəli, eyni zamanda, şərəfli tarixi günlərdən biri olan 20 Yanvar qətliamından 30 il ötür.

1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş Katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna daxil oldu.

Təcavüz nəticəsində ağır hərbi texnikadan və müxtəlif tipli iriçaplı silahlardan istifadə edilərək, öz azadlığı və müstəqilliyi uğrunda ayağa qalxan əliyalın, dinc əhaliyə qarşı insanlıq tarixində misli görünməmiş qətliam törədildi, yüzlərlə günahsız insan qətlə yetirildi, yaralandı və ya itkin düşdü.

Ən acınacaqlı hal isə ondan ibarət idi ki, Bakıda fövqəladə vəziyyətin elan olunmasına son anda qərar verildi və bilərəkdən xalqdan gizlədildi. Belə ki, 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" Fərman verdi. Lakin insanları anidən yaxalayaraq, qırğının miqyasını böyütmək, beləliklə əhalidə xof və təşviş yaratmaq üçün fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Bu məqsədlə hətta yanvarın 19-da saat 19:27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarıldı. Bunun ağır nəticəsi idi ki, paytaxtda fövqəladə vəziyyətin tətbiqi ilə bağlı qərarın əhaliyə elan olunmasınadək hərbi qoşun qüvvələri artıq 82 nəfər

dinc sakini amansızcasına qətlə yetirmiş, 20 nəfəri isə ölümcül yaralamışdı.

Digər diqqətçəkən məqamlardan biri də o idi ki, Bakıda fövqəladə vəziyyətin yanvarın 20-də, saat 00-dan başlanacağı ilə bağlı göstəriş verilməsinə baxmayaraq, qoşun hissələri artıq yanvarın 19-da saat 21-dən Türkan-Qala yolu istiqamətindən şəhərə daxil olmuşdu. "Bakı əməliyyatı"na isə şəxsən SSRİ müdafiə naziri, elə həmin il Sovet İttifaqı Marşalı hərbi rütbəsi almış və bundan ilhamlanaraq özünü "doğrultmağa" çalışan Dmitri Yazov rəhbərlik edirdi.

Sovet rejiminin süqutu ərəfəsində sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakının zəbt edilməsi məqsədilə törətdiyi bu hərbi cinayət xüsusi qəddarlığı və amansızlığı ilə seçilirdi. Belə ki, qurudan və dənizdən desant qüvvələrinin ağır hərbi texnikaların da köməyi ilə keçirdiyi hücum nəticəsində mitinq iştirakçılarının qurduğu bütün barrikadalar dağıdılır, əliyalın dinc əhaliyə qarşı odlu silahlardan güclü atəş açılırdı. Qaçıb sığınacaqlarda gizlənənlər isə tankların üzərində quraşdırılmış projektorların köməyi ilə axtarılıb tapılır və yerindəcə güllələbaran edilərək qətlə yetirilirdi.

Hərbçilər hətta mitinqlərlə aidiyyəti olmayan təsadüfi şəxslərə də atəş açır, yaralıları öldürür, meyitləri yandırır, insanları təhqir edir, onları diri-diri tankların tırtılları altına ataraq əzablı şəkildə öldürürdülər. Şəhərin küçələri qətl edilmiş, yaralanmış günahsız mülki şəxslərin al qanı ilə boyanmışdı. Hətta əsgərlər tibb müəssisələrinin çevrəsini mühasirəyə alaraq yaralı şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməklik göstərməsinə mane olurdular.

Hərbi təcavüz zamanı hərbiçilər tərəfindən 200 ev və mənzil, 80 nəqliyyat vasitəsi, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində isə

dövlət əmlakı və şəxsi əmlaklar məhv edilmiş, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdir.

Beləliklə, rəsmi məlumatlara görə, Bakıya və digər yaşayış məntəqələrinə sovet ordusunun yeridilməsi nəticəsində 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar olmaqla, ümumilikdə 131 nəfər vətəndaşımız vəhşicəsinə qətlə yetirilmiş, 744 nəfər yaralanmış, 841 nəfər həbs edilmiş, 4 nəfər isə itkin düşmüşdür. Həlak olanların arasında qadınlar, qocalar, uşaqlar, həmçinin öz xidməti vəzifələrini qorxmadan, yorulmadan, şərəflə yerinə yetirən təcili yardım və milis *(polis)* işçiləri olmuşdur.

Həmçinin fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə – yanvarın 25-də Neftçalada və yanvarın 26-da isə Lənkəranda daha 8 nəfər amansızlıqla qətlə yetirilmişdir.

Əliyalın, dinc əhaliyə qarşı törədilən bu silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın xüsusi amansızlıqla qətlə yetirilməsi və ya yaralanması əslində bəşəriyyətə qarşı dövlət səviyyəsində törədilmiş ən ağır, dəhşətli terror aktı cinayətlərindən biri kimi insanlıq tarixinə atılmış ən böyük ləkədir.

Belə ki, faciə nəticəsində insan hüquqlarının müdafiəsi üzrə nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri bir sıra normativ hüquqi sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulmuşdur.

Öncədən düşünülmüş və planlı şəkildə həyata keçirilən bu hərbi təcavüzkarlıq siyasətinin əsas məqsədi məhz xalqımızın demokratiya və milli azadlıq uğrunda mübarizə ruhunu boğmaq, ona mənəvi və fiziki cəhətdən ağır zərbələr vurmaq idi.

Eləcə də sovet hakimiyyəti rəhbərliyinin birbaşa dəstəyi və himayəsi ilə baş vermiş qondarma Sumqayıt hadisələ-

ri, Qarabağ müharibəsi, xalqımıza qarşı törədilən kütləvi qırğın və soyqırımlar, onların öz tarixi və əzəli doğma yurd-yuvalarından qovulması da bu çirkin və məkrli siyasətin tərkib hissələri idi.

Ən acınacaqlı və təəssüf hissi doğuran məqam isə 1990-cı ildə ölkəmizdə törədilən bu cür qanlı cinayətə birbaşa rəhbərlik edən, əmrə imza atmaqla hərbi güc tətbiqinə göstəriş verən Mixail Qorbaçovun həmin il ali beynəlxalq mükafat olan "Beynəlxalq Nobel Sülh mükafatı"na layiq görülməsi oldu. Sonralar 1995-ci ilin aprelin 27-də Türkiyə Respublikasında səfərdə olan keçmiş SSRİ rəhbəri Mixail Qorbaçov İstanbulun Çırağan sarayında onun şərəfinə verilən ziyafətdə çıxış edərkən öz siyasi bioqrafiyasının bəzi məqamlarına toxunmuş, 1990-cı il 20 Yanvar hadisələrindən danışarkən öz günahını etiraf edərək, demişdi: *"Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi."*

20 Yanvar faciəsindən dərhal sonra yanvarın 21-də, hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə, bütün çətinliklərə və maneələrə rəğmən, böyük siyasi iradə nümayiş etdirən xalqımızın böyük oğlu, Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, mətbuat konfransı keçirmişdir. Ulu Öndər Heydər Əliyev çıxışında bu vəhşiliyi kəskin şəkildə pisləyərək, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata öz kəskin etirazını bildirmiş, həmin əməliyyata rəhbərlik edənləri isə ifşa etməklə, hər zaman olduğu kimi, bu ağır zamanda da öz doğma xalqı ilə həmrəy olduğunu bir daha nümayiş etdirmişdi.

Böyük siyasi xadim əliyalın, dinc əhaliyə qarşı dövlət səviyyəsində törədilən bu qanlı hadisəni böyük hərbi cinayət adlandıraraq, qırğına görə SSRİ rəhbərliyini, şəxsən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin

Baş Katibi Mixail Qorbaçovu qətiyyətli şəkildə ittiham edərək demişdir: ***“Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya, humanizmə və hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı... Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!”.***

Həmin ilin noyabr ayının 20-də Naxçıvan Muxtar Respublikasına qayıdan Ümummilli Lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin sessiyasında 20 Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirərək demişdir: ***“Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində — heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib. Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi tə-***

***cavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir".***

Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, eyni zamanda Azərbaycan xalqının əzm və iradəsinin sarsılmazlığının, mətinliyinin nümayişi idi. Belə ki, bütün bu qanlı hadisələrdən, kütləvi qırğınlardan sonra qəhrəman Azərbaycan xalqı əyilmədi, sınmadı əksinə daha da güclənərək, bir dəmir yumruğa çevrildi. Bakıda fövqəladə vəziyyətin tətbiq edilməsinə rəğmən, yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin böyük xatirəsinə ehtiram olaraq onların dəfni ilə əlaqədar 2 milyona yaxın insanın iştirakı ilə matəm yürüşü keçirildi. Xalqın haqlı tələbi ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırıldı və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edildi. Məhz bu qanlı hadisə milli kimliyimizin formalaşmasına həlledici təsir göstərərək, dövlət müstəqilliyimizin bərpa edilməsində dönüş nöqtəsi oldu.

Beləliklə, Qanlı Yanvar faciəsi ümumxalq hüzn günü olmaqla yanaşı, eyni zamanda xalqımızın öz azadlığı, istiqlaliyyəti uğrunda apardığı haqlı mübarizəsinin şərəfli tarixi kimi milli birlik və vətənpərvərliyin simvolu olaraq da yaddaşlarda əbədi qalacaqdır.

Faciəyə dövlət səviyyəsində ilk siyasi-hüquqi qiymət də məhz Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışından sonra verilmişdir. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü ilin fevralında keçirilən xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirilmiş, müzakirələrin yekunu olaraq həmin ilin martında "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edilmişdir.

Faciə nəticəsində şəhid olmuş şəxslərin adlarının əbədiləşdirilməsi, o cümlədən onların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məsələləri də dövlətimizin daim diqqət mərkəzindədir və bu istiqamətdə ardıcıl, mühüm tədbirlər həyata keçirilir. Belə ki, 20 Yanvar şəhidlərinin ailələri Prezidentin aylıq təqaüdləri ilə təmin olunur. 20 Yanvar əlillərinə də əlilliyə görə müavinət və ya pensiya, Prezidentin aylıq təqaüdləri ödənilir.

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin övladları da aylıq müavinətlərdən yararlanırlar. Əmək, vergi və digər sahələrə dair qanunvericiliyə əsasən, şəhid ailəsi üzvlərinə, eləcə də müharibə və 20 Yanvar əlillərinə bir sıra imtiyaz və güzəştlər tətbiq edilir. Eyni zamanda, şəhid ailə üzvləri və əlillər növbəlilik prinsipləri əsasında mənzil və avtomobillərlə də təmin olunurlar.

Qədirbilən xalqımız isə hər il faciənin ildönümündə şəhidlik zirvəsini fəth etməklə, əbədiyaşarlıq hüququ qazanmış vətən övladlarının fədakarlığını yüksək qiymətləndirərək, paytaxtımızın ən yüksək ərazisində salınmış Şəhidlər Xiyabanını izdihamlı yürüşlə ziyarət edir, onların əziz xatirəsini dərin hörmət və ehtiramla anaraq, bu faciəni törədənlərə öz haqlı etirazını və nifrətini nümayiş etdirir.

Allah vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin...

*“Atribut” qəzeti, 19-25 yanvar 2020-ci il, № 02 (345)*

## XOCALI SOYQIRIMI İNSANLIĞA QARŞI CİNAYƏTDİR

Xocalı Soyqırımı Azərbaycan tarixinə ötən əsrdə insanlıq əleyhinə törədilmiş ən dəhşətli və faciəli hadisələrdən biri kimi daxil olmuşdur.

Tarix boyu xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətmiş erməni şovinistlərinin Xocalıda törətdikləri hərbi cinayət, xalqımıza qarşı yürüdülən növbəti düşmənçilik siyasətinin təzahürü idi.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə aylarla mühasirədə saxlanılan Xocalı şəhəri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının ağır hərbi texnikası və hərbi heyətinin birbaşa dəstəyi ilə erməni silahlı qüvvələri tərəfindən yerlə-yeksan edildi, əliyalın dinc əhaliyə qarşı xüsusi amansızlıqla divan tutuldu. Hücum zamanı 25 tank, 87 zirehli döyüş maşını, 28 piyada döyüş maşını və 45 artilleriya qurğusundan istifadə edildi.

Dörd aydan artıq müddət ərzində mühasirədə saxlanılan 3 000-ə yaxın mülki şəxs erməni zülmündən xilas olmaq üçün öz doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qaldı. Soyuq və qaranlıq qış gecəsində qarlı-çovğunlu çöllərə, meşələrə üz tutan Xocalı sakinləri ağlagəlməz müsibətlərlə, dözülməz əzab-əziyyətlərlə üzləşdilər.

Təəssüflər olsun ki, həmin dövrdə mərkəzi hakimiyyət tərəfindən Xocalıya heç bir yardımın göstərilməməsi səbəbindən əhalinin böyük bir hissəsi quduzlaşmış erməni cəlladlarının xain hücumundan xilas ola bilmədi, nəticədə erməni zülmünün qurbanına çevrildilər.

Azğınlaşmış erməni şovinist-millətçiləri qadın, uşaq, qoca demədən dinc əhalini xüsusi amansızlıqla qətlə yetirirdilər. Mühasirədən qurtulmuş əliyalın insanları isə meşə-

lərdə, çöllərdə yaxalayır, onlara tarixdə görünməmiş müxtəlif işgəncələr verərək qətl edirdilər.

Azərbaycan tarixinə qanlı hərflərlə yazılmış Xocalı faciəsi zamanı aralarında 63-ü uşaq, 106-ı qadın, 70-i ahıl, qoca olmaqla ümumilikdə 613 nəfər vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər isə əlil olmuşdur. Faciə zamanı Xocalının 1 275 dinc sakini girov götürülmüşdür ki, onlardan 197 nəfərinin sonrakı taleyi hələ də məlum deyildir.

Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Soyqırım zamanı qətlə yetirilənlərdən 56 nəfəri xüsusi amansızlıqla qətlə yetirilmişdir. Belə ki, onların başları kəsilmiş, gözləri çıxarılmış, başlarının dəriləri soyulmuş, bədən əzaları kəsilmiş, diri-diri yandırılmış, hamilə qadınların hələ dünyaya göz açmayan məsum körpələri bətnlərindən yarılaraq çıxarılmışdır.

Hesablamalara görə, işğal nəticəsində dövlət əmlakına və şəxsi əmlaka külli miqdarda maddi ziyan dəymişdir. Belə ki, işğal zamanı Xocalı şəhəri talan edilərək yandırılmış, 3 məktəb, 1 xəstəxana, 3 tibb məntəqəsi, 3 klub, 3 uşaq bağçası və digər tikililər tamamilə dağıdılmışdır.

Ən acınacaqlı hal isə ondan ibarət idi ki, qətliam törədildiyi vaxt faciənin ağırlığı o zamankı bacarıqsız və səriştəsiz hakimiyyət tərəfindən layiqincə qiymətləndirilmədi, zamanında qətiyyətli addımlar atılmadı. Əksinə, XX əsrin ən müdhiş qanlı faciələrdən biri olan Xocalı Soyqırımının miqyası həm xalqdan, həm də dünya ictimaiyyətindən gizlədilməyə çalışıldı. Öz hakimiyyətləri və tutduqları yüksək vəzifələri itirməmək üçün xalqa əsl həqiqəti deməkdən, qanlı hadisə haqqında doğru-dürüst məlumatı açıqlamaqdan çəkindilər.

Ölkə başçısı Prezident İlham Əliyevin də vurğuladığı kimi: ***"Xocalı faciəsindən danışarkən o zamankı rəsmi***

***Azərbaycan rəhbərliyinin və ölkədə vəziyyətə ciddi təsir edən siyasi qüvvələrin acizliyini, səriştəsizliyini, xalqın taleyinə biganəliyini xüsusi qeyd etmək lazımdır. Dövlət rəhbərliyi xalqın qəzəbindən qorxaraq hadisənin miqyasını kiçiltməyə cəhd etmiş, bu qanlı cinayət barədə beynəlxalq ictimaiyyətə operativ və ətraflı məlumat vermək üçün heç bir iş görməmişdi. O zamankı müxalifət isə faciədən xalqın narazılıq dalğası üzərində hakimiyyətə gəlmək üçün istifadə etdi. O zaman Azərbaycanda hökm sürən hərc-mərclik, hakimiyyətin nüfuzsuzluğu, lidersizlik bu qanlı fəlakətin baş verməsinə şərait yaratdı".***

Bütün dünyanın gözü önündə törədilmiş bu dəhşətli soyqırıma ilk siyasi-hüquqi qiymət isə məhz Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıdışından sonra verilmişdir. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin "Xocalı soyqırımı *(genosidi)* günü haqqında" 1994-cü il 24 fevral tarixli 791 nömrəli Qərarı ilə fevralın 26-ı Xocalı Soyqırımı günü olaraq elan edilmiş və bu qanlı faciə barədə beynəlxalq təşkilatlara müraciət ünvanlanmışdır.

Müraciətdə deyilir: ***"1992-ci il fevralın 26-da Xocalı şəhərinin və onun sakinlərinin başına gətirilən ağır faciə, XX əsrdə bəşəriyyətin şahid olduğu ən dəhşətli hadisələrdən biridir. Bu vəhşiliyi erməni faşistləri keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirmişlər. Qaniçən cəlladlar həmin gün köməksiz dinc mülki əhalini, qocaları, qadınları, uşaqları və bələkdəki dilsiz-ağızsız körpələri aman vermədən qətlə yetirmişlər. Erməni faşistləri həlak olanların başlarının dərisini soymaqla, gözlərini oymaqla, müxtəlif əzalarını kəsməklə, adamları diri-diri torpağa basdırmaq və yandırmaqla dinindən, milliyyətindən, irqindən asılı olmayaraq, hər bir***

***insan övladının dərin nifrətinə layiq olduqlarını göstərmişlər…”.***

Ulu Öndər Heydər Əliyev Xocalı Soyqırımı ilə əlaqədar Azərbaycan xalqına ünvanladığı müraciətində bu amansız kütləvi qırğının tarixi-siyasi mahiyyətini bu cür göstərmişdir: ***“Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir…***

***Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu…”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xocalı Soyqırımı ilə əlaqədar xalqa ünvanladığı müraciətində isə bu faciənin insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri olduğunu qeyd etmişdir: ***“Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi…***

***Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəkdir. O gün gələcəkdir”.***

Bu gün xocalılarla yanaşı, doğma yurdlarından, el-obalarından didərgin düşmüş bütün soydaşlarımız ürəkdən inanır ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü tezliklə bərpa olunacaq, qaçqın və məcburi köçkünlər, eyni zamanda Xocalıdan olan məcburi köçkünlər də öz doğma ata-baba yurdlarına geri dönəcəklər. İşğalçı ölkə və onun qaniçən Xocalı cəlladları öz layiq olduqları cavabı alacaqlar. Məhz həmin gün bütün şəhidlərin narahat ruhları kimi Ulu Öndərin də ruhu əbədi dinclik tapacaqdır.

Müdrik dövlət xadimi, uzaqgörən dahi lider Heydər Əliyev məhz o günləri nəzərdə tutaraq, böyük inam və qətiyyətlə vurğulamışdır: ***“İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır”.***

Bu gün erməni faşistləri tərəfindən Xocalıda törədilən bəşəri cinayətin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, insanlıq əleyhinə cinayət olaraq beynəlxalq səviyyədə siyasi-hüquqi qiymətin verilməsi, onun dünya birliyi tərəfindən soyqırımı cinayəti aktı kimi tanınması dövlətimizin xarici siyasətinin əsas prioritet istiqamətlərindən, hədəflərindən biridir.

Möhtərəm cənab Prezident İlham Əliyev öz çıxışlarında da hər zaman Xocalı Soyqırımının dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində davamlı və ardıcıl fəaliyyətin aparılmasının zəruriliyini vurğulamışdır.

Bu məqsədlə Xocalı həqiqətlərinin beynəlxalq arenada yayılması, qətliama obyektiv siyasi-hüquqi qiymət verilməsi üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən “Xocalıya ədalət” *(ing. Justice for Khojaly)* beynəlxalq təbliğat-təşviqat kampaniyası start götürmüşdür. Kampaniya çərçivəsində bir çox beynəlxalq təşkilatlarda və dünya ölkələrinin parlamentlərində Xocalı Soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin bu barədə geniş məlumatlandırılması istiqamətində ciddi addımlar atılmaqdadır. Bunun nəticəsidir ki, hazırda Xocalı Soyqırımını dünyanın 10-dan artıq ölkəsi və Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları tam və ya parlament səviyyəsində qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər. Xüsusilə Xocalı Soyqırımı ilə bağlı erməni yönümlü təşki-

latların "fəaliyyətlər"inin önlənməsi və səbəbkarların cinayət əməllərinin ifşa olunması istiqamətində "Justice for Khojaly" informasiya portalı təbliğat və maarifləndirmə baxımından müstəsna əhəmiyyətə malikdir.

Eyni zamanda, hər il Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı Soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilir. Dünyanın bir sıra ölkələrində – Türkiyədə, Amerika Birləşmiş Ştatlarında, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə aksiyalar təşkil edilir. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan–Azərbaycan münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılır. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilir, rəsm sərgiləri, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər önəmli tədbirlər təşkil olunur.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyasının fəaliyyət istiqamətinin əsas məqsədi ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayəti aktı barədə həqiqətləri beynəlxalq aləmdə yaymaqdır. Bunun əməli nəticəsidir ki, bu gün erməni lobbisinin güclü təsirlərinə rəğmən, Azərbaycanın haqq səsi, Xocalı həqiqətləri əvvəlki dövrlərə nisbətdə getdikcə daha aktiv mərhələyə keçməklə dünya ictimaiyyəti arasında böyük əks-səda doğurmaqdadır. Belə ki, Xocalı Soyqırımı indi tarixə dinc əhalinin kütləvi qırğını olaraq daxil olmuş və hərbi cinayətlər olaraq yaddaşlardan heç vaxt silinməyən Xatın, Ruanda, Srebrenitsa və Holokost kimi faciələrlə yanaşı çəkilir.

Eyni zamanda, dövlət tərəfindən istər ölkəmizdə, istərsə də ölkəmizin hüdudlarından kənarda Xocalı Soyqırımı

qurbanlarının əziz xatirəsinin ədəbiləşdirilməsi məqsədilə anım parklarının salınması, abidələrin ucaldılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Belə ki, 2008-ci ildə Avropada ilk dəfə olaraq, Hollandiyanın Haaqa şəhərində Xocalı Soyqırımına aid abidə ucaldılmışdır. Sonralar 2011-ci ildə Almaniyanın paytaxtı Berlin şəhərində, 2012-ci ildə Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində, Meksikanın paytaxtı Mexikoda, 2014-2018-ci illər ərzində isə Türkiyənin Ankara, İzmit, İzmir və Sakarya şəhərlərində anım parkı salınmış və abidələr ucaldılmışdır.

Xalqımız isə hər il 26 fevral tarixində Xocalı Soyqırımı qurbanlarının əziz xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini böyük izdihamlı yürüşlə ziyarət edir, onların müqəddəs ruhları üçün dualar edərək, öz vətəndaşlıq borcunu yerinə yetirir. Tariximizə qanla yazılmış bu qətliamı törədənlərə isə ümumxalq etirazını bildirərək, dünya ictimaiyyətindən ermənilərin törətdiyi bu cür vəhşiliklərə laqeyd yanaşılmamasını, ikili standartlara son qoyaraq, bu qanlı faciəyə düzgün siyasi-hüquqi qiymət verilməsini və günahkarların tezliklə layiq olduqları şəkildə cəzalandırılmasını tələb edir.

Qarı düşmən bilsin və agah olsun ki, Azərbaycan xalqı və dövləti olaraq Xocalı Soyqırımını heç vaxt unutmadıq və unutmayacağıq. Çoxəsrlik tariximiz boyu xalqımıza qarşı törədilən bu kimi bəşəri cinayətlər qan yaddaşımızdan heç zaman silinməyəcəkdir, onun ağrı-acıları qəlbimizdə daim yaşayacaqdır.

Allah bütün şəhidlərimizə rəhmət etsin.

*"Səs" qəzeti, 22 fevral 2020-ci il, № 036 (6001)*

# GƏNCLİK
# VƏ
# GƏLƏCƏK

# “KÖNÜLLÜLƏR İLİ” GƏNCLƏRƏ OLAN YÜKSƏK İNAM VƏ DƏYƏRİN GÖSTƏRİCİSİDİR

Hər bir xalqın parlaq gələcəyi, onun mənəvi inkişafı məhz xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız yardımsevərlik kimi müqəddəs niyyətlər təməli üzərində böyüyən, formalaşan və bu kimi nəcib ənənələrə sadiq qalan gənc nəsildən çox asılıdır.

Məhz bu səbəbdəndir ki, bu gün gənclərimizin pis vərdişlərdən yayınmaları, düzgün istiqamətə yönləndirilmələri, sosial müdafiəsi, məşğulluğun təmin olunması, bir sözlə onlara göstərilən xüsusi diqqət və qayğı dövlətimizin yürütdüyü uğurlu gənclər siyasətinin əsas qayəsini təşkil edir.

Gənclərin rolunu daim yüksək qiymətləndirən, onların fəaliyyətinə xüsusi diqqət yetirən, gənclərlə bağlı məsələləri öz fəaliyyətinin ayrılmaz tərkib hissələrindən biri hesab edən Ümummilli Lider Heydər Əliyev demişdir: ***“Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.”***

Ulu Öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərə ünvanladığı fikirlər isə dövlətin gənclər siyasətinin mahiyyətini bir daha aydın şəkildə ifadə edir: ***“Gənclər bizim gələcəyimizdir. Siz gələcəkdə Azərbaycanı idarə edəcəksiniz. Azərbaycanın uğurlu inkişafı sizdən asılı olacaqdır. Ona görə siz gənclər bilikli, savadlı olmalısınız. Bu gün dünyada hər şeyi bilik, savad həll edir. Hətta ölkələrin gücünü, potensialını indi bilik, savad həll edir. Texnoloji, elmi tərəqqi haradadırsa, inkişaf da oradadır. İntellektual cəhətdən böyük imkanlara malik olan ölkələr dünyada da öz mövqelərini***

***möhkəmləndirirlər. Ona görə də bilik, savad hər bir gənc üçün – həm onun özü, həm də cəmiyyət üçün çox önəmlidir. Eyni zamanda, bizim gənclərimiz Vətənə bağlı, vətənpərvər olmalıdırlar və mən şadam ki, bu, belədir. Bizim gənclərimiz əsl vətənpərvər gənclərdir. Fəxr edirlər ki, Azərbaycan vətəndaşlarıdırlar və həqiqətən də vətəni sevən hər bir insan bu gün qürur hissi ilə deyə bilər ki, mən Azərbaycan vətəndaşıyam...***

***Gənclər, mən sizə inanıram, güvənirəm."***

Dövlətimiz tərəfindən həyata keçirilən uğurlu gənclər siyasəti gənclərin yeni inkişaf nümunəsi kimi könüllülük hərəkatının da cəmiyyətdə, xüsusilə gənclər arasında təbliğinə, onun daha da genişlənməsinə səbəb olmuşdur.

Bu baxımdan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu gənclər siyasətinin məntiqi ardıcıllığı olaraq, Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında 30 dekabr 2019-cu il tarixli, 1748 nömrəli Sərəncamı, məhz ölkəmizdə könüllülük ənənələrinin mühüm əhəmiyyət kəsb etməsinə ali səviyyədə verilən yüksək qiymətin əyani təsdiqi olmaqla yanaşı, onun daha da genişlənməsinə, inkişaf etməsinə münbit və əlverişli şərait yaratmış olacaqdır.

Ölkəmizdə könüllülük prinsiplərinin geniş təbliğinə ilk dəfə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra – 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi ilə BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi çərçivəsində başlanılmışdır.

Bu sahə üzrə fəaliyyət mexanizmi isə "Könüllü fəaliyyət haqqında" 9 iyun 2009-cu il tarixli 828-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu əsasında qurulur. Belə ki, Qanun hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir. Qanuna əsasən, könüllü fəaliyyət – Azərbay-

can Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyətdir. Könüllü isə – öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti şəxsən həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir.

Qanunun qəbulu ölkəmizdə bu sahə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi ilə yanaşı, könüllülük fəaliyyətinin yeni inkişaf mərhələsinə qədəm qoymasına da səbəb oldu.

Belə ki, 2013-cü ilə qədər bu sahə ölkəmizdə kiçik komandalar şəklində fəaliyyət göstərsə də, həmin il Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin *(ASAN Xidmət)* nəzdində aktiv və konstant könüllü təşkilat olan "ASAN Könüllüləri" Təşkilatı *(AKT)* yaradıldı. Bu hərəkat minlərlə gəncin ilk iş təcrübəsi qazanmasına, öz peşəsinin incəliklərinin öyrənməsinə geniş imkanlar yaratdı.

Bu gün isə ölkəmizdə Azərbaycan Könüllü Təşkilatları İttifaqı çərçivəsində – "ASAN Könüllüləri" Təşkilatı ilə yanaşı, "Regional İnkişaf" İctimai Birliyi, "Aqrar İnkişaf Könüllüləri" İctimai Birliyi, "Miqrasiya Könüllüsü" İctimai Birliyi, "Könüllü gömrükçü" Dəstəsi, "Turizm Könüllüləri" Təşkilatı, "Ekokönüllüləri" Qrupu, "Diplomatiya Könüllüləri" Qrupu, "Gənc Könüllülər" Hərəkatı, "SƏLİS Könüllüləri" İctimai Birliyi, "Ədliyyə Könüllüləri" İctimai Birliyi, "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi, həmçinin "Könüllü DOST" Proqramı, "Nəqliyyat Könüllüləri" Proqramı, "Formula 1 Azərbaycan Qran-Prisi" Könüllülük Proqramı, "AFFA və Avro-2020" Könüllülər Proqramı, "Azərbaycan Diaspor Könüllüləri" Proqramı, "Könüllü Qida Nəzarətçisi" Proqramı və digər könüllü hərəkatları ya-

radılmış, ümumilikdə ölkənin bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarını əhatə edən, on minlərlə gənci vahid amal ətrafında sıx birləşdirən könüllü qrupları fəaliyyət göstərməkdədir.

Xüsusilə 2008-ci ildə ölkəmizdə ilk dəfə olaraq keçirilən "Avroviziya Mahnı Müsabiqəsi" könüllülük hərəkatının daha da genişlənməsinə səbəb oldu. Daha sonra 2015-ci ildə keçirilən "Birinci Avropa Oyunları", 2017-ci ildə keçirilən "Dördüncü İslam Həmrəyliyi Oyunları", bir neçə ildir ki, ardıcıl, mükəmməl şəkildə təşkil olunan "Formula 1" yarışları və digər bu kimi mötəbər, irimiqyaslı beynəlxalq tədbirlərin uğurla həyata keçirilməsində könüllülər xüsusi rol oynamaqla yanaşı, ümumi sayları iyirmi iki mini ötmüş böyük bir könüllülər ordusunu da yaratmış oldular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin fevral ayının 1-də Azərbaycanda gənclər günü münasibətilə keçirilən tədbirdə gənclərlə görüşü zamanı könüllülərin ölkə həyatının bütün sahələrindəki fəallığına yüksək qiymət verərək demişdir: ***"Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Mən bunu çox alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir"***.

Ölkə başçısı bildirmişdir ki, Könüllülər hərəkatının xüsusi əhəmiyyəti vardır: ***"Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır. Könüllülər hərəkatı "ASAN xidmət"dən başladı və "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu gün "ASAN xidmət" bizim milli intellektual, innovasiya məhsulumuzdur. Artıq bir neçə ölkə bizim köməyimizlə bu sistemi tətbiq etməyə başlayıb. "ASAN xidmət" yeni bir xidmət növüdür***

***və təsadüfi deyil ki, vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxınlaşır".***

Dövlətimizin gənclərə göstərdiyi xüsusi diqqət və qayğı, hər bir gəncdə özünə, potensialına inam hissini aşılamaqla yanaşı, onların hərtərəfli inkişafına da geniş və hərtərəfli yol açmış olur.

Bir sözlə, könüllülər öz innovativ təşəbbüsləri, intellektual araşdırmaları, müasir baxışları, yenilikçi və kreativ düşüncə tərzləri ilə fəaliyyət göstərdikləri hər bir sahəyə yeni nəfəs, yeni həyat gətirirlər.

İnanırıq ki, könüllülərimiz – ümumilikdə isə vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz gənclərimiz hər il olduğu kimi, bundan sonrakı illər ərzində də əzmlə çalışaraq və səylə xidmət edərək, xalqımızın rifahına, dövlətimizin daha da güclənməsinə, onun çiçəklənməsinə böyük fayda qatacaqlar.

Bizim ümumi evimizə – vətənimiz Azərbaycana xidmətdə, bu müqəddəs missiyanızda sizlərə bol-bol uğurlar arzu edirik, əziz Könüllülər!

*"Səs" qəzeti, 10 noyabr 2020-ci il, № 003 (5968)*

# SAĞLAM GƏLƏCƏK NAMİNƏ BİRGƏ ADDIMLAYAQ

Müasir dövrümüzün ağrılı və acınacaqlı problemlərdən biri də narkomaniyadır. El arasında "ağ ölüm" kimi tanınan bu bəşəri bəlaya düçar olanların sayı isə ildən-ilə artmaqdadır.

Bəs bəşəriyyətin təhlükə mənbəyinə çevrilmiş və onu məhvə sürükləyən bu bəla – narkomaniya nədir?

"Narkomaniya" yunan sözü olub, "narko" – "bihuşluq", "maniya" isə – "asılılıq" deməkdir.

Adından da göründüyü kimi, narkotik maddə mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddədir. Belə ki, o, toksik maddə olduğundan insanın bütün orqanizminə, xüsusilə mərkəzi sinir sisteminə ciddi mənfi təsir göstərir və beləliklə, xəstə özünü şüurlu şəkildə idarə edə bilmir. Bu isə son məqamda aqressivliyə, sosial münasibətlərin pozulmasına, hətta cinayətkarlığa meyilliliyə və ölüm hallarına da gətirib çıxarır.

Uzun illərin elmi araşdırmaları sübut edir ki, narkomanlıq insanı ruhi cəhətlə yanaşı, fiziki cəhətdən də şikəst edir. Belə ki, narkotik maddələr, ilk növbədə orqanizmin immunitet səviyyəsini aşağı salaraq, ürək-damar sisteminə, qara ciyər və böyrək kimi mühüm daxili orqanların ciddi zədələnmısinə yol açır. Nəticədə, orqanizm zəifləyir, çəki itkisi yaranır və insanın fiziki gücü tükənir, sonda isə ölümlə nəticələnir. Araşdırmalar göstərir ki, erkən yaşdan narkotik maddələr qəbul edən şəxslərin ömrü 35-40 il arası təşkil edir.

Onu da nəzərə almaq lazımdır ki, narkomaniya Hepatit, QİÇS kimi ağır yoluxucu xəstəliklərə də yol açan, gizli, ancaq sürətli şəkildə yayılma xüsusiyyətlərinə malik yoluxucu xəstəlikdir. Belə ki, müxtəlif şəxslər tərəfindən eyni iy-

nədən istifadə zamanı, narkomanların 90%-i məhz bu kimi ağır xəstəliklərə yoluxur.

Mütəxəssislərin fikrincə, ən acınacaqlı hal isə ondan ibarətdir ki, narkotik maddə aludəçisi olan şəxs özündən əlavə, ən azı 10-15 nəfər şəxsi də bu yola cəlb edə bilər. Bu isə xəstəliyin nə qədər sürətli şəkildə yayılma təhlükəliliyinin real göstəricisidir.

Birləşmiş Millətlər Təşkilatının *(BMT)* Narkotiklərə və Cinayətkarlığa qarşı mübarizə İdarəsinin *(BMTNC)* "Narkotiklərə dair Ümumdünya Hesabatı"na əsasən, 2020-ci ildə yer kürəsinin 15-64 yaş arası 275 milyon sakini planetimizin ən qlobal problemlərindən biri olan "ağ ölüm"ün əsrinə çevrilmişdir. Bu isə həmin yaş arası ümumdünya əhalisinin təqribən 5,5%-ni təşkil edir. Hesabata əsasən, son 10 ildə dünyada narkotik istifadəçilərinin sayı təqribən 22% artmışdır.

Bu statistikanın 47 milyon nəfəri Latın Amerikası ölkələrinin payına düşür. Belə ki, təkcə Meksikada narkomaniyanın bəlasına düçar olmuş şəxslərin sayı 1 milyon 200 min nəfəri ötmüşdür. Avropa Birliyi ölkələrinə gəldikdə isə orada 750 minə yaxın insan narkotik maddə aludəçisidir. MDB və Asiya ölkələrində isə bu göstərici 26 milyondan çoxdur. Lakin onu da qeyd edək ki, ekspertlərin fikrincə, bu rəqəm tam real gerçəkliyi əks etdirmir. Çünki narkomanların heç də hamısı qeydiyyata düşmür.

Ümumdünya Səhiyyə Təşkilatının hesabatına əsasən, son bir ildə dünya əhalisi üzrə narkoistifadədən ölənlərin sayı təqribən 450 minə çatmışdır.

Təəssüflər olsun ki, bu bəla ölkəmizdən də yan keçməmişdir. Doğrudur, bir sıra dünya ölkələri ilə müqayisədə ölkəmizdə narkomaniya o qədər geniş yayılmasa da, mövcuddur və ciddi mübarizələrə rəğmən, yenə də artmaqdadır.

Belə ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin son on il üzrə statistik məlumatlarına əsasən, respublikamızda 2011-ci ildə narkotik istifadəçilərin sayı 26 716 nəfər, 2012-ci ildə 27 910 nəfər, 2013-cü ildə 28 376 nəfər, 2014-cü ildə 28 656 nəfər, 2015-ci ildə 28 555 nəfər, 2016-cı ildə 29 448 nəfər, 2017-ci ildə 30 131 nəfər, 2018-ci ildə 31 432 nəfər, 2019-cu ildə 32 921 nəfər olmuşdur. 2020-ci ildə isə bu göstərici bir qədər də artaraq 33 788 nəfər təşkil etmişdir ki, onların da içərisində 30-39 yaş arası şəxslər *(10 921 nəfər)* üstünlük təşkil edir. Xüsusilə narkotik istifadəçilərin 7 645 nəfərə yaxını məhz 18-29 yaş arası olan gənclərdir ki, bu da ümumi qeydiyyatda olan narkotik maddə istifadəçilərinin təxminən 23%-ni təşkil edir. Ən acınacaqlı hal isə ondan ibarətdir ki, narkotik istifadəçiləri arasında 14-17 yaş arası yeniyetmələr də mövcuddur ki, onların da sayı 9 nəfər təşkil edir.

Statistik məlumatlara əsasən, narkotik istifadəçilərin 28 318 nəfəri dispanser, 5 470 nəfəri isə profilaktik qeydiyyatdadırlar. Onlardan da 618 nəfəri qadındır.

Tibbi təcrübələr göstərir ki, narkomaniyanın müalicəsi çox çətin prosedurdur. Belə ki, narkotik maddədən asılılıq bir və ya bir neçə dəfə istifadədə yaransa da, ondan qurtulmaq çox uzun və ağır dövrü əhatə edir. Bu öldürücü, zərərli maddənin pəncəsindən çətin və gec də olsa qurtulmağa çalışanlar olsa da, təəssüflər olsun ki, atılan addımlar hər zaman öz müsbət nəticəsini vermir. Bunun başlıca səbəbi isə xəstəliyin güclü iradə və uzunmüddətli müalicə dövrü tələb etməsidir.

Narkomaniyaya qarşı mübarizə tədbirlərinə gəldikdə isə bu, ilk növbədə ailədən və təhsil ocaqlarından başlayır. Belə ki, psixoloqların fikrincə, yeniyetmə və gənclərin bu kimi zərərli vərdişlərə qurşanmasına səbəb olan risk faktorları aşağıdakılardan ibarətdir:

- psixi problemləri olan və ya narkotik asılılığı olan valideynlərin olduğu xaotik ailələr;
- düzgün olmayan tərbiyə üsulları;
- valideyn və övlad arasında münasibət pozuqluğu və sevgi əskikliyi;
- həddindən artıq utancaqlıq və aqressiv davranışlar;
- dərsdə müvəffəqiyyətin azalması;
- sosial bacarıqların zəif olması;
- deviant davranış nümayiş etdirən insanların olduğu mühitdə olmaq;
- ailə və təhsil mühitində narkotik maddələrin istifadəsinə şəraitin yaradılması;
- ətraf mühitin mənfi təsirləri;
- valideyn nəzarətinin aşağı olması;
- narkomaniya barədə məlumatsızlıq və s.

Asılılığı önləyən qoruyucu faktorlara isə aşağıdakılar daxildir:

- güclü və pozitiv ailə əlaqələri;
- ailədaxili intizam qaydalarının olması və hər bir ailə üzvünün bu qaydalara mütləq şəkildə əməl etməsi;
- valideynlərin övladlarının həyatı ilə yaxından maraqlanması, onların etdikləri hər bir işdən xəbərdar olması;
- dostlarını və çevrəsini tanıması;
- onların özünüinkişaf kimi əlavə məşğuliyyətlərə cəlb olunması və s.

Bu gün narkomaniya təkcə bəşəriyyətin sağlamlığına, mənəvi dünyasına deyil, qlobal dünya iqtisadiyyatına da narkoticarət yolu ilə ağır və sağalmaz zərbələr vurmaqdadır. Belə ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə qarşı ciddi təhdidlərdən biri kimi çıxış edir.

Hesablamalara görə, narkotik vasitələrin və psixotrop maddələrin dünya miqyasında qanunsuz dövriyyəsindən hər il təqribən 450-500 milyard ABŞ dolları *(bunun da ən azı 30 milyard ABŞ dolları Avropanın payına düşür)* gəlir əldə edilir ki, bu da dünyada yeni müharibə və münaqişə ocaqlarının, ayrı-ayrı terrorçu mərkəzlərin, mütəşəkkil cinayətkar qrupların yaradılmasına, qanunsuz silah satışının daha da artmasına və digər cinayətkar aksiyalara sərf olunur.

Çox təəssüflər olsun ki, vaxtilə işğala məruz qalmış Qarabağ və Şərqi Zəngəzur ərazisində də xeyli sayda narkotik plantasiyalar salınmış, laboratoriyalar fəaliyyət göstərmişdir. Düşmən silahlı münaqişə nəticəsində işğal olunmuş Azərbaycan ərazilərindən narkotiklərin becərilməsi, satışı və tranziti, eyni zamanda transmilli cinayətlərin həyata keçirilməsi üçün nəzarətsiz zona kimi istifadə etmiş, hər il dünya bazarlarına on tonlarla narkotik maddələr çıxarmışdır.

Ümumdünya üzrə narkotik bitkilərin qeyri-qanuni becərilməsi və satışı üzrə ilk mövqedə Əfqanıstan, sonra isə Meksika, Myanma kimi ölkələr dayanır. Belə ki, dünyada müsadirə edilən heroinin 80%-dən çoxu məhz Əfqanıstanda istehsal edilir. Təkcə ötən il Əfqanıstanda tiryək istehsalının həcmi 8% artaraq 6 800 tona çatmışdır. Bu isə dünya bazarlarına əlavə 320 ton xalis heroinin çıxması deməkdir.

Dünya üzrə bu kimi mənfi halları nəzərə alan BMT 1961-ci il ildə "Narkotik vasitələr haqqında" Vahid Konvensiya, 1971-ci il ildə "Psixotrop maddələr haqqında" Konvensiya, 1988-ci il ildə isə "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiya qəbul etmişdir.

BMT-nin 1988-ci il tarixli Konvensiyasına daxil olan ölkələrin birgə Bəyannaməsinə əsasən, narkomaniyaya dair

problemlərin daim ictimaiyyətin diqqətində saxlanılması məqsədi ilə hər il “26 iyun – Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü” kimi qeyd olunur.

Ölkəmiz isə öz müstəqilliyinə qovuşduqdan sonra bütün sahələrdə olduğu kimi, narkomanlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində də məqsədyönlü, ardıcıl və təxirəsalınmaz addımlar atmışdır.

İlk addım olaraq, 1992-ci ildə Azərbaycan Respublikası BMT-yə tamhüquqlu üzv olduqdan sonra “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” BMT-nin 1988-ci il konvensiyasına qoşulmuşdur. 1998-ci ildə isə Azərbaycan Respublikası BMT-nin “Narkotik vasitələr haqqında” 1961-ci il və “Psixotrop maddələr haqqında” 1971-ci il Konvensiyalarına qoşulmuşdur. Həmçinin ölkəmiz narkotiklərlə mübarizədə beynəlxalq əməkdaşlığın aktuallığını nəzərə alaraq, cinayətkarlıq və narkotiklərlə mübarizə sahəsində dünyanın bir sıra dövlətləri ilə ikitərəfli və çoxtərəfli sazişlər, memorandumlar imzalamışdır.

Müstəqilliyimizin ilk illərindən başlayaraq, Ulu Öndər Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, cəmiyyətimizin sağlam inkişafının zəruriliyini vurğulayaraq demişdir:

***“Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və əqli sağlamlığı uğrunda aparılan mübarizədir.”***

Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni gücləndirmək məqsədilə, “Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında” 1996-cı il 26 avqust tarixli

485 nömrəli Fərman imzalamış və beləliklə problemin həll edilməsi üçün görülən işlər keyfiyyət baxımından yeni mərhələyə qədəm qoymuşdur. Bu Fərman əsasında ölkəmizdə "2000-ci illədək narkomanlığın yayılması, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı" mübarizəyə dair Dövlət Proqramı hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, 18 iyun 1999-cu ildə isə Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 686-IQ nömrəli Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. Bu Qanunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qanunla qadağan edilmişdir.

Beləliklə, bu gün ölkəmizdə bu sahə üzrə normativ hüquqi baza yaradılmış, struktur təkmilləşdirilməsi aparılmış, icrası zəruri milli proqramlar hazırlanaraq həyata keçirilmişdir. Narkomaniya və narkotik maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə dövlətimizin qarşısında duran ən vacib məsələlərdən birinə çevrilmişdir.

Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin davamı olaraq, bu problemlə əlaqədar 2000–2006-cı illəri, 2007–2012-ci illəri və 2013–2018-ci illəri əhatə edən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair üç mühüm əhəmiyyətli Dövlət Proqramı təsdiq etmişdir. Hal-hazırda isə Prezident İlham Əliyevin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə 2019–2024-cü illəri əhatə edən növbəti 5 illik Dövlət Proqramı icra edilməkdədir.

Beləliklə, görülmüş bütün bu işlər, həyata keçirilmiş bu kimi təxirəsalınmaz tədbirlər bir daha ölkəmizdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyini, Prezident İlham Əliyevin bu sosial bəlanın bütün təzahürlərinə qarşı prinsipial və qətiyyətli mövqeyə sahib olduğunu nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 yanvar 2004-cü il tarixdə Bakıda keçirilmiş "Böyük İpək Yolu dövlətlərində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusundakı beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətində vurğuladığı kimi: ***"Coğrafi mövqeyindən, ictimai-iqtisadi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi ənənələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Məlumdur ki, narkomaniya və narkobiznes insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir…***

***Azərbaycan dövləti də narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, beynəlxalq birliyin bu sahədə bütün səylərini dəstəkləyir…".***

Dünya təcrübəsi göstərir ki, narkomaniyanın cəmiyyətdə, xüsusilə gənclər arasında yayılma səbəblərindən biri də narkotik vasitələrin insan orqanizmində törədə biləcəyi ağır fəsadlar haqqında cəmiyyətin məlumatsızlığının olmasıdır. Xüsusilə bu sahədə təbliğatın aşağı səviyyədə aparılması gənclərin bu bəlanın ağuşuna hazır yem kimi atılmasına münbit şərait yaradır.

Bu səbəbdən sağlam həyat tərzinin cəmiyyətdə, xüsusilə gənclər arasında təbliği üçün yeniyetmə və gənclər arasında bəşəriyyəti dərindən düşündürən, onu narahat edən ən ciddi problemlərdən biri kimi narkomaniya, onun ağır zərərləri və fəsadları haqqında düzgün maarifləndirici tədbirlərin intensiv hal alması olduqca zəruridir.

Bu məqsədlə ölkəmizdə gənclər siyasətinin əsas istiqamətlərindən biri kimi istər ümumi təhsil müəssisələrində, istərsə də orta ixtisas və ali təhsil müəssisələrində narkomaniya ilə mübarizə ilə bağlı maarifləndirmə işlərinin gücləndirilməsi və narkomaniyanın cəmiyyətə mənfi təsiri, doğurduğu fəsadlar barədə silsilə tədbirlər həyata keçirilir. Bura aşağıdakılar daxildir:

- gənclərə maarifləndirici buklet və broşurlar kimi zəruri təbliğat materiallarının paylanılması;
- anti-reklam lövhələrin asılması;
- məktəblərdə bu mövzuda şagirdlərin əl işlərindən ibarət rəsm sərgilərinin təşkil olunması;
- səhnələşdirilmiş tamaşaların nümayiş olunması;
- bu sahə üzrə ixtisaslı, səlahiyyətli şəxsləri cəlb etməklə gəncləri maraqlandıran suallar ətrafında geniş diskussiyaların aparılması və s.

Üzərində narkotik vasitələrin fəsadları barədə xəbərdaredici və zəruri əlaqə vasitələrinə dair məlumatlar əks olunan sosial lövhələrin ümumölkə üzrə təhsil ocaqları ilə yanaşı, Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində də quraşdırılması təmin edilir.

Həmçinin "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə metropolitenin stansiyalarının platforma, keçid, vestibüllərində, həmçinin sərnişin axınını tənzimləyən eskalatorlara yaxın sahələrdə sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı müasir dizayn ilə tərtib edilmiş sosial lövhələr yerləşdirilir, stansiyalarda quraş-

dırılmış monitorlarda narkotik vasitələrin və psixotrop maddələrin zərərli təsirlərini əks etdirən sosial təyinatlı videoçarxlar nümayiş etdirilir.

Eyni zamanda, maarifləndirici videoçarxların Bakı şəhərinin bir sıra küçə və prospektlərində mövcud elektron reklam lövhələrində və avtobuslarda olan monitorlarda yayımlanılır. Həmçinin Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə sms maarifləndirmə layihəsi çərçivəsində sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı ölkədaxili mobil operatorlar vasitəsilə aktiv abunəçilərə sms bildirişin göndərilməsi həyata keçirilir.

Yalnız onu da qeyd etmək lazımdır ki, bu mövzuda bütün məsuliyyət dövlət qurumlarının öhdəliyinə düşməməlidir. Bütöv cəmiyyət olaraq bu ağrılı məsələyə həssas yanaşmalı, hər birimizin üzərinə düşən bu böyük məsuliyyəti dərindən hiss edərək, birgə mübarizə aparmalıyıq. Yeniyetmə və gənclərə sağlam həyat tərzinin yeganə yolunun mənəvi saflıq və fiziki sağlamlıq olduğunu aşılamalıyıq.

Gəlin birlikdə planetimizin ən qlobal problemlərindən birinə çevrilən, gənclərimizi ölümün ağuşuna alan, cəmiyyətimizin mənəvi və intellektual potensialının aşınmasına səbəb olan, genofondumuza sarsıdıcı, ağır və sağalmaz zərbələr vuran bu bəşəri bəlaya – Narkomaniyaya YOX! deyək. Öz ailəmizi, əzizlərimizi, çevrəmizi, ümumilikdə isə xalqımızı bu bəladan qoruyaq. Bu bəlaya düçar olmuş və ondan əziyyət çəkən vətəndaşlarımızı isə cəmiyyətdən təcrid etməyək, əksinə, öz yardım əlimizi uzadaraq birgə mübarizə aparmaqda onlara dəstək olaq.

*www.ikisahil.az*
*13 iyul 2021*

# BƏLƏDÇİ

## Siyasi baxış

Vətənin qurtuluş savaşına başçılıq edən Lider ........... 4
Azərbaycan – tolerantlıq məkanı ................................ 9
Regionların inkişafı dövlətimizin diqqət mərkəzində . 12
Azərbaycan və Türkiyənin media sahəsində birgə əməkdaşlığı ........................................................................ 15

## Vətən müharibəsi – Zəfər Yolu

Erməni neofaşizmi və Azərbaycanın haqq savaşı ....... 19
Ədalət qalib gəldi ....................................................... 28
Zəngəzur dəhlizi – sülhün və inkişafın təminatı .......... 33
Şuşa – Azərbaycanın tarix və memarlıq abidəsi .......... 42
Uğur Salnaməsinin növbəti real təntənəsi – Fərrux Zəfəri ........................................................................ 58

## Dayanıqlı enerji təminatı və təhlükəsizliyi

Böyük Qayıdışın yolu: "Qarabağ"dan – Qarabağa ...... 72
"Dostluq" yatağı – mehriban qonşuluq və əməkdaşlığın nümunəsi ........................................................ 78
Alternativ və bərpaolunan enerji mənbələrinin imkanları ........................................................................ 84
Ümumi enerji istehlakında alternativ və bərpaolunan enerji mənbələrinin rolu ............................................ 90
İşğaldan azad edilmiş ərazilər "ağıllı kənd və şəhər" və "yaşıl enerji zonası" konsepsiyaları əsasında yenidən qurulacaqdır ................................................... 96
Azad edilmiş ərazilərdə yaşıl enerjiyə keçidin reallıqları və əhəmiyyəti ........................................... 104

Qlobal iqlim dəyişikliyində alternativ və bərpaolunan enerji mənbələrinin əhəmiyyəti .................................. 114

## Erməni vandalizmi

Erməni vandalizmi: tarixi-mədəni irsimizə qəsd ......... 129
Bəşəriyyətə qarşı törədilən ekoloji terror – Oxçuçay .. 138

## Tariximizin qan yaddaşı

31 mart – Azərbaycanlıların Soyqırımı Günüdür ........ 146
20 Yanvar faciəsi – tariximizin qanlı və şanlı səhifəsi 155
Xocalı Soyqırımı insanlığa qarşı cinayətdir ................ 162

## Gənclik və gələcək

"Könüllülər İli" gənclərə olan yüksək inam və dəyərin göstəricisidir .................................................. 170
Sağlam gələcək naminə birgə addımlayaq ................. 175

Məsul redaktor: **fil.f.d. Töhfə Talıbova**

Nəşriyyat redaktoru: **Maral Poladova**

Texniki redaktor: **Rəşid Kərimli**

Korrektor: **Zərin Vəliyeva**

Çapa imzalanmışdır: 14.06.2022
Şərti çap vərəqi: 11,75. Sifariş: № ___.
Kağız formatı: 60x84 1/16. Tiraj: 300.

---

Kitab “ELM VƏ TƏHSİL NƏŞRİYYAT–POLİQRAFİYA”
müəssisəsi tərəfindən çap olunur.
***E-mail:*** *elm.ve.tehsil@mail.ru*
***Tel:*** *497-16-32; 050-311-41-89*
***Ünvan:*** *Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*